Based on the literature data [1], it can be concluded that the use of aromatic amines such as secondary amines in the mentioned reaction can increase their antioxidant capacity while maintaining the existing properties of the obtained aminosulfides.

Considering the above, as a continuation of the above-mentioned research, the interaction of mercaptoacetic acid esters with formaldehyde and secondary aromatic amines was studied:




R = $C_2H_5$, $C_3H_7$, i-$C_3H_7$, n-$C_4H_9$,  $R^1$= $CH_3$, $C_2H_5$, $C_6H_5$

The structure of the synthesized substances was confirmed by the IR-spectroscopy method and molecular refraction values.

**References**

1. A.M.Guliyev. Chemistry and technology of additives to oils and fuels, *Chemistry*, 1985, 312 p.

## 2-ALLİLFENOLUN FORMALDEHİD VƏ METİLAMİNLƏ KONDENSLƏŞMƏ REAKSİYASININ VƏ REAKSİYA MƏHSULLARININ TƏDQİQİ

**Günay Mehdiyeva, Musa Bayramov**

*Bakı Dövlət Universiteti*
*mehdiyeva_gm@mail.ru*

Tərkibində müxtəlif funksional qruplar və heteroatomlar saxlayan fenol birləşmələri həm nəzəri, həm də tətbiqi baxımdan aktual və perspektivlidir [1,2]. Onlardan texnikanın müxtəlif sahələrində antioksidant, korroziyaya qarşı, yağlar və yanacaqlara antimikrob əlavələr, polimer materiallarına stabilizatorlar, analitik reagentlər və s. kimi istifadə oluna bilər [3].

Fenol sıra birləşmələrin sintezi və çerilmələri sahəsində aparılan çoxsaylı tədqiqatlara baxmayaraq, son onilliklərdə onların təbii və sintetik funksional əvəzedici törəmələrinin öyrənilməsinə həsr olunmuş tədqiqatların daha da artması müşahidə olunur [4-6].

Təqdim olunan tezis 2-alilfenolun formaldehid və metilaminlə üç komponentli kondensləşməsi (1:1:1 və 1:2:1 mol nisbətində, 80°C temperaturda və 3 saat müddətində) reaksiyasına və reaksiya məhsullarının tədqiqinə həs olunmuşdur.

Aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, alınan reagentlərin nisbətindən asılı olaraq müxtəlif strukturlu birləşmələr əmələ gəlir. Belə ki, 8-alill əvəzlənmiş 1,3-benzoksazinin HBr ilə reaksiyası nəticəsində dördlü ammonium duzu sintez edilmişdir.

8-Allil əvəz edilmiş 1,3-benzoksazin və onun əsasında alınmış ammonium duzunun mikroorqanizmlərə qarşı antimikrob xassələri tədqiq edilmişdir. Tədqiqatda mikroorqanizmlərdən *Stafilokoccus Aureus ATCC ®25923, Eschericihia Coli ATCC ® 25922, Candida Albicans NSTC-3255 /ATCC2091, Shigella flexneri ATCC®12022, Salmonella enterica ATCC®13076 və* Aspergillus niger (su izolyasiyası) kimi patogenlərdən istifadə olunmuşdur. Müəyyən edilmişdir ki, birləşmələrin 30 mq/l qatılığında hər iki birləşmələr standartlarla (amoksisillin və flukonazol) müqayisədə ən yüksək bakterisid və funqisid xüsusiyyətlərə malikdir.

Sintez olunmuş 1.3-benzoksazinin termiki emalı nəticəsində tikili polimer alınmışdır və həmin polimerin termoqravimetrik və differensial termiki metodla termiki xassəsi öyrənilmişdir. Tikili polimerin istilik xassələri öyrənilərkən onların kifayət qədər termiki davamlı (~450oC-ə qədər) olması müəyyən olunmuşdur. Alınmış polimerin həmçinin sulu sistemlərdən uranil ionlarının çıxarılması üçün sorbsiya xüsusiyyətlərinə malik olması da müəyyən edilmişdir (pH 7-də ekstraksiya dərəcəsi ~ 70%, sorbsiya qabiliyyəti 178 mq/q).

Alınan birləşmələrin strukturları İQ və NMR spektroskopiyası metodları ilə təsdiq eilmişdir.

### Ədəbiyyat

1. O.V.Shchukina, I.Yu.Chukicheva, O. G.Shevchenko, T.A.Kolegova, K.Yu.Suponitsky, A.V.Kutchin, Synthesis and properties of functional derivatives of 2,6-diisobornylphenol and 2-isobornyl-6-(1-phenylethyl)phenol, *Russian Journal of General Chemistry*, 2018, 88(4), p. 664
2. G.M.Mehdiyeva, M.R.Bairamov, Sh.B.Hosseinzadeh, G.M.Hasanova, Allylphenoxypiperidinium halides as corrosion inhibitors of carbon steel and biocides, *Turkish Journal of Chemistry*, 2020, 44, p. 670
3. A.M.Maharramov, M.R.Bayramov, M.A.Agayeva, G.M.Mehdiyeva, I.G.Mamedov, Alkenylphenols: preparation, transformations and applications, *Russian Chemical Reviews*, 2015, 84(12), p. 1258

4. M.V.Musalova, M.V.Musalov, S.I.Udalova, A.G.Khabibulina, V.A.Potapov, S.V.Amosova, Synthesis of 2,3-dihydro-1-benzofuran-2-ylmethyltellanes, *Russian Journal of General Chemistry*, 2018, 88(8), p. 1751
5. V.A.Potapov, R.S.Ishigeev, M.V.Musalov, M.V.Musalova, S.V Amosova, Annulation of dihydrofuran ring to benzene in the reaction of 2-allylphenol with sulfur dichloride, *Russian Journal of Organic Chemistry*, 2015, 51, 9, p. 1351.
6. G.M.Mehdiyeva. Synthesis and antimicrobial activity of 3-substituted 8-propenylbenzo[e][1,3]oxazines, *Russian Journal of Applied Chemistry*, 2021, 95(2), p. 277

# (*E*)-1-(AMİNO(1H-PİRAZOL-1-İL)METİLEN)QUANİDİNİUM XLORİDİN SİNTEZİ VƏ ANTİOKSİDANT VƏ ENZİM-İZOENZİMLƏR ÜZRƏ İNHİBİTOR XASSƏLƏRİNİN TƏDQİQİ

**Fidan Rəhimova[1, 2], İbadulla Mahmudov[1], Irada Rzayeva[1], Əfsun Sucayev[1], Yusif Abdullayev[3]**

*Aşqarlar Kimyası İnstitutu[1]*
*Bakı Dövlət Universiteti[2]*
*Bakı Mühəndislik Universiteti[3]*
*fidanrhimova24@gmail.com*

Pirazol əsaslı maddələr bioloji aktiv birləşmələrin sintezi üçün çox vacib tikinti bloklarıdır. Pirazol halqası antidepresan, analjezik, piylənmə əleyhinə xüsusiyyətlərə malik bir çox dərmanda aşkar edilmişdir. Pirazol törəmələri selektiv COX-2 inhibitorları kimi istifadə edilmişdir və təcrübələr göstərmişdir ki, sintez olunan birləşmələr kommersiya dərmanları, məsələn, selekoksib, aspirin, ibuprofen və ilə müqayisədə güclü antiinflamatuar xüsusiyyətlərə malikdir. Pirazol birləşmələri koordinasion sintetik kimyada metal üzvi birləşmələrin liqand hissəsi kimi istifadə edilmişdir.

Tərkibində pirazol tərkibli strukturların bioloji aktiv maddələr kimi əhəmiyyətini nəzərə alaraq aşağıdakı sxemə uyğun olaraq siyanoquanidin və pirazol əsasında liqand sintez etmişik:




***Sxem.*** *$H_5L \cdot HCl$ liqandın (VIII) sintezi*

(*E*)-1-(amino(1*H*-pirazol-1-il)metilen)quanidinium xlorid ($H_5L·HCl$) göstərilən ənənəvi üsula uyğun olaraq sintez edilmişdir [1].

Pirazolun (410 mq, 6 mmol) suda (1.5 mL) məhluluna qatı xlorid turşusu (600 mg, 6 mmol) disiandiamid (510 mq, 6 mmol) əlavə edilmiş və məhlul hazırlanmışdır. Bu məhlul 80 ºC temperaturda 30 dəqiqə müddətinə qarışdırılaraq qızdırılmışdır. Alınmış rəngsiz məhlul otaq temperaturunda tədricən soyudulmuş və alınan şəffaf kristallar $H_3pzbgCl_3$ $H_2O$ (625 mq, 3 mmol, 50%) süzülmüş və açıq havada qurudulmuşdur.

Son məhsul (liqand) NMR, GC-MS və FT-IR istifadə edərək xarakterizə edilmişdir.

Sintez edilmiş birləşmənin antioksidant xassəsi kinetik üsulla model reaksiyalarda tədqiq edilmişdir. Müəyyən edilmişdir ki, sintez edilmiş birləşmə karbohidrogen oksidləşməsinin effektiv inhibitorudur, onun antioksidant təsir mexanizmi peroksid radikalları ilə reaksiya yolu ilə oksidləşmə zəncirlərinin dayandırılmasından və hidroperoksidlərin molekulyar məhsullara katalitik parçalanmasından ibarətdir.

Sintez edilmiş birləşmənin canlı orqanizmdə asetilxolinesteraza (AChE) enzim, karbonanhidraz izoenzimlər (CA I, II) üzrə yüksək inhibitor təsirə malik olduğu müəyyənləşdirilmiş və çoxsaylı analizlər, o cümlədən "molekulyar dokinq" tədqiqatları nəticəsində məlum olmuşdur ki, $H_5L·HCl$ birləşməsi enzim-izoenzimlər üzrə effektiv inhibitor fəallığına malikdirlər. IC50 dəyərinə görə bu birləşmə AChE üzrə ən yaxşı inhibitorlaşma xassəsi göstərir. Birləşmənin hCA I və hCA II izoenzimləri üzrə inhibitorluq nəticələri təhlil edilərkən müşahidə olunmuşdur ki, xlor atomu anilin strukturuna təsir edir və bu nəticə etibarilə orto vəziyyətdə hər iki izoenzim üzrə inhibitorluq effektini azaldır. Lakin bu hal AChE enzimi üzrə müşahidə edilməmişdir.

Beləliklə, müqayisəli təhlillərdən belə qənaətə gəlinmişdir ki, yaxın gələcəkdə bu inhibitorun ayrı-ayrı funksional qrupa malik nümayəndələri epilepsiya, Alzeymer və digər nevroloji xəstəliklərə qarşı potensial dərman maddələri kimi istifadə oluna bilər.

**Ədəbiyyat**

1. I.Mahmudov, A.Gurbanov, L.Martins, Y.Abdullayev, A.Sujayev, K.Mahmudov, A.Pombeiro, Co (II/III), Ni (II) and Cu (II) complexes with a pyrazole-functionalized 1, 3, 5-triazopentadiene: synthesis, structure and application in the oxidation of styrene to benzaldehyde, *New Journal of Chemistry*, 2023 47, p.10826

# СИНТЕЗ И ИССЛЕДОВАНИЕ АНТИМИКРОБНЫХ СВОЙСТВ НЕКОТОРЫХ АМИДОВ 1,1-БИС-(КАРБОКСИМЕТИЛТИО)-1-П-НИТРОФЕНИЛЭТАНА

**Сабия Османова[1,2], Вели Кязимов[1], Айгюн Алмамедова[1], Кенуль Кахраманова[1], Сима Мусаева[3], Нурида Мамедова[1]**

*Институт химии присадок[1]*
*Западно-Каспийский Университет[2]*
*Азербайджанский Технический Университет[3]*
*sabiya17@mail.ru*

Анализ данных, приведенных в литературе, показывает, что соединения, содержащие в молекуле амидные группы, проявляют высокую биологическую активность и находят применение в медицине, химической технологии и других областях [1,2]. В связи с этим разработка эффективных методов синтеза соединений с амидной группой является одной из важных направлений современного органического синтеза.

В связи с этим нами впервые осуществлены реакции прямого амидирования 1,1-бис-(карбоксиметилтио)-1-п-нитрофенилэтана различными первичными аминами [3] и изучена их антимикробная активность в смазочном масле М-8.

Реакция амидирования проводилась по нижеследующей схеме:




R= $-C_6H_4COOH$; $-C_6H_4NO_2$

Реакция проводилась при нагревании в растворе бензола в присутствии каталитических (0,1 моль) количеств борной кислоты. Мольное соотношение взятых в реакцию продуктов (бис-кислота:амин) была равна 1:2. Синтезированные бис-кислота и амиды, полученные на его основе, представляли собой кристаллические вещества.

Структура синтезированных соединений установлена ИК- и ПМР-спектральными анализами.

Антимикробные свойства синтезированных соединений определены в смазочном масле М-8 методом зональной диффузии по ГОСТ 9.085-78 в среде мясо-пептонный агар (МПА) и сусло-агар (СА) при 28-32°С в течение 5 суток. В качестве тест культур использовали смеси накопительной бактериальной (Mycobacterium lacticolum, Pseudomonas aeruginosa) и грибной (*Aspergillus niger, Penicillium chrysogenum, Penicil-*

*lium cyclopium, Scopulariopsis brevicaulis, Paecilomyces variotii*) микроорганизмов.

Результаты проведенных исследований показали, что среди исследованных соединений наибольшую бактерицидную активность проявляет 1,1-бис-(карбоксиметилтио)-1-п-нитрофенилэтан, а наибольшую фунгицидную активность – п-карбоксифениламид 1,1-бис-(карбоксиметилтио)-1-п-нитрофенилэтана. Синтезированный п-нитроанилид 1,1-бис-(карбоксиметилтио)-1-п-нитрофенилэтана не проявляет антимикробных свойств.

**Литература**


1. A.Ricci, Amino Group Chemistry: From Synthesis to the Life Sciences, *Wiley-VCH*, 2008, 408 p
2. E.J.Corey, B.Czako, L.Kurti, Molecules and Medicine, *Wiley&Sons: Hoboken*, 2007, 272 p
3. С.Ф.Османова, К.Р.Кахраманова, Н.Р.Мамедова, Реакция амидирования 1,1-бис-(карбоксиметилтио)-1-п-нитрофенилэтана первичными аминами, IX Международная научно-техническая конференция *«Альтернативные источники сырья и топлива»*, 2023, с. 198


## MAZUTUN HİDROVİSBREKİNQ PROSESİNİN TƏDQİQİ


**Vaqif Abbasov[1], Təranə Məmmədova[1], Sevil Əliyeva[1], Natəvan Səmədova[2]**

*Neft-Kimya Prosesləri İnstitutu[1]*
*Bakı Ali Neft Məktəbi[2]*


Visbrekinq prosesinin təyinatı stabil soba yanacağının komponentinin alınması məqsadilə ağır xammalın özlülüyünün azaldılmasıdır.

Visbreaking, texnoloji sadəliyinə baxmayaraq ağır qalıq fraksiyalardan yüngül yanacaq fraksiyalardan istifadə etmədən lazımi keyfiyyətdə soba yanacağı istehsal etməyə, qalıq fraksiyaları distillə fraksiyalarına emal etməyə və əlavə olaraq müəyyən miqdarda orta və yüngül yanacaq fraksiyalarını almağa imkan verir [1-3].

Son illərdən etibarən visbrekinq proseslərinin təkmilləşdirilməsi motor yanacaqlarının hidrokatalitik emal üçün yararlı distillə fraksiyalarının çıxımının artırılması istiqamətində gedir.

Bunu nəzərə alaraq təqdim edilən işdə mazutun və onun 5-10% küt. su ilə qarışığının maqnetit və СГК-1 hidrogenləşmə katalizatoları ilə akvavisbrekinq prosesi tədqiq edilmişdir (cədvəl 1).

***Cədvəl 1***. Mazutun və onun 5-10% su ilə qarışığının 490-500 °C temperaturunda visbrekinq prosesinin material balansı

| Göstəricilər | Termiki proses | Termokatalitik proses | |
|---|---|---|---|
| | 490-500 °C | 490-500 °C, su, maqnetit | |
| Götürülmüşdür, % küt | | | |
| mazut | 100 | 100 | 100 |
| Su | 0 | 5.0 | 10.0 |
| Alınmışdır, % küt | | | |
| $H_2$ | 0,8 | 2,3 | 3,8 |
| $CO + CO_2$ | 2,6 | 4,3 | 5,2 |
| $CH_4$ | 3,2 | 4,8 | 5,1 |
| $C_2H_4$ | 2,1 | 3,4 | 4,0 |
| $C_2H_6$ | 0,8 | 1,8 | 2,4 |
| $C_3H_6$ | 2,2 | 3,4 | 4,5 |
| $C_3H_8$ | 1,3 | 2,3 | 3,0 |
| $\sum C_4H_{10}$ | 1,8 | 1,8 | 2,3 |
| $\sum C_4H_8$ | 2,6 | 2,6 | 3,8 |
| Fr q.b.-200 | 4,5 | 6,5 | 7,4 |
| 200-350 | 6,2 | 9,1 | 10,8 |
| >350 | 55,6 | 49,7 | 46,7 |
| koks | 14,5 | 10,5 | 9,4 |
| itki | 2,3 | 2,5 | 2,6 |
| Cəmi | 100 | 105 | 110 |

Təyin edilmişdir ki, mazutun ənənəvi visvbrekinq prosesi ilə müqayisədə onun su ilə 5-10%-li qarışığının maqnetit istifadəsində visbrekinq prosesində benzin fraksiyasının çıxımı 2,9 küt. , yüngül qazoyl fraksiyası 4, 6% küt. artır, alınan koksun miqdarı isə 5.1% küt. azalır. Bu zaman alınan qaz fraksiyasının tərkibində hidrogenin çıxımı da ənənəvi visbrekinq prosesi ilə müqayisədə 2.8-4.75 dəfə artır.

Aydın edilmlşdir ki, mazutun ənənəvi visvbrekinq prosesi ilə müqayisədə onun su ilə 5-10%-li maqnetit və СГК-1 hidrogenləşmə katalizatoru istifadəsində visbrekinq prosesində alınan benzin və dizel fraksiyalarının tərkibində daha az olefin və aromatik karbohidrogenlər, və eyni zamanda daha çox parafin və naften karbohidrogenləri müşahidə olunur.

### Ədəbiyyat


1. Д.Ф.Варфоломеев, Г.Г. Валявин Г.А. Берг и др., Гидровисбрекинг нефтяных остатков, *Проблемы глубокой переработки остатков сернистых и высокосернистых нефтей, сернистых газовых конденсатов*, Уфа, 1984, с. 155
2. Э.М. Манапов, *Изучение процесса гидровисбрекинга, Интенсификация процессов переработки тяжелых нефтяных остатков*, Уфа, 1987, с. 24
3. Э.М.Манапов, А.Ф. Ишкильдин, Влияние состава сырья на глубину обессеривания в процессе гидровисбрекинга, *Изв. ВУЗ. Нефть и Газ*, 1996, 12, с. 9

# VAKUUM QAZOYLUNUN İŞLƏNMİŞ ŞİN QIRINTILARI VƏ PAMBIQ YAĞI İLƏ BİRGƏ TERMİKİ ÇEVRİLMƏSİ

**Vaqif Abbasov[1], Təranə Məmmədova[1], Rafael Səmədov[2] , Arzu Mikayılova[1], Həcər Əliyeva[1]**

*Neft-Kimya Prosesləri İnstitutu[1]*
*Bakı Ali Neft Məktəbi[2]*
*rafaellsamedov@gmail.com*

Ənənəvi resursların, təbii ehtiyatlarının azalması, ehtiyatların bərpa olunmaması, mövcud yanacaq növlərinin istifadəsinin ekoloji tarazlığın pozulmasında mühüm rol oynaması günü-gündən bərpa olunan enerji mənbələrinə marağı artmasına səbəb olur.Eyni zamanda sənayenin sürətlə inkişafı nəticəsində min tonlarla müxtəlif tullantılar əmələ gəlir ki, bunların da təkrar emalı olduqca mühüm bir problemlərdəndir. Məsələn, son onilliklər ərzində avtomobil nəqliyyatı şəhərlərin ekologiyasına əhəmiyyətli dərəcədə təsir edən amillərdən birinə çevrilmişdir. Ətraf mühitə texnogen yükün artması təkcə işlənmiş qazlarla deyil, həm də böyük həcmdə tullantı şinlərinin əmələ gəlməsi ilə əlaqədardır, hansılar ki IV sinif təhlükəli kateqoriyalı tullantılar kimi tanınır. İstismardan çıxarılan şinlər 65-70% rezin, 15-25% texniki karbon, 10-15% metal ehtiva edən qiymətli ikinci emal xammalıdır, buna görə də onun effektiv emalı ekoloji problemlərin həlli ilə yanaşı həm də təkrar emalın yüksək rentabelliyini təmin edə biləcək sənaye proseslərdən ola bilər [1-3].

Yuxarıda qeyd olunanları nəzərə alaraq təqdim edilən işdə işlənmış şin qırıntıları və pambıq yağının vakuum qazoylu ilə birgə "yaşıl benzin" alınması prosesinə cəlb edilməsi tədqiq edilmişdir. Bu məqsədlə vakuum qazoylunun yuxarıda qeyd olunan tullantılar ilə 10% -li qarışıqlarının 500 $^{o}$C-də termiki çevrilməsi prosesi tədqiq edilmişdir.

Vakuum qazoylunun, işlənmiş pambıq yağı və şin qırıntıları ilə birgə termiki çevrilməsi proseslərinin material balansı cədvəl 1-də təqdim edilmişdir.

***Cədvəl 1***. Vakuum qazoylunun, işlənmiş pambıq yağı (PY) və şin qırıntıları (ŞQ) ilə birgə termiki və termikatalitik proseslərinin material balansı

| | Xammmal | | |
|---|---|---|---|
| | Vakuum qazoyl | Şin qırıntıları | Vak. Qaz.+ 10% PY+ 10% ŞQ |
| Temperatur | 500 $^{o}$C | | |
| Götürülüb, % küt. | 100 | 100 | 100 |
| Alınıb, % küt. | | | |
| Qaz $C_1$-$C_4$ | 16.5 | 12.3 | 13.8 |

| | | | |
|---|---|---|---|
| Katalizat, o cümlədən | 75.7 | 53.1 | 73.4 |
| q.b.-180 °C | 18.2 | 1.0 | 16.2 |
| 180-350 °C | 24.8 | 7.4 | 28.6 |
| >350 °C | 32.7 | 44.7 | 28.6 |
| Koks +itki | 7.8 | 34.6 | 12.8 |

Cədvəl 1-dən göründüyü kimi, vakuum qazoylunun 500°C-də aparılan termiki çevrilməsində alınan maye katalizatın çıxımı 75,7% küt. təşkil edirsə, həmin şəraitdə şin qırıntılarının çevrilməsində katalizatın çıxımı 53,1% küt. olur və bu zaman benzin fraksiyasının çıxımı cəmi 1% küt., dizel fraksiyasının çıxımı 7,4% küt.təşkil edir. Alınan katalizatın əsas hissəsi (44,7% küt.) 350 °C-dən yuxarı qaynayan ağır qalıqdır. Eyni zamanda alınan koksun miqdarı 34,6% küt. təşkil edir.

Vakuum qazoylunun 10 % küt. şin qırıntıları və 10% küt. işlənmiş pambıq yağı ilə qarışığının 500°C termiki çevrilməsində alınan maye katalizatın miqdarı 73,4% küt. təşkil edir, bu zaman prosesdə alınan dizel fraksiyasının çıxımında vakuum qazoylunun sərbəst halda emalı ilə müqayisədə 3,8 % küt. artım müşahidə olunur və 28.6% küt. təşkil edir. Bu zaman 350 °C-dən yuxarı qaynayan ağır fraksiyasının miqdarı həm vakuum qazoylu (32,7% küt.), həm də şinlərin sərbəst halda (44,7% küt.) emalı ilə müqayisədə azalır və 28,6% küt. təşkil edir.

**Ədəbiyyat**

1. В.В.Иванов, Состояние, проблемы сбора и переработки вышедших из эксплуатации шин в г. Москве, "*Проблемы экологии и ресурсосбережения при переработке и восстановлении изношенных шин*", 2014, с. 4
2. В.Г.Горовец, Утилизация шин, проблема и ее аспекты, *Автотранспортное предприятие*, 2015, 4, с. 40
3. A.Shulman, Способы утилизации автомобильных покрышек, *Wheels of fortune Wire Ind.*, 2003, 70(83), p. 161

## SINTETIK NEFT TURŞULARI ƏSASINDA ALKOAMINLƏRLƏ (MONO-, DI- VƏ TRI-) KOMPLEKS DUZLARININ ALINMASI VƏ ONLARIN BOY MADDƏSI KIMI MƏRCIMƏK BITKISI ÜZƏRINDƏ TƏDQIQI

**Cəlal Məmmədov, Fatmaxanım Qənbərova,**
**Nərmin Hüseynova, Zenfira Şaxtaxtinskaya**

*Neft Kimya Prosesləri İnstitutu*
*fatime-quliyeva-78@mail.ru*

Tədqiqatımızın məqsədi neftin dizel və kerosin fraksiyasından ayrılmış dizel fraksiyasının hava oksigeni ilə oksidləşdirilməsindən alınmış sintetik neft turşularının müxtəlif fraksiyalarının alkanolaminlərlə suda həll olan

kompleks duzlarını sintez edərək onların mərcimək bitkisi üzərində stimullaşdırıcı kimi sınağını aparmaq olmuşdur.

Bu maddələr bitkilərin kök və gövdə sistemlərinə təsir edərək onların quraqlığa və sərt iqlimə davamlılığının və məhsuldarlığının artmasına səbəb olurlar. İnstitutumuzda neft turşuları əsasında bitki boy maddələrinin alınması istiqamətində bir çox müvəffəqiyyətli nəticələr alınmışdır.

İnstitutumuzda sintetik neft turşuları əsasında bitki boy maddələrinin alınması istiqamətində bir çox müvəffəqiyyətli nəticələr alınmışdır.

Sintetik neft turşularının qaynama temperaturu 125-175, 175-225 və 125-225$^0$C/6.65 mP olan fraksiyalarının mono-,di- və trietanolaminlərlə kompleks duzları sintez edilmiş, fiziki-kimyəvi xassələri öyrənilmiş və spektral metodlarla quruluşları təsdiq olunmuşdur.

Sintez edilmiş kompleks duzların müxtəlif qatılıqda hazırlanmış məhlullarının mərcimək üzərində laboratoriya şəraitində sınaqları aparılmışdır.

Belə ki, bu duzlarının mərcimək bitkisi üzərində laborator sınaqları onların çox güclü stimullaşdırıcı qabiliyyəti olduğunu aşkara çıxarmışdır. Alınan nəticələr əsasında seçilmiş məhlulların Binədə yerləşən AzET Bağçılıq və Subtropik bitkilər institutunun Abşeron təcrübə stansiyasının sahəsində mərcimək bitkisi üzərində sahə sınaqları aparılmışdır. Əkilmiş toxumlar müvafiq məhlullarda nəzərdə tutulmuş müddətdə isladılaraq əkilmişdir. Müşahidələr məhlullarda isladılıb əkilən bu bitkinin daha intensiv inkişaf etdiyini və məhsuldarlığın artdığını göstərmişdir.

Sınaqların gedişində əkin sahələrinə yemləmə kimi institutumuzda hazırlanmış "Azofosk" gübrəsi verilmişdir. Vegetasiya müddətinin sonunda "Azofosk" gübrəsinin tətbiqinin bitkilərin inkişafı və məhsuldarlığına müsbət təsiri nəticəsində məhsuldarlıqın nəzarət variantına nisbətən 1,2-1,3 dəfə artdığı məlum olmuşdur.

**Ədəbiyyat**

1. C.Ş.Məmmədov, F.Ə.Nəbiyev, A.G.Pirəliyev, F.D.Quliyeva, G.U.Ağayeva S.N.Mürsəlli, N.Y.Abbasova, Neft mənşəli sintetik turşular əsasında bitki boy maddələrinin alınmasının perspektivləri, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş " Müasir təbiət elmlərinin aktual problemləri" elmi-praktik beynəlxalq konfransı - Gəncə, 2017-ci il, I hissə, s. 264
2. V.M.Abbasov, C.Ş.Məmmədov, F.Ə.Nəbiyev, C.F.Sultanova. Alkanolamin əsasında bəzi kompleks duzların dənli-paxlalı bitkilərə stimullaşdırıcı kimi təsirinin tədqiqi, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Müasir Biologiya və Kimyanın aktual problemləri" elmi-praktik konfransı, 2015-ci il, II-hissə, s. 344
3. Г.С.Муромцев Регуляторы роста растений основы химической регуляции роста и продуктивности растений, *Агропромиздат*, 1987, 383 с
4. C.Ş.Məmmədov, A.G.Pirəliyev, F.D.Quliyeva G.U.Zamanova, F.İ.Əhmədov, N.Y.Abbasova, Neft əsaslı sintetik turşuların suda həll olan törəmələrinin bitki toxumlarina təsirinin tədqiqi, AMEA-nın Gəncə bölməsi, *"Xəbərlər məcmuəsi"*, 1(71), s. 61

# THE EFFECT OF NATURAL PETROLEUM ACIDS ON THE ANTISTATIC PROPERTIES OF DIESEL FUEL

**Khayala Kasamanli**

*Ganja State University*
*xeyale.kesemenli@mail.ru*

At present, extensive research is being conducted in developed industrial countries in the field of creating special-purpose substances-additives, specific-property components, and various-purpose chemicals- to protect the environment, save fuels, and improve the quality of fuels. The issue of developing technologies for the synthesis and acquisition of such substances is raised, so that they create less stress for the environment, and the compositions prepared on their basis meet modern and prospective requirements. Organic acids are widely used in research in the mentioned field. Although there are various types of organic acids, their reserves are either low or not suitable for buying quality products. From this point of view, although the mixture of natural petroleum acids obtained as a by-product from Baku oils has an advantage, the fact that it has phenol derivatives as ballast and its low reserve reduces its possibilities of use. Previously, natural petroleum acids (NPA) were obtained from the alkali treatment of kerosene and diesel distillates obtained during the processing of tank oils. Currently, since diesel distillate undergoes hydrotreatment, NPA is separated only from kerosene fraction, and its stock has been reduced by about half. It should be noted that since Baku oils are mainly naphthenic based, obtaining synthetic petroleum acids from the distillates of these oils and obtaining special purpose additives, components and composition materials based on them is an actual scientific problem, and the solution of this problem will enable the solution of a number of industrially important technical problems.

In the research study, different fractions of NPA were added to diesel fuel at 50, 75, 100 and 150 ppm and the specific electrical conductivity SEC of the received fuels was studied.

The graphical representation of the obtained results is shown in figure 1




***Fig. 1.*** Effect of NPA on the antistatic property of diesel fuel

As can be seen from the graphic curves, increasing the concentration of petroleum acids in diesel fuel from 50 ppm to 150 ppm led to an increase in

the antistatic property of diesel fuel. Based on the results, it is known that in the given viscosity intervals, depending on the boiling temperature of the acid fraction, the SEC of diesel fuel is 50 ppm 43-52 S/m for concentration, 150 ppm and for concentration it varies in the interval of 168-178 S/m. At the same time, the results show that as the boiling temperature of petroleum acids increases, their effect on the antistatic property of diesel fuel decreases. Thus, while the I fraction of NPA showed a better antistatic effect, it was observed that the antistatic effect of the III fraction was slightly lower. In addition, it was observed that the antistatic effect of the total fraction of NPA is higher than fraction III, and lower than fraction I and II, which can be explained by the fact that fraction I and II are more dominant in the total fraction.

**References**

1. V.M.Abbasov, T.A.Məmmədova, X.H. Kəsəmənli, Təbii neft turşularının imidazolinlərinin dizel yanacağına aşqar kimi tətbiqi. *SOCAR 1st İnternational Scientific Conference of young scientists and specialists*, 2014, s. 305
2. V.M.Abbasov, T.A.Mammadova, Kh.H.Kasamanli, et al. The application of amino- and hydroxyethyl imidazolines of petroleum acids as multifunctional additives for diesel fuel, *Journal of Advances in Chemistry*, 2015, 11(10), p.3828

## BİOKÜTLƏNİN PİROLİZİ ƏSASINDA KARBOHİDROGEN QAZLARININ ALINMASI

**Təranə Məmmədova, Afaq İmanova, Zülfiyyə Əliyeva,Təranə Lətifova**

*Neft-Kimya Prosesləri İnstitutu*
*imanovaafaq@gmail.com*

Ənənəvi resursların təbii ehtiyatlarının azalması, ehtiyatların bərpa olunmaması, bu yanacaq növlərinin istifadəsinin ekoloji tarazlığın pozulmasında mühüm rol oynaması günü-gündən bərpa olunan enerji mənbələrinə marağı artırmaqdadır. Bərpa olunan enerjini "təbii mənbələrdən əldə edilə bilən və özünü daim yeniləyən bir enerji mənbəyi" olaraq adlandırmaq mümkündür. Bununla bərabər, bərpa olunan enerji növləri ətraf mühitə zərər verən karbon emissiyalarının azaldılması, yerli mənbələr olduqları üçün idxal edilməyə ehtiyac duyulmaması və bu sayədə enerji məsələsində xaricdən asılılığın azaldılması kimi məqamlar baxımından olduqca əhəmiyyətlidir. [1-3]

Bunları nəzərə alaraq Neft-Kimya Prosesləri İnstitutunda yerli xammalın piroliz prosesi aparılmış və araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, pambıq və qarğıdalı gövdələrinin 300$^0$C azot mühitində aparılan piroliz prosesində kömürün çıxımı 35.0-37.4% küt., qazların çıxımı isə müvafiq olaraq 65.0 və 62.6% küt. təşkil edir. Piroliz prosesinin material balansları aşağıdakı cədvəldə göstərilmişdir.

***Cədvəl 1.*** Pambıq və qarğıdalı gövdələrinin piroliz prosesinin material balansları

| Göstəricilər | Pambıq gövdələri | Qarğıdalı gövdələri |
|---|---|---|
| Götürülmüşdür. % küt. | 100 | 100 |
| Alınmışdır, % küt. | | |
| Kömür | 35.0 | 37.4 |
| Qazlar | 65.0 | 62 |

Pambıq və qarğıdalı gövdələrinin pirolizi prosesində alınan qazların tərkibi isə cədvəl 2-də təqdim edilmişdir. Cədvəldə təqdim edilən məlumatlardan görünür ki, bu prosedə alınan karbohidrogen qazların tərkibi əsasən metan və $C_2$-$C_3$ qazlarla təmsil olunub.

***Cədvəl 2.*** Pambıq və qarğıdalı gövdələrinin pirolizi prosesində alınan karbohidrogen qazların tərkibi

| Piroliz prosesində alınan qazların tərkibi, % küt. | Pambıq gövdələri | Qarğıdalı gövdələri |
|---|---|---|
| Karbohidrogen qazları, o cümlədən | | |
| metan | 37.41 | 35.12 |
| Etan+etilen | 24.41 | 23.56 |
| Propan+propilen | 19.61 | 20.14 |
| i-butan | 2.73 | 3.2 |
| Buten-1 | 1.34 | 1.18 |
| n-butan | 5.65 | 6.3 |
| Digərlər | 10.5 | 8.86 |

**Ədəbiyyat**


1. P.Ghosh, V.K.Vijay, Advances in biogas valorization and utilization systems, *Bioreactors, Biotechnology*, 2020, p. 89
2. C.Charcosset, Membranes for Clean and Renewable Power Application, *Membrane Science*, 2014, p. 44
3. S.B.Amin, F.Khan, Renewable Energy Consumption and Income Inequaltity, *Comprehensive Renewable Energy,* 2022, p. 59


# BİTKİ YAĞLARININ TRİQLISERİDLƏRİNİN SADƏ SPİRTLƏRLƏ TRANSEFIRLƏŞMƏ PROSESİNDƏ YENİ KATALİZATORLARIN TƏDQİQİ

**Zülfiyyə Əliyeva, Təranə Məmmədova,**
**Afaq İmanova, Günel Allahverdiyeva**
*Neft-Kimya Prosesləri İnstitutu*
*zulfiya_aliyeva@inbox.ru*

Bitki yağlarının triqliseridlərinin sadə spirtlərlə transefirləşmə prosesdə istifadə olunan katalizatorların seçimi ilk növbədə onların ekoloji cəhətdən daha təhlükəsiz, reaksiya məhsullarından rahat ayrılan, təkrar istifadə oluna bilən, sabunlaşma prosesindən uzaqlaşmağa imkan verməyə əsaslanmalıdır.

Bir çox ədəbiyyat araşdırmaları [1] göstərdiyi kimi, amintərkibli birləşmələr hal-hazırda transefirləşmə proseslərinin katalizatorları kimi diqqət mərkəzindədir. Bu səbəbdən Neft Kimya Prosesləri İnstitutunda difenilamin (DFA), fenilendiamin (FDA), trietilamin (TEA), i-propilamin (İPA) və üçlü-butilamin (ÜBA) katalizator kimi tədqiq olunmuş və bu katalizatorların iştirakında soya (SOY), qarğıdalı (QarY), günəbaxan (GünY), pambıq (PamY) və palma (PalY) bitki yağlarının metil, etil, i-porpil və n-butil spirtlərlə transefirləşmə prosesinin optimal şəraitləri təyin edilmişdir [ 2].

Sadalanmış katalizaroların miqdarlarının 1-3% (bitki yağına hesablamaya görə) dəyişməklə, yağ: spirt nisbətlərinin 1:4÷1:10 və reak-siya müddətinin 6-10 saat və reaksiya temperaturu istifadə olunan spirtlərin qaynama temperaturuna uyğun olaraq, yağ turşularının müvafiq alkil efirlərinin çıxımları təyin edilmişdir. Alınan nəticələr cədvəl 1-də verilmişdir.

***Cədvəl 1.*** Pambıq yağının alkil efirlərinin spirt : yağ nisbəti 6:1 və reaksiya müddətinin 8 saat olduqda çıxımlarının katalizatorların miqdarından asılığı

| Katalizatorlar | Katalizatorun miqdarı 1 % küt (yağa görə) | | | |
|---|---|---|---|---|
| | PamY alkil efirləri | | | |
| | PamY Met | PamY Et | PamY İProp | PamYBut |
| DFA | 47,6 | 40,3 | 38,6 | 46,8 |
| FDA | 52,6 | 44,66 | 42,7 | 51,8 |
| TEA | 54,3 | 47,3 | 44,3 | 52,7 |
| İPA | 35,6 | 28,7 | 21,6 | 30,7 |
| ÜBA | 44,2 | 38,7 | 35,1 | 41,6 |
| | Katalizatorun miqdarı 2 % küt | | | |
| DFA | 75,4 | 68,7 | 61,8 | 73,8 |
| FDA | 80,5 | 76,4 | 72,4 | 81,2 |
| TEA | 84,6 | 79,6 | 76,7 | 85,7 |
| İPA | 64,3 | 60,8 | 54,6 | 64,7 |
| ÜBA | 75,4 | 70,8 | 68,7 | 76,1 |
| | Katalizatorun miqdarı 3 % küt | | | |
| DFA | 96,7 | 94,6 | 87,6 | 97,2 |
| FDA | 97,9 | 95,8 | 89,7 | 98,4 |
| TEA | 99,3 | 97,4 | 96,7 | 99,0 |
| İPA | 87,6 | 84,5 | 80,2 | 88,4 |
| ÜBA | 94,7 | 90,8 | 87,9 | 95,8 |

Cədvəl 1-dən göründüyü kimi, bütün sınaqdan keçirilmiş amintərkibli birləşmələrin 1% küt (yağa görə) istifadəsində alınan pambıq yağı turşularının metil (PamY Met), etil (PamY Et), i-propil (PamY İProp) və n-butil (PamY But) efirlərinin çıxımları 21,6-54,3% küt arasında dəyişir. Bu zaman maksimal çıxımlar metil və n-butil efirləri üçün fenilendiamin və trimetilamin istifadəsində müşahidə olunur. İstifadə olunan katalizatorlar sırasında yağ turşuların monoalkil efirlərinin ən az çıxımları isə İPA və ÜBA-nin istifadəsində alınır.

**Ədəbiyyat**

1. J. Yao, L. Ji, P. Sun [et al.], Low boiling point organic amine-catalyzed transesterification of cottonseed oil to biodiesel with trace amount of KOH as co-catalyst , *Fuel*, 2010, 89, p. 3871
2. В.М.Аббасов, Т.А.Мамедова, З.М.Алиева, Аминсодержащие комплексы в качестве катализаторов получения алкиловых эфиров триглицеридов растительных масел и их жирных кислот, *Процессы нефтехимии и нефтепереботки* , 2015, 1 (61), с. 3

## DİTİOLLAR SIYRILMAYA QARŞI AŞQAR KİMİ

**Günay Mustafayeva, Şəfa Kazımzadə**

*Aşqarlar Kimyası İnstitutu*
*gunay.ismayilova87@mail.ru*

Ksantogen turşularının efirləri hərtərəfli öyrənilmiş maddələrdir, ancaq onların analoqları – ditiol turşularının efirləri az tanınan maddələrdir [1-4]. Bizim üçün bu sinif maddələrin alınması və aşqar kimi tədqiqi maraq doğururdu. Yapon alimləri ditiolları sintez etmək üçün həlledici kimi karbon-4-sulfiddən, xloroformdan, ya da ekvimolyar miqdarda götürülmüş $AlCl_3$-dən istifadə etmişlər [5]. Bu üsulla ditiollar ksantogen turşuları efirlərinin çevrilməsindən sintez edilmişdir. Reaksiya aşağıda verilən sxem üzrə aparılmışdır:




Bizim tərəfimizdən bu üsul təkmilləşdirilmişdir. Ksantogen turşularının efirləri maye halda olduğuna görə, ümumiyyətlə həlledicilərdən istifadə edilməmişdir, $AlCl_3$ isə katalitik miqdarda götürülmüşdür. Nəticədə həm zəhərli həlledicilərdən istifadə olunmamışdır, həm də son nəticədə alınan maddələrin çıxımları da artmışdır.

Alınan maddələr siyrilməyə qarşı aşqar kimi tədqiq olunmuşdur. Tədqiqatlar dördkürəli sürtünmə maşınında (ЧМТ-1) ГОСТ 9490-75 üzrə diametri 12,7 mm olan ШХ-15 markalı polad kürəciklərdə (yuxarı kürəciyin fırlanma sürəti 1420 dövr/dəq) sınaqdan keçirilmişdir. Sınaq nəticələri siyrilmə indeksi ($İ_s$), böhran yükü ($P_b$) və qaynaq yükünün ($P_q$) göstəricilərindən ibarətdir.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, ditiol turşularının efirləri ksantogen turşularının efirləri kimi yüksək siyrilməyə qarşı xassələrə malikdir, yalnız qaynaq yükünün göstəricisində ksantogenatların üstünlüyü nəzərə çarpır. Bunu belə izah etmək olar ki, C=S tiol qrupunun kükrd atomu çox fəaldır və qoruyucu təbəqənin yaradılmasında böyük rol oynayır. Buna baxmayaraq, ditiol turşuları efirlərinin siyrilməyə qarşı xassələri, ksantogen tur-

şuları efirlərinin xassələrindən o qədər də fərqlənmir. Çünki, ditiol karbonatlar metal səthinə karbonilin oksigeni ilə adsorsiya olunur və qoruyucu təbəqə yaradır. Ditiollar yeyilməyə qarşı xassələrə malik deyil.

**Ədəbiyyat**


1. В.М.Фарзалиев, Н.П.Мустафаев, Б.И.Мусаева, Н.Н.Новоторжина, Производные ксантогеновых кислот, используемые в качестве присадок к смазочным маслам, *Журнал Нефтепереработка и нефтехимия,* 2019, 7, с. 25
2. В.М.Фарзалиев, Б.И.Мусаева, Н.Н.Новоторжина, Г.Г.Исмаилова, М.Р.Сафарова, Е.С.Мустафаева, β-Гидрокси-γ-дибутиламинопропиловые эфиры алкилксантогенатных кислот в качестве присадок, улучшающих трибологические свойства масел, «*Актуальные проблемы современных естественных и экономических наук*», 2018, с. 334
3. Т.Х.Акчурина, Термическая стабильность и реакционная способность производных ксантогеновых кислот по отношению к металлам, *Журнал Нефтепереработка и нефтехимия*, 2015, 3, с. 40
4. Н.П.Мустафаев, Н.Н.Новоторжина, М.Р.Сафарова, И.Б.Гаджиева, Б.И.Мусаева, М.А.Мусаева, И.П.Исмаилов, Сера-, азот-, фосфорсодержащие соединения как противозадирные и биоцидные присадки к смазочным маслам, *Журнал Нефтепереработка и нефтехимия*, 2022, 5, с. 41
5. K.Toshinobu, H. Kazunobu, T. Tenezo, Catalytic Rearrangement of Xantates to Dithiolcarbonates, *Journal Chem. and Pharm., Bull,* 1973, 21(3), p 604


## KARBAMİD-ORTOFOSFAT TURŞUSU (3:1) KOMPLEKSİNİN YENİ ALINMA ÜSULUNUN TƏDQİQİ


**Vaqif Abbasov, Elmar Abdullayev, Teyyub İsmayılov, Aynur Həsənova, Rüfanə Əlizadə**

*Neft-Kimya Prosesləri İnstitutu*
*aynurhasanova87@gmail.com*


Neft-Kimya Prosesləri İnstitutunda $(CO)_2NH_2$ ilə $H_3PO_4$-ün qarşılıqlı təsirindən alınan dikarbamidammoniumfosfat (DKAF) kompleksi neftçıxarma və neft emalı sənayeləri lay sularında və su ilə soyutma sistemləri daxilində meydana gələn korroziya hallarında istifadə edilir. Bu institutunun Təcrübə Sənaye Zavodunda istehsalı yaradılmış DKAF tərkibli (VFİKS-82) korroziya və duzçökmə inhibitoru keçmiş MDB ölkələrinin neftçıxarma sənayelərində geniş tətbiq olunmuşdur. Hətta adı çəkilən inhibitorun istehsalı üçün Başqırdıstanda Meleuz Kimya zavodunda məhsuldarlığı 20000 t/il olan qurğu da istifadəyə verilmişdir. Bu qurğuda istehsal olunan DKAF tərkibli inhibitor suda həll olan korroziya və duzçökmə inhibitoru kimi RF-nın neftçıxarma sənayesində geniş tətbiq olunmuşdur. Dikarbamidammonium fosfatın inhibitor kimi sənaye miqyasında geniş tətbiq olun-

masına baxmayaraq, onun karbamidfosfat kompleksi ancaq dəri aşılama sənayesində sınaqdan keçərək sənayedə özünə tətbiq sahəsi tapmışdır [1-6].

Təqdim olunan işdə məqsəd 3:1 $(CO)_2NH_2:H_3PO_4$ nisbətli kompleksin kavitasiya-maqnit dalğaları təsiri altında sintez edərək fiziki-kimyəvi xassələrini tədqiq etdikdən sonra onun neft emalı sənayelərində soyutma sistemlərində istifadə edilən texniki və dəniz suyu nümunələrində müqayisəli şəkildə korroziya və duzçökməyə qarşı xassələrini tədqiq edərək, ən yaxşı nəticələri sənayedə tətbiq üçün tövsiyə etməkdir.

Dəniz suyunda inhibitorsuz korroziyanın sürəti 2,36 q/m$^2$, texniki suda isə 1,80 q/m$^2$ olduğu halda, bu göstəricilərlə müqayisədə yeni üsulla alınmış inhibitorun korroziyadan və duzçökmədən əldə olunan göstəriciləri müəyyən qədər 0,35-0,25 q/m$^2$ qədər azalmışdır.

Hər iki halda dikarbamidfosfata 70-100 mq/l məsrəflə nəticələri sənaye əhəmiyyətli olduğu üçün onu sənaye tətbiqi üçün təklif etmək olar.

**Ədəbiyyat**


1. V.M.Abbasov, E.N.Efremenko, R.E.Azizov, T.A.Makhlis, S.D.Varfolomeev, Determination of minimal concentrations of biocorrosion inhibitors by a bioluminescence method in relation to bacteria, participating in biocorrosion, *Prikladnaia Biokhimiia i Mikrobiologiia*, 2005, 41(4), p. 429
2. L.Xianghong, Y.Zhang, Y.Yan, H. Juan, Lİ.Jian, W.Chen, Performance evaluation and adsorption behavior of two new mannich base corrosion inhibitors, *Journal of Chinese Society for Corrossion and protection*, 2020, 40(1), p. 31
3. W.Luntao, W.Huiru, S.Antoine, Z.Sandrine, P.Alain, S.N.rdjan, M.Philippe, Adsorption mechanism of quaternary ammonium corrosion inhibitor on carbon steel surface using ToF-SIMS and XPS, *Corrosion Science*, 2023, 213, p. 1
4. K.S.Yoganand, M.Meena, M.J.Umapathy, Corrosion inhibition efficiency of newly synthesized quaternary ammonium salt in 1M HCl, *Indian Journal of Chemical Technology*, 2022, 29, p. 68
5. В.М.Аббасов, Е.Ш.Абдуллаев, А.М.Самедов, С.Р.Магеррамов, М Н.И.урсалов, Р.М.Мамедов, Результаты исследования реагента «Каспий-Х», в качестве бактерицида-ингибитора коррозии, *Зашита от коррозии и охрана окружающей среды*, 1996, № 11-12, с.10
6. В.М.Аббасов, Е.Ш.Абдуллаев, А.М.Самедов, Новое поколение химических реагентов, *Азербайджанское нефтяное хозяйство*, 1998, 4, с.43

# NEFT SƏNAYESİNDƏ ASFALTEN-QATRAN-PARAFIN ÇÖKÜNTÜLƏRİNİN KİMYƏVİ ÜSULLARIN TƏTBİQİ İLƏ ARADAN QALDIRILMASI

**Mətanət Əlsəfərova, Kazım Mətiyev**

*SOCAR "Neftqazelmitədqiqatlayihə" İnstitutu*
*kazim.metiyev@socar.az*

Məlumdur ki, neft quyularında asfalten-qatran-parafin çöküntülərinin (AQPÇ) ilə mübarizə istilik, kimyəvi, termokimyəvi, fiziki sahələr, mexaniki və s. üsullarla aparılır. Ən geniş yayılmış üsul isə AQP çöküntülərinin qarşısını kimyəvi reagentlərdən (inhibitorlar) istifadə etməklə alınması üsuludur. Bu məqsədlə neftlərin özlülüklərinin, donma temperaturunun aşağı salınması, neftin hasilatı, saxlanması və nəqli zamanı AQP hissəciklərinin çökməsi səbəbindən yaranan mürəkkəbləşmələrin aradan qaldırılması məqsədilə yeni "NDP-22M" reagenti işlənib hazırlanmışdır. "NDP-22M" reagenti yüksək parafinli neftlərin donma temperaturunu azaltmaqla bərabər, AQPÇ-nin qarşısını da alır. İnhibitorun tərkibinə qeyri-ionogen səthi-aktiv maddə, depressor xassəli reagent və həlledici daxildir.

"NDP-22M" reagenti neft-mədən avadanlıqlarında çökən AQPÇ-nin aradan qaldırılmasını təmin etməklə təmirlərarası müddətin (TAM) azalmasına, hasilatın artmasına zəmin yaradır. Təklif olunan yeni tərkibin- "NDP-22M" reagentinin effektivliyi, viskozimetrik metodun (Brookfield LVDV-II+ viskozimetri) istifadəsi ilə neft emulsiyalarında və susuz neftlərdə laboratoriya təcrübələri, həmçinin şüşə səthindən neft təbəqəsinin yuyulmasının kinetikasının qiymətləndirilməsinə əsaslanan yuyucu və dispersiya xüsusiyyətlərinin qiymətləndirilməsi üçün yüksək keyfiyyətli metodların tətbiqi ilə sübut edilmişdir. İnhibitorun 20 $^{o}$C temperaturda 200-300 q/t dozalarından sonra onun təsiri zəifləyir və tədricən daha yüksək dozalarda isə cüzi təsir göstərir. Alınmış nəticələrdən görünür ki, reagentin miqdarı 50-400 q/t –a qədər əlavə edildikdə səmərəlilik 30 %-dən 75 %-ə qədər artır. İnhibitorun miqdarı 400 q/t-dan artıq olduqda isə metal səthə çökən AQP çöküntüsü öz ağırlığı ilə metal səthindən çox sürətlə sürüşərək neftdə qalır. Bu onunla izah olunur ki, inhibitorun parafinli neftə 400 q/t əlavəsindən artıq əlavə olunduqda parafin çöküntüsünün strukturu və onunla metal barmaqcıq arasındakı ilişmə qüvvəsi (adgeziya) zəifləyir və çöküntü öz ağırlıq qüvvəsinin təsirindən sürüşüb düşür [1]. Adgeziya qüvvəsinin çox kəskin zəifləməsi AQP çöküntülərinin qalxan maye ilə çox asanlıqla yuyulub aparılmasına zəmin yaradır.

Mexaniki qarışıqlar AQPÇ aqreqatlarının böyüməsini stimullaşdırır və adgeziya prosesinin sürətini artırır. AQPC-nin adgeziyası metalın fiziki-kimyəvi xassələrindən, onun istilik keçiriciliyindən, səthin hamarlığından və digər amillərdən asılıdır. Neft axınının yüksək olmayan sürətində borunun daxili səthinin çıxıntılarının hündürlüyü artdıqda AQPÇ-nin adsorbsiyasının böyüməsi baş vermir. Axının sürəti artdıqca bu təsir xeyli qüvvətlənir. Neft axınının sürəti

artdıqca AQPÇ-nin adgeziyası əvvəlcə artır, maksimuma çatdıqdan sonra azalmağa başlayır. Ən yüksək adgeziya müşahidə olunan sürət adgeziya möhkəmliyi və nəql borusunun diametri ilə düz, neftin özlülüyü ilə tərs mütənasibdir. AQPÇ-nin əmələ gəlmə mexanizmi və xassələrini bilmək onun neqativ nəticələri ilə mübarizədə düzgün strategiyasının seçilməsi üçün vacibdir [2].

Reagentin aktiv əsasının tərkibinin çoxkomponentli olması səbəbindən onun emulsiya və susuz neftlərə təsirinin müxtəlif mexanizmləri nəzərdən keçirilmişdir. İnhibitorun səthi aktiv və polimer komponenti arasındakı sinergetik təsir, müxtəlif neftqazçıxartma idarələrindən (NQÇİ) götürülmüş emulsiya və susuz neftin özlülüyünün effektiv azalması ilə təsdiqlənir.

**Ədəbiyyat**

1. B.A.Suleymanov, A.M.Samedov, M.E.Alsafarova, A.F.Akperova, Reagents for deep desalting of oil, *Oilfield engineering*, 2019, 3, p.52
2. А.Ф.Ахметов, Е.В.Герасимова, В.Ф.Нуриазданова, Анализ лабораторных методик определения эффективности растворителей асфальто-смолопарафиновых отложений, *Башкирский химический журнал*, 2008, 1, с. 65

## BİOKÜTLƏNİN TERMOKATALİTİK ÇEVRİLMƏSİ

**Vaqif Abbasov[1], Təranə Məmmədova[1], Təranə Lətifova[1] , Qərənfil Əhmədova[2]**

*Neft-Kimya Prosesləri İnstitutu[1]*
*Bakı Ali Neft Məktəbi[2]*
*qerenfil.ehmedova@bhos.edu.az*

Neft ehtiyyatlarının tükənməsi, eyni zamanda onların istifadəsində müşahidə olunan ekoloji gərginlik neft xammalına alternativ olan xammal növlərinə keçidi zəruri edir. Birinci növbədə bu keçid avtomobil yanacaqları üçün nəzərdə tutulsada, hazırda artıq neft kimya sənayesinin bütün istiqamətləri üçün əhəmiyyətlidir. Belə xammal növlərindən biri də ikinci nəsl bioyanacaq və digər məhsulları almağa imkan verən oduncaq xammalıdır, hansı ki hər iqlim şəraitinə uyğun eytiyyatları olduqca çoxdur və bir çox hallarda tullantı kimi əmələ gəlir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq təqdim edilən işdə oduncaq əsasında hidrogen və karbohidrogen qazlarının əldə edilməsi məqsədilə fistıq yonqarı və şam talaşasının azot mühitində 400 $^{o}$C temperaturunda, maqnetid və HR-538 hidrogenləşmə kataluzatorlarının iştirakında termokatalitik çevrilməsi tədqiq olunub.

Müəyyən edilib ki, bu şəraitdə aparılan termokatalitik prosesdə maye məhsulların çıxımı 36,9-38,2 % küt, qazların çıxımı 27,4-28,0% küt, koksun çıxımı isə 33,8-35,1% təşkil edir.

Təyin edilib ki, fistıq yonqarı və şam talaşasının termolatalitik prosesindən alınan qazların tərkibində hidrogenin midarı müvafiq olaraq 25,6-

31.4% küt., karbon monooksidin miqdarı isə 10,4-14,4; küt. təşkil edir. Bu zaman Karbohidrogen qazların tərkibi əsasən metan (13,9-14,3% küt) və $C_{3+}$ qazları ilə (17,0-18,8% küt ) təmsil olunur (cədvəl 1).

***Cədvəl 1***. Fıstıq yonqarı və şam talaşasının termolatalitik prosesindən alınan qazların tərkibi

| Prosesdə alınan qazların tərkibi, % küt | Fıstıq yonqarı | | Şam talaşası | |
|---|---|---|---|---|
| | Katalizatorlar iştirakında | | | |
| | maqnetid | Maqnetid + HR-538 | maqnetid | Maqnetid + HR-538 |
| CO | 12,8 | 10,4 | 14,4 | 13,1 |
| $CO_2$ | 8,2 | 8,6 | 7,9 | 8,5 |
| $H_2$ | 28,1 | 25,6 | 31,4 | 28,6 |
| Karbohidrogen qazları, O cümlədən | 50,5 | 55,4 | 46,3 | 49,8 |
| metan | 14,2 | 13.9 | 14,0 | 14,3 |
| $C_{2+}$ | 10.6 | 9,8 | 10,1 | 8,8 |
| $C_{3+}$ | 18.8 | 17,9 | 17,0 | 17,4 |
| $C_{4+}$ | 6,9 | 13,8 | 5,2 | 9,3 |

**Ədəbiyyat**

1. T.N.Veziroglu, S.Sahin, 21st century's energy: hydrogen energy system, *Energy Convers Manage*, 2008, 49, s. 1820
2. M.Balat, Potential importance of hydrogen as a future solution to environmental and transportation problems, *International Journal of Hydrogen Energy,* 2008, 33, s. 4013
3. IK Kapdan, F.Kargi, Bio-hydrogen production from waste materials, *Enzyme Microbial Technology,* 2006, №38, s.569

## РЕАГЕНТЫ ДЛЯ ОБЕССОЛИВАНИЯ НЕФТИ

**Метанет Алсафарова, Казим Матиев, Атамали Самедов**

*НИПИ «Нефтегаз», SOCAR*
*kazim.metiyev@socar.az*

Известно, что проблема отложения солей становится особенно актуальной в случае совместной добычи нефти и воды. Источником выделения солей являются пластовые воды, добываемые совместно с нефтью, в которых в результате изменения температуры и давления, содержания неорганических веществ оказываются выше предела насыщения промысловых вод малорастворимыми солями щёлочноземельных металлов, в частности, карбонатом и сульфатом кальция, солями магния, бария и стронция [1].

В настоящее время с проблемой солеотложения сталкиваются при эксплуатации многих скважин, что приводит к большим потерям дебитов. Для предотвращения выпадения в осадок солей применяется множество методов, значительную часть которых составляют химические методы защиты, такие как обработка скважины, путем закачки расчетного количества ингибитора солеотложения в затрубное пространство, обработка призабойной зоны продуктивного пласта путем продавки расчетного количества ингибитора в пласт добывающей скважины при проведении текущего и капитального ремонтов скважин [2].

В лабораторных условиях проведены исследования по оценке эффективности ингибиторов солеотложений зарубежного производства «Рандим-4021» и ингибиторы солеотложения местного производства «КД-7» и «ВФИКС-82. Тестирование ингибиторов минеральных отложений «Рандим-4021» «КД-7» и «ВФИКС-82» проводились на (модели) пластовой воды месторождения «Бахар Энержи». Лабораторные исследования ингибиторов проводились трилонометрическим методом по разности содержания ионов кальция в образцах с добавлением и без добавления ингибитора солей.

Результаты лабораторных исследований показали, что с увеличением концентрации химических реагентов «Рандим-4021», «КД-7» и «ВФИКС-82» защитный эффект ингибирования солеотложения повышается. В целом по результатам тестирования наиболее эффективными ингибиторами солеотложения в условиях месторождения «Бахар энерджи» оказались «КД-7» и «Рандим-4021».Однако, наименьшим защитным действием для ингибитора против образования минеральных солей проявляет реагент ВФИКС-82. Защитный эффект последного достигает не более 35,0% при дозировке не менее 50 мл/дм$^3$.

Результаты лабораторных исследований дают основания для рекомендации химических реагентов против образования минеральных солей для проведения опытно-промышленных испытаний.

**Литература**


1. Б.А.Сулейманов, А.Д.Ага-заде, А.М.Самедов, М.Э.Алсафарова, А.Ф.Акперова Реагенты для глубокого обессоливания нефти, Нефтепромысловое дело, научно-технический журнал, Москва, 3, 2019, с. 52
Sadalanan əlamətlərə malik reagent yaratmaq məqsədilə norborn-5-en-2-karbon turşusu və trietilentetraamin əsasında alınmış imidazolinin (NTİ) oktilbromidlə kompleksinin alınması (NTİ+$C_8H_{17}Br$), neftyığma və dispersləmə xassələrinin öyrənilməsi həyata keçirilmişdir (Cədvəl).

***Cədvəl.*** NTİ+$C_8H_{17}Br$ kompleksinin neftyığıcı və dispersləyici xassələrinin nəticələri

| Reagent | Distillə suyu | | İçməli su | | Dəniz suyu | |
|---|---|---|---|---|---|---|
| | τ, saat | K($K_D$-%) | τ, saat | K($K_D$-%) | τ, saat | K($K_D$-%) |
| NTİ+$C_8H_{17}Br$ (1:1) | | | | | | |
| 5%-li sulu məhlulu | 0-3.0<br>23-152.0 | 12.39<br>19.36 | 0<br>1.0-28.0<br>56.0-80.0<br>152.0 | 34.42<br>77.44<br>34.42<br>Dağ. niş. | 0-28.0<br>56.0-60.0<br>62.0-80.0<br>152.0 | 8.60<br>2.56<br>1.83<br>Dağ. niş. |
| Durulaşdırıl-mamış məhsul | 0-3.0<br>23-152.0 | 15.32<br>23.54 | 0<br>1.0-28.0<br>56.0-80.0<br>152.0 | 38.62<br>82.21<br>37.16<br>Dağ. niş. | 0-28.0<br>56.0-60.0<br>62.0-80.0<br>152.0 | 9.36<br>4.21<br>2.43<br>Dağ. niş. |

Cədvəldən görünür ki, NTİ-nin oktilbromid kompleksi 5%-li məhlul və durulaşdırılmamış halda distillə suyunda və dəniz suyunda neftyığma xassəsi göstərmişdir. Distillə suyunda 5%-li sulu məhlulun neftyığma əmsalının maksimal qiyməti τ=23.0-152.0 saatda $K_{maks}$=19.36, durulaşdırılmamış halda maksimum neftyığma əmsalı τ=1.0-28.0 saatda $K_{maks}$=23.54-ə bərabər olmuşdur. İçməli suda 5%-li məhlul şəklində τ=56.0-80.0 saatda $K_{maks}$=34.42-yə bərabər olmuşdur. Durulaşdırılmamış halda τ=1.0-28.0 saatda maksimum neftyığma əmsalı $K_{maks}$=82.21-ə bərabər olmuşdur.

**Ədəbiyyat**

1. Z.H.Əsədov, T.Ə.Poladov, R.A.Rəhimov, Dodesilpropilammonium bromid duzunun sintezi və nazik neft təbəqələrini su səthindən kənar edən yeni reagent kimi tədqiqi, *IX Бакинская Международная конференция по нефтехимии*, 2016. c. 213
2. T.Ə.Poladova, Dodesilamin və etilenxlorhidrin əsasında yeni neftyığıcı ammonium duzunun sintezi və tədqiqi. *Milli Aviasiya Akademiyası, Elmi məcmuələr*, 19(4), 2017, s. 27
3. Г.Г.Гумбатов, Р.А.Дашдиев, Применение ПАВ для ликвидации аварийных разливов нефти на водной поверхности*, Элм*, 1998, c. 210

# ОКИСЛЕНИЕ НАФТЕНОВЫХ УГЛЕВОДОРОДОВ С УЧАСТИЕМ НАНОКАТАЛИЗАТОРОВ

**Ягуб Нагиев[1,2], Эльдар Мамедбейли[3], Эльдар Зейналов[1], Мехпара Надири[1], Рейхан Агаева[3], Матанат Магеррамова[1]**

*Институт катализа и неорганической химии[1]*
*Азербайджанский педагогический университет[2]*
Институт нефтехимических процессов[3]
*yaqub56@mail.ru*

Полициклических соединений является одним из наиболее важных и востребованных направлений исследований современной органической и медицинской химии. Высокие темпы развития химии поликарбоциклов, и в особенности их функционально-замещенных производных, обусловлены исключительной важностью данных соединений для фармацевтической промышленности и ракетно-космической отрасли. Функционально-замещенные полициклы являются составной частью многих природных биологически активных соединений, а также используются в качестве ключевых синтонов при получении современных противовирусных, противоопухолевых, антибактериальных препаратов и нейропротекторов. Поэтому разработка высокоэффективных синтетических методов направленного конструирования функционально-замещенных би-, три- и полициклических соединений является важной и актуальной задачей современного органического синтеза.

Без катализаторов эти процессы протекают в жестких условиях, характеризуются низкой селективностью по полученным продуктам, предполагают использование высокоактивных агрессивных неэкологичных окислителей, содержащих хлор, марганец и другие тяжелые металлы, ведут к образованию большого числа токсичных побочных продуктов. Поэтому очевидно, что проблема нахождения катализаторов селективного окисления углеводородов различного строения ещё долгое время будет оставаться актуальной. Важно отметить, что катализаторы в таких процессах нацелены на селективное получение первичных продуктов реакции – гидропероксидов и все расчёты делаются, исходя из этой предпосылки.

Как один из образцов, мы сообщаем о результатах жидкофазного аэробного окисления нафталина в присутствии композиционного катализатора нано-$TiO_2$ (брукит)@МУНТ и CNT• 9,9% Fe. Для сравнения, мы параллельно вели окисление воздухом нафталина, инициированное пероксидом бензоила при температурах $100^0$ и $130^0$C [1].

В работе изучена зависимость процессов окисления от температуры и времени реакции. Установлено, что при температурах $70^o$–$90^o$C гидропероксид декагидронафталина в фиксируемых концентрациях не образуется. Однако, уже при температуре $100^o$C, в течение 10-20 часов реакции, 5,6–9,3% декагидронафталина превращается гидропероксид, кото-

рый в этих условиях стабилен и разветвления в цепи не даёт. При температурах 128°C и выше, в реакционной системе начинают образовываться и фиксироваться последующие продукты окисления – это *цис*-9-декалол (22,8%), *транс*-1-декалон (8,92%), 9,83% фталевый ангидрид и другие. Найдено, что при температуре 130°C, 16,5% оксидата состоит из гидропероксида декагидронафталина.

Полученные результаты позволяют впервые оценить особенности действия композиционного катализатора нано-$TiO_2$ (брукит)@МУНТ и CNT•9,9% Fe на процесс аэробного окисления нафтенового углеводорода.

**Ədəbiyyat**

1. Ш.Н.Магеррамова, Н.Ф.Садиева, С.А.Искендерова, Б.К.Агаев, Э.Б.Зейналов, Изучение активности нано-$TiO_2$-катализатора различной дисперсности при получении алкоксиэфиров жирных кислот, *Азербайджанский химический журнал*, 2023, 2, с. 100

## USE OF NANOCOMPOSITES IN DEMULSIFICATION

**Khudayar Hasanov[1], Nurlan Khalilov[2]**

*Azerbaijan Medical University*
*OilGasScientificResearchProject Institute, SOCAR*
*nurlan.xalilov1@gmail.com*

Development of new effective compositions and preparation of chemicals including development of more promising technologies to eliminate the complications that arise during oil refining is one of the major problems. Since the physical and chemical approaches used nowadays are ineffective to completely eliminate the problems arising from the buildup of inorganic salt deposits during treatment, and on the other hand, the high cost of inhibitors supplied from overseas accentuate the urgency of development of new inhibitors of corrosion, salt precipitation and demulsifiers [1]. Various issues, such as the development of new chemicals, compositions and technologies for dehydration and desalination of oil, are among the problems that are constantly under consideration.

Modern oil industry widely applies chemical methods of oil dehydration and desalination. The method relies on breaking of an oil emulsion with the help of chemicals. The main element of such methods is the destruction of water-in-oil emulsions with the help of chemicals. The efficiency of chemical oil dehydration and desalination largely depends on the type of chemical used. The choice of chemicals - demulsifiers and inhibitors in each case is made on the basis of special laboratory and field studies [2].

Nanoparticles, various organic amines and orthophosphate acid were added to the base chemical which was registered as nanocomposite (NC). The process of oil demulsification and desalination was carried out at 70 °C in accordance with the factory conditions using 45 g/t demulsifiers which in a short time dehydrate oil to 0.031 %. The salt content in oil is 3.06 mg/l. The protective effect of NC at a chemical consumption of 30 mg/l for sulfate solutions was at least 82.7 % and maximum 96.5 %. For carbonate solutions, the protective effect is at least 86.4 %, and the maximum is 98.8 %.

Nanocomposites affect the velocity and weaken the wettability of solid surfaces, they also affect the boiling point, viscosity, fluid loss. The surface tension of water increases 3 times, so that at 20 °C the surface tension of water is about 72 mN and increases to 216 mN under the action of NC. It should be noted that when water is heated from 20 °C to 100 °C, the surface tension decreases to 58.9 mN, that is, by 1.2 times. Therefore, the effect of NC on the surface tension of water is stronger than the thermal effect.

**References**

1. N.İ.Diyarov, N.Y.Bashkirseva, Composite non-ionic detergents for complex intensification of the processes of extraction, preparation and transportation of high-viscosity oils, *Vestnik Kazan. University of technology*, 2010, 4, p. 141
2. Kh.I.Hasanov, N.N.Khalilov, Salting inhibitors based on ethylenediamine and chlorohydrik acid phosphates, *Materials of IV International scientific and practical conference*, 2020, p. 126

## 3-METİL-1-DİETİLAMİNOMETOKSİTSİKLOHEKSANIN SİNTEZİ VƏ XASSƏLƏRİ

**Eldar Məmmədbəyli[1], Samirə İsmayılova[1], Gülsüm Hacıyeva[1], Könül Qəhrəmanova[2], Kəmalə Əfəndiyeva[1]**

*Neft-Kimya Prosesləri İnstitutu[1]*
*Aşqarlar Kimyası İnstitutu[2]*
*ismayilova_s_ch@mail.ru*

Təqdim olunan iş 3-metiltsikloheksan-1-olun, formaldehidin və dietilaminin arasında gedən Mannix reaksiyası əsasında sintez olunmuş 3-metil-1-dietilaminometoksitsikloheksanın sintezinə, yağ və yanacaqlara antimikrob aşqar kimi xassələrinin öyrənilməsinə həsr olunmuşdur [1].

Reaksiya aşağıdakı sxem üzrə gedir:



3-Metil-1-*N,N*-dietilaminometoksitsikloheksan 78–80ºC temperaturda 4–5 saat ərzində benzol mühitində ilkin maddələrin bərabər mol nisbətində alınır. Maddənin fiziki-kimyəvi xassələri təyin edilmişdir, suda həll olmur, ancaq üzvi həllediciləndə yaxşı həll olur. Sintez olunmuş maddələrin quruluşu İQ, $^{1}H$ və $^{13}C$ NMR spektroskopiya üsulları ilə təsdiq edilmişdir.

Sintez olunmuş maddə antimikrob aşqar kimi 0.25, 0.5 və 1% qatılıqda T-22 yağı və Aİ-95 yanacağında sınaqdan keçirilmişdir (cədvəl).

***Cədvəl.*** Maddənin antimikrob xassələri

| Birləşmənin quruluş formulu | Biosidin qatılığı, % | Mikroorqanizmlərin məhv olma zonası, sm | | | |
|---|---|---|---|---|---|
| | | T-22 yağı | | Yanacaq (Benzin-95) | |
| | | Bakteriya | Göbələk | Bakteriya | Göbələk |
| | | (*Pseudomonas aeruginosa, Mycobacterium phlei*) | (*Aspergillus niger, Penicillium chrysoenum*) | (*Pseudomonas aeruginosa, Mycobacterium phlei*) | (*Cladosporium resinae*) |
|  | 1.0 | +++ | 1.6–1.8 | – | – |
| | 0.5 | +++ | 1.2–1.2 | 2.2–2.4 | 2.7–2.9 |
| | 0.25 | +++ | +++ | +++ | 1.5–1.7 |
| Etalon | 1.0 | 1.3–1.4 | 1.3–1.4 | 1.4–1.5 | 1.4–1.5 |
| | 0.5 | 0.7–1.0 | 0.7–1.0 | 0.8–1.1 | 0.8–1.1 |
| Kontrol | | +++ | +++ | +++ | +++ |

Cədvəldən göründüyü kimi, maddə etalonla (natrium pentaxlorfenolyat) müqayisədə yüksək funqisid təsir göstərmişdir.

**Ədəbiyyat**

1. Patent a 2021 0063. E.H.Məmmədbəyli, S.V.İsmayılova, E.Ə.Qasımzadə, K.M.Əfəndiyeva, 3-Metil-1-piperidinometoksitsikloheksanın yağ və yanacaqlara antimikrob aşqar kimi.

## KÜRDƏXANI GÖLÜNÜN EKO-KİMYƏVİ TƏDQİQİ

**Təranə Əliyeva, Qiyas Bayramov, Səadət Abbasova**

*Bakı Dövlət Universiteti*
*tarana_chem@mail.ru*

Abşeron yarımadasında olan göllər 150 ildən çoxdur ki, müxtəlif intensiv texnogen təsirlərə məruz qalmışdır. Bu müddət ərzində yarımadada ekoloji təhlükəsizlik normalarına əməl olunmadan quruda və dənizdə neft yataqlarının intensiv istismarı dinamik sürətlə inkişaf etmişdir. Hal-hazırda Abşeron yarımadasında neft hasilatının və digər sənaye sahələrinin inkişafı regionda ekoloji normativlərə daha ciddi əməl etməyə tələb edir.

Müasir dövrdə iqtisadiyyatın sürətlə inkişafı çox mürəkkəb ekoloji problemlər yaradır. Odur ki, ətraf mühitdə tarazlığın pozulmasını doğuran səbəbləri aşkar edib onların aradan qaldırılması günün ən aktual məsələlərindəndir.

Bildiyimiz kimi Abşeron yarımadasında ümumi sahəsi 3325 ha qədər olan 200-dən artıq göl mövcuddur. Bu göllərə il ərzində 41,5 mln. $m^3$ müxtəlif tərkibli çirkab suları axıdılır. Suların tərkibində neft məhsullarının, ağır metalların və zəhərli maddələrin qatılığı yol verilən normadan dəfələrlə çox olduğundan göllərin dib çöküntülərində radionuklidlərin artması müşahidə olunur. Təsərrüfat-məişət tullantı sularının da göllərə və ətraf ərazilərə axıdılması Abşeron yarımadasında kəskin olan ekoloji vəziyyəti daha da mürəkkəbləşdirir [1].

Abşeron yarımadasında Kürdəxanı ərazisində olan gölü eko-kimyəvi tədqiq etmək üçün göl suyundan 2023-cü ilin may ayında nümunələr götürülmüşdür [2] və müvafiq analizlər aparılmışdır.

Analizlərin nəticələri aşağıdakı cədvəldə verilmişdir. Gölün suyu bulanıqdır və batalıq qoxusu verir, codluğu çoxdur. Xlorid, sulfat, hidrokarbonat anionlaının və sintetik səthi aktiv maddələrin miqdarı YVQH-ni dəfələrlə keçir. OBS və OKS-nin də miqdarları çoxdur.

***Cədvəl 1***. Kürdəxanı gölünün eko-kimyəvi tədqiqinin nəticələri

| № | Komponentin adı | Ölçü vahidi | Yol Verilən Qatılıq Həddi | Nəticə |
|---|---|---|---|---|
| 1 | Rəng, orqanoleptik met. | — | - | sarımtıl |
| 2 | Hidrogen göstəricisi, Ph | — | 6.5-8.5 | 8.6 |
| 3 | Duzluluq | q/l | - | 6.68 |
| 4 | Həll olmuş oksigen | $mqO_2/L$ | ≥4.0 | 7.0<br>79.0 |
| 5 | Elektrik keciriçiliyi | µSm/sm | - | 13.36 |
| 6 | Bulanıqlıq | FTU(NTU) | <5 | 26.7 |
| 7 | Şəffaflıq | sm | >30 | 24 |
| 8 | Codluq | mq-ekv/l | 7.0 | 30.9 |
| 9 | Kalsium, Ca | mq/l | - | 433.5 |
| 10 | Maqnezium, Mg | mq/l | - | 112.7 |
| 11 | Xlorid ionu, Cl | mq/l | 350 | 3956.2 |
| 12 | Sulfat ionu, $SO_4^{2-}$ | mq/l | 500 | 1461.1 |
| 13 | Hidrokarbonat ionu, $HCO_3^-$ | mq/l | - | 122.0 |
| 14 | Ammonium ionu, $NH_4^+$ | mq/l | 0.5 | 0.07 |
| 15 | Nitrit ionu, $NO_2^-$ | mq/l | 3.3 | 0.5 |
| 16 | Nitrat ionu, $NO_3^-$ | mq/l | 45.0 | 2.29 |
| 17 | Ortofosfat ionu, $PO_4^{3-}$ | mq/l | 3.8 | 0 |
| 18 | Oksigenin biokimyəvi sərfi ($OBS_5$) | $mqO_2/l$ | <6.0 | 59.6 |
| 19 | Oksigenin kimyəvi sərfi (OKS) | $mqO_2/l$ | - | 77.5 |
| 20 | Sintetik Səthi Aktiv Maddələr, SSAM | mq/l | <0.5 | 0.57 |
| 21 | Neft karbohidrogenləri | mq/l | 0.05 | 0.01 |

Yerüstü sular üçün Yol Verilən Qatılıq Hədləri (YVQH) 04 yanvar 1994-cü il № 01-əmri ilə Azərbaycan Respublikası Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi tərəfindən təsdiq edilmiş "Yerüstü suların tullantı sularla çirklənməsindən mühafizə qaydaları" sənədindən götürülmüşdür.

Hal-hazırda ekoloji problemlərin həll edilməsi məqsədilə bir sıra lahiyələr işlənib hazırlanmalıdır. Eko-kimyəvi təhlillər göstərir ki, bu tədqiqatların tam həyata keçirilməsi üçün yarımadadakı bütün göllərə dair ekoloji, geoloji-morfoloji və digər tədqiqat işləri başa çatdırılmalıdır.

Hesab edirik ki, əldə olunan kompleks təhlili, təklif və tövsiyələrin hazırlanması göllərin və onların ətrafının təmizlənməsi, torpaqların bioməhsuldarlığının bərpa edilməsi və ətraf mühitin sağlamlaşdırılmasına köməklik göstərəcəkdir. Abşeron yarımadasındakı göllərin bərpası ilə əlaqədar lahiyələrin işlənilməsinin və mərhələlərlə həyata keçirilməsini məqsədyönlü hesab edirik.

**Ədəbiyyat**


1. İ.İ. Mustafayev, V.Y. Məmmədov, M.Ə.Salmanov, S.Y.Hüseynov, *Abşeron gölləri*, 2001, 52 s
2. Təbii və süni göllərdən su nümunəsinin götürülməsi üzrə qaydalar, 603.1- 2011


## ESTIMATION OF THE NUMBER OF MICROORGANISMS IN SOIL SAMPLES CONTAMINATED WITH PESTICIDES

**Konul Gahramanova, Parvin Mammadova, Tarana Ibragimova, Aygun Almammadova, Samir Jafarov, Hijran Babayeva**

*Institute of Additives of Chemistry*
*qehremanovakr@gmail.com*

One of the urgent environmental problems of biotechnology is the solution of a set of problems associated with the rehabilitation of soils contaminated with xenobiotics. Soils are subjected to a particularly strong destructive effect due to the intensive use of pesticides in violation of the norms and rules for their use, which leads to their significant accumulation in soils. Landfills for unused or banned chemicals also pose a particular hazard. Natural processes of self-purification of soils are not able to cope with such volumes of pollution.

The study of the composition of microbiocenoses of contaminated soils, as well as soils from the territory of disposal of pesticides, is of considerable scientific interest, both for monitoring the environment and for isolating microorganisms that are resistant to high doses of toxicants. Pesticides retained by the organic and colloidal parts of the soil significantly limit

biological activity and inhibit nitrification processes, which are important for soil fertility.

The aim of the work was a microbiological study of the soil from the burial site of the pesticide 4,4-dichlorodiphenyltrichloroethane. Soil samples were taken at a distance of 10 and 20 cm from the pollution source.

In the course of our research, the effect of the pesticide 4,4-DDT on the number of microorganisms (bacteria and mold fungi) was studied. The total number of microorganisms was determined by the method of limiting dilutions and inoculation of the appropriate dilution (0.05 ml) on agar media: meat-peptone agar (MPA) for bacteria and wort agar (SA) for fungi and yeast. After the incubation of the crops, the grown colonies were counted quantitatively and the number of colony-forming units (CFU) per 1 g of soil was determined.

The results of microbiological analysis showed that the total content of microflora in soil contaminated with pesticides is lower than in the absence of pollution. Since, in samples No. 1 and No. 2, taken near the pesticide burial, the number of microorganisms is almost absent - 3-5 colonies in a Petri dish. And in samples No. 3 and No. 4, taken at a distance of 10-20 cm from the place of contamination, the number of bacteria is 19·105 and 29·105 CFU/g, respectively. In all samples, the number of mold and yeast fungi does not exceed 2-5 colonies, while in uncontaminated soil the number of fungi is 43·104, and the number of bacteria is 84·107 CFU/g. It is likely that high concentrations of the pesticide have a toxic effect on the population of microorganisms. In addition, the absence of fungi in the soil suggests that 4,4-DDT inhibits soil fungi.

In the course of the work, 12 strains of bacteria of the dominant populations contained in the soil were isolated. These crops have been identified and will be studied for the possibility of using pesticides as the sole carbon source.

**References**

1. J.L.Stroud, G.I.Paton, K.T.Semple, Microbe-aliphatic hydrocarbon interactions in soil: implications for biodegradation and bioremediation, *J. Appl. microbiol.*, 2007, 102(5), p. 1239

# II BÖLMƏ

## KOORDİNASİON BİRLƏŞMƏLƏR VƏ KATALİZ

### СЕЛЕКТИВНОЕ ДИСПРОПОРЦИОНИРОВАНИЕ ТОЛУОЛА НА КОМПОЗИЦИОННЫХ КАТАЛИТИЧЕСКИХ СИСТЕМАХ ZSM-5 ОКСИД КОБАЛЬТА.

**Тахира Акберли, Фуад Керимли, Сабит Мамедов**

*Бакинский Государственный Университет*
*fuad_kerimli80@mail.ru*

Пара-замещенные алкилароматические углеводороды находят широкое применение в нефтехимических и органических синтезах. Для увеличения ресурсов п-ксилола одним из важных методов получения п-ксилола является селективное диспропорционирование толуола на среднепористых цеолитах типа ZSM-5 [1].

При диспропорционировании толуола на цеолитах выходы ксилолов обычно близки к термодинамически равновесным распределениям (~56-58% м-ксилол, ~24-25% п-ксилол, 18-20% о-ксилол). Для повышения селективности по п-ксилолу необходимо модифицировать кислотность и структуру цеолита. Такую специфическую модификацию можно осуществить путем пассивации сильных бренстедовских кислотных центров на внешней поверхности цеолитов и уменьшения размера пор используя химическое модифицирование. В последние годы большое применение в качестве катализаторов находят композиционные материалы. Использование композиционных материалов в качестве катализаторов позволяет проводить химические процессы с высокой селективностью.

В связи с этим целью настоящей работы явилось синтез нанокомпозиционных каталитических систем на основе цеолита ZSM-5 и оксида кобальта и исследование их селективности по п-ксилолу в диспропорционировании толуола.

Показано, что немодифицированный HZSM-5 проявляет достаточно высокую активность в реакции диспропорционирования толуола. При 450-550ºС конверсия толуола составляет 32,3-49,8%. Однако, основная реакция сопровождается побочными реакциями крекинга и трансалкилирования. Кроме того HZSM-5 проявляет низкую селективность по п-ксилолу (24,1-25,2%). Модифицирование цеолита HZSM-5 с нанопорошком оксида кобальта приводит к возрастанию селективности по бензолу и ксилолам. При этом происходит также возрастание селективности по п-ксилолу. Однако с увеличением содержания модификато-

ра в каталитической композиции происходит существенное снижение конверсии толуола. Среди исследуемых катализаторов при достаточно высокой конверсии толуола (21-30%) наиболее высокую селективность по п-ксилолу (66,3-77,5%) проявляет каталтическая композиция содержащая 5,0 мас.% оксида кобальта.

Установлено, что каталитическая композиция HZSM-5-CoO демонстрирует высокую параселективность, главным образом, благодаря изменению пористой структуры и оптимальному сочетанию бренстедовских и льюисовских кислотных центров.

**Литература**

1. Ф.Ш.Керимли, С.Э.Мамедов, Селективное диспропорционирование толуола на модифицированных пентасилах, *Нефтехимия*, 2020, 2, с. 64

## Cd(II) İONUNUN YENI QATILAŞDIRMA METODİKASININ IŞLƏNİLMƏSİ

**Leyla Xəlilova, Xəlil Nağıyev, Minayə Məmmədova**

*Bakı Dövlət Universiteti*
*leilaxalil@gmail.com*

Ədəbiyyat məlumatlarının təhlili göstərir ki, metal ionları üçün xelat əmələgətirici sorbentlərə daha çox üstünlük verilir. Bu əsasən təbii sorbentlərin sorbsiya tutumlarının yüksək olması ilə əlaqədardır.Təqdim olunan işdə malein anhidridi-stirol sopolimerinə modifikasiya olunmuş benzidin sorbentindən istifadə etməklə kadmiumun sorbsion fotometrik təyini metodikası verilmişdir [1].

Cd(II) məhlulunu hazırlamaq üçün kimyəvi təmiz $Cd(NO_3)_2{\cdot}4H_2O$ duzundan istifadə edilmişdir.Mühitin turşuluğunun sorbsiya prosesinə təsiri göstərilmişdir. Reaksiya tarazlığına təsir edən ən mühüm amillərdən biri də hidrogen ionlarının qatılığıdır. pH-ın qiymətindən asılı olaraq makromolekullarda ionlaşmış və ionlaşmamış funksional qruplarının miqdar nisbəti, metal ionlarının məhlulda vəziyyəti müxtəlif olur.Təcrübə nəticəsində müəyyən olunmuşdur ki, sorbsiyanın optimal pH-ı 5-ə bərabərdir.Sorbsiya tutumu təcrübi yolla təyin edilib. Optimal şəraitdə qoyulmuş sorbsiya təcrübəsinə əsasən sorbsiya tutumu 476 mq/q-dır. Sorbsiya tarazlığının zamandan asılılığı öyrənib və müəyyən edilib ki 90 dəq müddətində sorbsiya tarazlığı yaranır. İon qüvvəsinin $\mu$=0,2 qiymətində sorbsiya tarazlığı yaranır.

Sorbsiya olunmuş metal ionlarının polimer sorbentdən desorbsiyası müəyyən edilmişdir. Bunun üçün eyni qatılıqlı $HClO_4$, $H_2SO_4$, $HNO_3$ HCl turşularının desorbsiya prosesinə təsiri öyrənilmişdir.Təcrübələrdən alınan nəticələrə əsasən çox hallarda $H_2SO_4$ desorbsiya etmək qabiliyyətinin yüksək olduğu müəyyən edilmişdir.

**Ədəbiyyat**

1. R.Ə.Əliyeva S.R.Hacıyeva F.M.Çıraqov.Qatılaşma və ayrılma analiz metodları, *Elm*, 2011. 228 s

# РАЗНОЛИГАНДНЫЕ КОМПЛЕКСЫ Sn(II) С АЗОСОЕДИНЕНИЯМИ НА ОСНОВЕ ПИРОГАЛЛОЛА

**Ульвия Гюллярли, Халил Нагиев**

*Бакинский Государственный Университет*
*ulya_chem@mail.ru*

Азосоединения на основе пирогаллола широко изучены для определения некоторых ионов металлов. Их разнолигандные комплексы отличаются высокими химико-аналитическими характеристиками [1].

В работе изучено комплексообразование Sn(II) с азосоединениями на основе пирогаллола 2,2/,3,4-тетраокси-3/-сульфо-5/-хлоразобензолом ($R_1$) и 2,3,4-триокси-4/-сульфоазо-бензолом ($R_2$) в присутствии цетилтриметиламмония бромида (ЦТМАBr) и дифенилгуанидина (ДФГ). Олово(II) с обоими реагентами образует окрашенные комплексы в кислой среде при pH=0-7, с соотношением Sn(II)-R=1:2. Максимальные выходы комплекса Sn(II)-$R_1$ наблюдаются при pH=1 ($\lambda_{мах}$=470 нм), а комплекса Sn(II)-$R_2$ при pH=2 ($\lambda_{мах}$=437 нм) соответственно. В присутствии третьих компонентов образуются разнолигандные комплексы Sn(II)-$R_1$-ЦТМАBr и Sn(II)-$R_2$-ДФГ, с образованием которых наблюдается батохромный сдвиг и гиперхромный эффект в спектрах поглощения. Выход комплексов максимален в среде 0,1 M HCl. Изучено влияние концентрации реагирующих компонентов от времени и температуры на образование разнолигандных комплексов. Соотношения компонентов в комплексе Sn(II)-$R_1$-ЦТМАBr равна 1:2:2, а в комплексе Sn(II)-$R_2$-ДФГ 1:2:1, установленные методами Старика-Барбанеля и сдвига равновесий. Вычислены молярные коэффициенты светопоглощения комплексов при $\lambda_{мах}$ и соответственно равны 24000 (Sn(II)-$R_1$-ЦТМАBr) и 19000 (Sn(II)-$R_2$-ДФГ). Изучено влияние сопутствующих веществ на определение Sn(II) и установлено, что разработанные методики отличаются высокой избирательностью.

**Литература**

1. У.А.Гюллярли, Х.Д.Нагиев, Д.Г.Гамбаров, Ф.М.Чырагов Взаимодействие Zr(IV) с 2,3,4-триоксифенилазо-5/-сульфонафтолином в присутствии ДАМ и его гомологов, *Журнал аналитической химии*, 2006, 61, 6, с. 604

# OXIDATIVE DEHYDROGENATION OF PROPANOL IN THE PRESENCE OF NICKEL-CONTAINING NaX ZEOLITE CATALYST

**Asmer Valiyeva[1], Parviz Nadirov[2] , Cabrayıl Mirzai[3]**

*Western Caspian University[1],*
*Azerbaijan State University of Oil and Industry[2],*
*Baku State University[3]*
*esmer_elesgerli@mail.ru*

Although there are a large number of studies on the catalytic conversion of alcohols in modern times, there are almost no studies on their conversion in an oxidizing environment on zeolite-containing catalysts. Considering this, NaX zeolite and Ni-transition metal based catalyst samples were prepared [1] and their activity was studied in the process of n-propanol oxidation in the temperature range of 150-450 $^0$C. It was determined that many parallel and sequential reactions occur during the conversion of alcohol on the aforementioned catalyst samples: intramolecular and intermolecular dehydration, partial and complete oxidation reactions.

Based on the conducted studies, it was determined that the physico-chemical properties and catalytic activity of the catalyst samples used in the process depend on the amount and size of the metal contained in it. In order to determine the phase composition of the original NaX zeolite and its samples modified with Ni metal, X-ray phase analysis was carried out. Peaks at 2θ = 6.116; 10.002; 23.347; 26.669; 32.037° were obtained for the initial sample, which corresponds to the standard sample of zeolite X. $2\theta$ = 37,386 (111); 43,478 (200) and 63,222° (220) peaks prove the presence of NiO particles in NaX+Ni samples. The sharpness and intensity of these peaks suggest that the NiO-nanoparticles have a high degree of crystallinity [2-4]. This suggests that nickel (II) nitrate impregnated on the surface of zeolite is completely decomposed into NiO nanoparticles when annealed at 550$^0$ C. The average size of NiO crystals was determined using the formula D = kλ / βcosθ. Here, λ is the wavelength of X-rays and is 1.54056 nm. $\beta$ = FWHM and $\theta$ -diffraction angle is calculated based on the peak. k is an empirical coefficient and is 0.9. As a result of the calculation, it was determined that the average size of NiO particles included in the structure of NaX zeolite is 28,314 nm. This suggests that the size of NiO particles in the structure of zeolite is at the nanoparticle level.

Studies have shown that the introduction of even a small amount (1%) of nickel into the initial structure of NaX causes a noticeable change in its EPR spectrum. Thus, a signal characterized by parameters g=2.1 and ΔH=19-20 mT is observed, which refers to nanosized NiO particles. It was determined that as the amount of nickel included in the primary zeolite structure increases, the EPR spectrum becomes more complex. For example, at least 6 signals are observed in the spectrum of NiX+5% Ni sample. It was determined that a more serious change occurs in the spectrum of samples processed for 6 hours in the

process. This can be explained by the formation of coke on the surface of the spent catalyst sample. Thus, it was determined that the narrow bands with parameters g=2.0026 and ΔH= 0,9 мT correspond to the paramagnetic coke residue. It should be noted that the spectrum of the obtained sample after burning the coked sample at a temperature of 5000 C in the presence of air is exactly the same as the spectrum of the original sample.

At the same time, it was shown that NiO with high dispersity is formed during the decomposition of nickel (II) nitrate on the surface of zeolite. It was determined that the average size of NiO particles is not larger than 30 nm. This is much smaller than the size of NiO particles obtained from the decomposition of free Ni(II) nitrate. This indicates that the surface of zeolite plays an important role in the formation of highly dispersed NiO phase. Based on the conducted studies, it was determined that depending on the conditions of modification of the initial zeolite sample with Ni metal, it is possible to control the yield of the reaction product by optimizing the density and size of the active component (NiO) in the obtained catalyst sample.

**References**

1. Л.Л.Коробицына, Л.М.Величкина, А.В.Восьмериков, В.И.Радомская, Е.С.Астапова, Н.В.Рябова, Научные основы приготовления катализаторов, *Новосибирск*, 1983 г, 102 с
2. О.А Агапятова, Синтез и свойства сверхвысококремнеземных цеолитов типа ZSM-5, *Журнал неорганической химии*, 2008, 53(2), с. 169
3. C.R.Henry, Catalysis by Nanoparticles, *Nanocatalysis*, 2007, p. 245
4. C.W.Purnomo, C.Salim, H.Hinode, Synthesis of pure Na–X and Na–A zeolite from Bagasse Fly Ash, *Microporous and Mesoporous Materials*, 2012, 162, p. 6–13

## DƏMİRİN(III) ASETİLASETON ƏSASLI AZOBİRLƏŞMƏLƏR VƏ HİDROFOB AMİNLƏRLƏ MÜXTƏLİFLİQANDLI KOMPLEKSLƏRİNİN TƏDQİQİ

**Arzu Abiyeva, Xəlil Nağıyev, Minayə Məmmədova, Famil Çıraqov**

*Bakı Dövlət Universiteti*
*xalil-71@rambler.ru*

Mürəkkəb tərkibli nümunələrdə dəmirin(III) mikromiqdarının təyini üçün tərkibində müxtəlif funksional qruplar olan reaktivlərdən istifadə olunmasına baxmayaraq, tərkibində donor oksigen və azot atomları olan üzvi birləşmələr daha mühüm praktiki əhəmiyyətə malik olması ilə fərqlənir. Göstərilən tip üzvi birləşmələr dəmir(III) ionu ilə daha davamlı kompleks birləşmələr əmələ gətirdiyindən təyinat reaksiyaları daha yüksək həssaslıq və seçiciliklə xarakterizə olunur [1].

Dəmirin(III) hidrofob aminlər– 1,10-fenantrolin (Fen) və α,α′-dipiridil (Dip) iştirakında asetilaseton əsasında sintez edilmiş üzvi birləşmələr - 3-(3'-hidroksi-4'-karboksifenilazo)pentandion-2,4 ($R_1$) və 3-((4-metoksifenil)diazenil)-4-((2-((4-okso-3-fenil)diazenil)pentan-2-iliden)aminoetil)iminopentanon-2 ($R_2$) ilə kompleks əmələ gətirməsi spektrofotometrik metodla tədqiq edilmiş və yüksək kimyəvi analitik xarakteristiklara malik müxtəlifliqandlı komplekslərin alındığı müəyyən edilmişdir. Azobirləşmələr Fe(III) ionu turş mühitdə (pH 0-7,0) qarşılıqlı təsirdə olaraq rəngli birləşmələr əmələ gətirir. $R_1$ və $R_2$ azobirləşmələri ilə əmələ gələn komplekslərin maksimum çıxımı müvafiq olaraq pH 3,5-4,0 və pH 3,0-3,5 mühitinə, maksimum işıq udması isə 484 və 400 nm dalğa uzunluğuna təsadüf edir. 1,10-Fenantrolin və α,α′-dipiridilin iştirakında müxtəlifliqndlı komplekslərin əmələ gəlməsi ilə udma spektrlərində həm azobirləmələr, həm də onların dəmirlə(III) əmələ gətirdiyi eyniliqandlı komplekslərin udma spektrlərinə nəzərən batoxrom sürüşmə və maksimum çıxımın daha turş mühitə doğru yerdəyişməsi müşahidə olunur. Fe(III)-$R_1$-Fen, Fe(III)-$R_1$-Dip və Fe(III)-$R_2$-Fen müxtəlifliqandlı komplekslərinin maksimum işıq udması uyğun olaraq 496, 505 və 436 nm dalğa uzunluğunda müşahidə olunur. Fe(III)-$R_1$-Fen və Fe(III)-$R_2$-Fen kompleksləri üçün $pH_{opt}$=2,5-3,0, Fe(III)-$R_1$-Dip kompleksi üçün isə $pH_{opt}$=3,0-3,5.

Müxtəlifliqandlı komplekslərin əmələ gəlməsi və tərkibi sistemli şəkildə tədqiq edilmiş, kompleks əmələ gəllməyə azobirləşmələr və hidrofob aminlərin, vaxt və temperaturun təsiri öyrənilmiş, tərkibindəki komponentlər nisbəti və davamlılıq sabitləri təyin edilmişdir. Hər üç kompleks məhlulda dərhal əmələ gəlir və bir gün müddətində, eləcə də $80^0$C temperatura qədər qızıdıldıqda optiki sıxlıqlarının qiymətini dəyişmir. Fe(III)-$R_1$-Fen və Fe(III)-$R_1$-Dip komplekslərinin maksimum çıxımı azobirləşmənin $8,0 \cdot 10^{-5}$ M və hidrofob aminin $2,0 \cdot 10^{-4}$ M, Fe(III)-$R_4$-Fen kompleksinin maksimum çıxımı isə azobirləşmənin $1,6 \cdot 10^{-4}$ M və 1,10-fenantrolinin $1,2 \cdot 10^{-4}$ M qatılığında müşahidə olunur. Fe(III)-$R_1$-Fen və Fe(III)-$R_1$-Dip komplekslərinin optiki sıxlıqları azobirləşmənin 2,0-10,0 və hidrofob aminin 5,0-12,0; Fe(III)-$R_4$-Fen kompleksinin optiki sıxlığı azobirləşmənin 2,0-8,0 və 1,10-fenantrolinin 1,5-6,0 dəfə artıq molyar qatılığında sabit qalır.

Fe(III)-$R_1$-Fen və Fe(III)-$R_1$-Dip komplekslərinin tərkibində komponentlər nisbətinin 1:2:2, Fe(III)-$R_2$-Fen kompleksinin tərkibində isə 1:1:1 kimi olduğu Starik-Barbanelin nisbi çıxım və tarazlığın sürüşməsi metodları ilə təyin edilmiş, kompleks əmələ gəlmə reaksiyalarının mexanizmi Astaxov metodu ilə öyrənilmişdir. Tədqiq edilmiş müxtəlifliqandlı komplekslər yüksək davamlılıq sabitləri ilə xarakterizə olunur. Fe(III)-$R_1$-Fen, Fe(III)-$R_1$-Dip və Fe(III)-$R_2$-Fen komplekslərinin davamlılıq sabitlərinin onluq loqarifmik qiymətləri (lgβ) müvafiq olaraq 12,86±0,20, 12,47±0,21 və 13,73±0,21-ə bərabərdir. Komplekslərin molyar udma əmsalları $\lambda_{max}$ dalğa uzunluğunda uyğun olaraq aşağıdakı qiymətlərə malikdir: $(19,70 \pm 0,02) \cdot 10^3$ (Fe(III)-$R_1$-Fen), $(10,00 \pm 0,03) \cdot 10^3$ (Fe(III)-$R_1$-Dip) və $(4,50 \pm 0,02) \cdot 10^3$ (Fe(III)-$R_2$-Fen).

Dəmirin(III) mürəkkəb tərkibli təbii nümunələrdə təyini metodikalarının işlənilməsi üçün onun müxtəlifliqandlı komplekslər şəklində təyini üçün Ber qanununa tabeçilik intervalları müəyyən edilmiş və təyinata kənar komponentlərin təsiri öyrənilmişdir. Fe(III)-$R_1$-Fen, Fe(III)-$R_1$-Dip və Fe(III)-$R_2$-Fen kompleksləri şəklində təyinat üçün qurulmuş dərəcəli qrafiklər dəmirin(III) 0,18-5,60, 0,22-6,72 və 0,45-4,48 mkq/ml qatılıqları intervalında xəttilik ödənilir. Hər üç kompleks şəklində dəmirin(III) təyininə əksər kənar ionların kifayət qədər yüksək – 1000 dəfə artıq miqdarı mane olmur.

**Ədəbiyyat**


1. А.Т.Пилипенко, М.М.Тананойко, Разнолигандные и разнометалльные комплексы и их применение в аналитической химии, *Химия*, 1983, 224 с
2. Х.Д.Нагиев, А.Ю.Абиева, Ф.М.Чырагов, У.А.Гюллярли, Определение железа (III) в объектах окружающей среды фотометрическим методом с производными ацетилацетона, *Аналитика и контроль*, 2023, 27(2), с. 101


## İZOBUTİLDİBROMAMİNİN ELEKTROKİMYƏVİ METODLA ALINMASI

**Mətləb Hətəmov, Gülnarə Rüstəmova, Ləman Adilova**

*Sumqayıt Dövlət Universiteti*
*adilovalaman@mail.ru*

Hazırki dövrdə neft kimyası və kimya sənayesində geniş miqyasda tətbiq olunan halogenli üzvi birləşmələrin elektrokimyəvi sintezi maraqlı istiqamətlərindən biridir və bu proses molekulyar halogenin ($Cl_2$, $Br_2$) uyğun üzvi birləşmələrlə qarşılıqlı təsirinə əsaslanır.

Elektrokimyəvi proses yüksək selektivliyə malikdir, bahalı kimyəvi oksidləşdiricilərin və yaxud reduksiyaedicilərin istifadəsini tələb etmir, əsasən yüksək təmizlik dərəcəsinə və keyfiyyətə malik məhsulun alınmasına imkan verir. Sadə konstruksiyalı elektrolizerlərdən istifadə etməklə üzvi birləşmələrin əksər elektrokimyəvi sintez reaksiyalarını adi temperaturlarda və təzyiqlərdə həyata keçirmək mümkün olur [1].

Alifatik quruluşlu N-dibromaminlər müxtəlif sinif üzvi birləşmələrin sintezində geniş miqyasda istifadə olunur. Ədəbiyyat araşdır-maları göstərir ki, N-dixloraminlər və eləcədə N-dibromaminlər əsasən kimyəvi metodlarla alınır, N-dixloraminlərin elektroliz üsulu ilə alınması məlumdur, lakin brom üzvi birləşmələrin elektrokimyəvi üsulla alınmasına ədəbiyyatlarda az rast gəlinir [2].

Aparılan tədqiqat işlərində bir sıra çatışmayan cəhətlər mövcuddur: prosesin aparılma şəraitinin mürəkkəbliyi, alınan məhsulun təmizlik dərəcəsi, bəzi ekoloji problemlərin yaranması və s. belə cəhətlərdəndir. Odur ki, N-dibromaminin elektrokimyəvi sistemdə alınması, prosesin yerinə yetirilmə texnologiyasının sadələşdirilməsi, yüksək təmizlik dərəcəsinə malik məhsulların

alınması, ucuz və asan tapılan reagentlərdən istifadə olunması kimya texnologiyasının aktual problemlərindəndir. Ənənəvi üsullarda mövcud olan çatışmazlıqların aradan qaldırılması, bəzi ekoloji problemlərin həll olunması, prosesdə ucuz və asan tapılan reagentlərdən istifadə olunması işin əsas məqsədini təşkil edir. Elektroliz prosesi elektroliz qurğusunun katod və anod fəzasına ayrılmadan $CCl_4/NaBr$ sulu məhlulunun heterogen sistemində yerinə yetirilir. Bromlaşma prosesində 1mol aminə 4 farad elektrik cərəyanı sərf etməklə aşağıda göstərilən ümumi reaksiyanın getməsi güman edilir: $RNH_2 + 2Br^- + 2H_2O \rightarrow RNBr_2 + 2OH^- + 2H_2$. Bu reaksiyanın getməsi sərf olunan bromid ionuna uyğun olaraq baş verir və məhlul qələviləşdirilir. Məhlulun pH-nın və $Br^-$ ionunun qatılığının elektroliz prosesində sabit saxlanılması HBr turşusunun mol miqdarının (2mol:1mol aminə) sistemə daxil edilməsi ilə həll olunur.

Tərəfimizdən yerinə yetirilən izobutilaminin elektrokimyəvi sistemdə bromlaşması prosesi NaBr-in bilavasitə elektrolizi ilə həyata keçirilir və prosesin texnoloji aspekti izah olunur.

$$2Br^- + 2H_2O \xrightarrow{elekt.} H_2 + Br_2 + 2OH^-$$

$$Br_2 + 2OH^- \rightarrow Br^- + BrO^- + H_2O$$

$$R - NH_2 + Br_2 \rightarrow R - NBr_2 + H_2$$

$$R - NH_2 + 2BrO^- \rightarrow R - NBr_2 + 2OH^-$$

burada R – alifatik izobutilamindir.

İzobutilaminin yüksək çıxımla alınması üçün NaBr-in qatı 250-300 q/l məhlulundan istifadə olunur, proses zamanı temperatur həddi 10-15°C saxlanılmaqla, üzvi və su fazalarının uyğun həcm nisbətləri 3:7 təşkil edir. Prosesdə anod olaraq ORTA, katod olaraq isə titan elektrodlarından istifadə edilir. Cərəynın anod sıxlığı 800-900 $A/m^2$, cərəyanın həcm sıxlğı isə 30 A/l təşkil edir. Belə şəraitdə izobutildibromaminin çıxımı maddəyə görə 88-90%, cərəyana görə isə 73-75% təşkil edir.

Prosesin ən səmərəli xüsusiyyətlərindən biri NaBr məhlulunun dəfələrlə istifadə oluna bilməsidir. Elektroliz prosesi bir neçə dəfə təkrar olunur, hər dəfə üzvi faza ayrılandan sonra natrium bromid məhluluna bromid turşusunun və həlledicinin uyğun miqdarı və yeni izobutilamin (iBA) əlavə olunur və elektroliz aparılır, bu halda praktiki olaraq NaBr-ın qatılığı dəyişməz qalır.

Yerinə yetirilən təcrübələr əsasında elektrolitin dövretdirilməsi və üzvi həlledicinin məhsulun alınmasından sonra yenidən sistemə qaytarılması prosesi tullantısız texnologiyanın yaradılmasına imkan verir.

**Ədəbiyyat**

1. M.M.Muradov, K.S.Vəliyeva, M.K.Nəzərova, Olefin və aromatik karbohidrogenlərin elektrokimyəvi sistemdə hallogenləşdirilməsi ilə abqaz xlorid turşusunun utilləşdirilməsi, *SDU, konfrans materiallari*, 2020, 2, s. 69
2. M.M.Hətəmov, M.M.Muradov, M.B.Abdullayeva, G.C.Rüstəmova, Anilinin elektrokimyəvi sistemdə bromlaşdırılması, *SDU, Elmi xəbərlər*, C.23, 3, səh. 30

# XELATƏMƏLƏGƏTİRİCİ POLİMER SORBENTLƏ V (*V*), Mo (*VI*) İONLARININ SORBSİYON FOTOMETRİK TƏYİNİ

**Müşkünaz Həsənova[1], Kamalə Abdullayeva[2], Famil Çıraqov[2], Cəbrayıl Mirzai[2]**

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti[1]*
*Bakı Dövlət Universiteti[2]*
*m.hesenova.74@mail.ru*
*abdullayeva-1974@inbox.ru*

Ətraf mühit obyektlərində metal ionlarının kiçik qatılıqlarının analizi aktual analitik məsələdir. Təqdim olunan işdə əsas məqsəd malein anhidridi-stirol sopolimeri əsasında sintez olunmuş xelatəmələgətirici polimer sorbentlə vanadium(*V*) və molibden(*VI*) ionlarının qatılaşdırılaraq təyini üçün yeni təyinat metodikalarının işlənib hazırlanmasıdır.Təcrübələrdə metalların kimyəvi təmiz $NH_4VO_3$ və $(NH_4)_6Mo_7O_{24}\cdot4H_2O)$ duzlarının məhlularından istifadə edilərək ədəbiyyatda məlum olan metodika əsasında bu metal ionlarının məhlulları hazırlanmışdır. Hazırlanmış məhlulların qatılığı standartlarla müəqayisə edilərək dəqiqləşdirilmişdir [1]. Təcrübələri aparmaq üçün xelatəmələgətirici sorbent kimi 4-amino-2-tiourasil amin tərkibli sorbentdən götürülmüşdür. Təyinat zamanın piroqallol əsaslı reagentlərdən istifadə olunmuşdur. Belə ki, manadium(V) ionları üçün 2,3,4-trihidroksi-5'-sulfoazonaftalin reagentindən, molibden(VI) ionları üçün isə bis-(2,3,4-trihidroksifenilazo)-benzidin reagentindən istifadə etməklə spektrofotometrik metodla təyinat aparılmışdır [2].

Kimyəvi təmiz KCl duzu məhlulundan istifadə edərək məhlulda ion qüvvəsinin lazımi qiyməti yaradılmışdır. Sistemdə lazımı pHyaratmaq üçün (*pH* 3-11) ammonyak-asetat bufer məhlullarından, (*pH* 0-2) *HCl* fiksanalından istifadə edilmişdir. İon qüvvəsinin təyini zamanı istifadə olunan kimyəvi təmiz KOH qələvisindən hazırlanmış məhlulun qatılığı HCl məhlulunun standart ilə titrlənərək dəqiqləşdirilmişdir.

Metalların xelatəmələgətirici sorbentlə qatılaşdırılmasına statik şəraitdə mühitin pH-nın, metal ionlarının qatılığının, ion qüvvəsinin təsiri öyrənilmişdir, eyni zamanda sorbsiyanın zamandan asılılığı müəyyənləşdirilmişdir və sorbentin sorbsiya tutumu (ST, mq/q) və sorbsiya dərəcəsi(%) hesablanmışdır.

Alınmış nəticlər cədvəldə öz əksini tapmışıdır. Nəticələrə əsasən 4-amino-2-tiourasil tərkibli xelatəmələgətirici sorbentlə 3-4 saat müddətidə Mo(*VI*) ionlarını 91%-dək, V(*V*) 97 %-dək tam sorbsiya prosesini aparmaq mümkündür.

***Cədvəl 1.*** V(V) və Mo (*VI*) ionlarının sorbentlə sorbsiya təcrübələrinin əsas göstəriciləri

| Metal | ST, mq/q | SD, % | $pH_{opt.}$ | μ*, mol/l | t, saat | d, mm |
|---|---|---|---|---|---|---|
| V(V) | 267,6 | 97 | 4 | 0,6 | 2 | 0,14 |
| Mo (VI) | 496 | 92 | 4 | 0,3 | 3 | 0,14 |

Sintez olunmuş metalların sorbentdən desorbsiyası da tədqiq edilmişdir. Bu məqsədlə eyni qatılıqlı müxtəlif turşuların (*$HClO_4$*, *$H_2SO_4$*, *$HNO_3$*, *HCl*) desorbsiya prosesinə təsiri öyrənilmişdir. Aparılan tədqiqatların nəticələrinə əsasən deyə bilərik ki, V(*V*) və Mo (*VI*) ionlarının maksimal desorbsiyası $HClO_4$ turşusunun 2M qatılığında baş verir.

Tədqiq edilən sorbentlə statik şəraitdə sorbsiya və desorbsiyanın optimal şəraiti müəyyən edildikdən sonra V(*V*) və Mo (*VI*) ionlarının mikromiqdarlarının real obyektlərdə qatılaşdırılaraq yeni, effektiv sorbsiyon –fotometrik təyini metodikaları işlənmişdir.

**Ədəbiyyat**

1. П.П.Коростелев, Приготовление растворов для химико-аналитических работ, *Химия*, 1964, 386 с
2. А.И.Бусев, Синтез новых органических реагентов для неорганического анализа, *МГУ*, 1972, 245 с

## VOLFRAMIN 2-HİDROKSİ-5-BROMOTİOFENOL VƏ AMİNOFENOLLA EKSTRAKSİYALI-SPEKTROFOTOMETRİK TƏYİNİ

**Sultan Əliyev[1], Əli Zalov[2], Ülviyyə Abasquliyeva[2]**

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti[1]*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti[2]*
*zalov1966@mail.ru*

Hazırkı iş volframın 2-hidroksi-5-bromtiofenol (HBTF) və aminofenollarla (AF) {2-(N.N-dimetilaminometil)–4-metilfenol ($AF_1$), 2-(N,N-dimetilaminometil)-4-xlorofenol ($AF_2$)} kompleksəmələgəlməsinə və ekstraksiya şəraitinin öyrənilməsinə həsr edilmişdir. Turşu mühitdə HBTF reduksiyaedici xassəyə malikdir və W(VI) reagentin özü tərəfindən W(V)-ə qədər reduksiya olunur [1].

Xloroformla bir dəfəyə 97.5-98.2% volfram müxtəlifliqandlı kompleks (MLK) şəklində ekstraksiya olunur. Üzvi fazada volframın miqdarı ditiol ilə fotometrik üsulla, su fazada isə fərqə əsasən müəyyən edilmişdir. MLK əmələ gəlməsi və ekstraksiyası üçün optimal pH 4.0-6.8-dir. pH>7 olduqda MLK ekstraksiyası praktiki olaraq müşahidə edilmir. MLK-lərin əmələ gəlməsi və ekstraksiyası üçün optimal şərait $1.0 \cdot 10^{-3}$M HBTF və (2.4-2.6) $\cdot 10^{-3}$ M qatılıqda AF tələb olunur. MLK üç gün ərzində parçalanmır və ekstraksiyadan sonra-bir ay-

dan çox müddətə optiki sıxlıq dəyişmir. Maksimum optik sıxlıq 15 dəqiqə ərzində əldə edilir. MLK maksimum analitik siqnal 460-470 nm-də müşahidə olunur. Molar udma əmsalları $(2.4\text{-}2.6)\cdot10^4$-dür. MLK tərkibi tarazlığın yerdəyişməsi, Asmus və nisbi çıxım metodları ilə təyin edilmişdir [2]. W (V):HBTF:AF=1:2:2 tərkibli komplekslər əmələ gəlir. Nazarenko metodu ilə volframın (V) kompleks əmələgətirən ionu və HBTF molekulundan sıxışdırıb çıxardığı protonların sayı müəyyən edilmişdir.

Qələvi, qələvi-torpaq və nadir torpaq elementləri volframın təyininə mane olmur. İonların maneçiliyi pH-ı dəyişmək, pərdələyicilərin köməyi və ekstraksiya tətbiq etməklə aradan qaldırılmışdır.

Yeni işlənilmiş metodika polad nümunəsində volframın təyininə tətbiq edilmişdir.

**Ədəbiyyat**

1. Ə.Z.Zalov, O-Hidroksitiofenolların analitik kimyada tətbiqi, *ADPU*, 2022, 286 s.
2. М.И. Булатов, И.П. Калинкин, Практическое руководство по фотоколориметрическим и спектрофотометрическим методам анализа, *Химия*, 1986, 432 s.

## 1-FENIL-2,3-DİMETİLPİROZALON-5-AZO-4 PİROQALLOL REAGENTİ VƏ SETİLTRİMETİLAMMONİUM BROMİDİN GÜMÜŞ NANOHİSSƏCİKLƏRİ İLƏ ƏMƏLƏ GƏTİRDİYİ YENİ KOMPLEKSLƏRİNİN SİNTEZİ

**Aytən İmaməliyeva, Flora Hacıyeva, Famil Çiraqov**

*Bakı Dövlət Universiteti*
*aytenimamaliyeva@hotmail.com*

Gümüş (Ag) nanohissəcikləri son illər biodiaqnostika, vizualizasiya,zondlama, analitik təyində və sair sahələrdə potensial tətbiqi olduğu üçün intensiv şəkildə tədqiq olunmaqdadır [1,2]. Ag nanohissəcikləri qeyr-adi fiziki-kimyəvi xassələrə, o cümlədən ölçü, forma, məsafə, optiki xassələr və yüksək molyar ekstinksiya əmsalına malikdir [3].

Verilmiş işdə gümüş nanohissəcikləri, 1 fenil-2,3-dimetilpirozalon-5-azo-4-piroqallol reagenti (R) və setiltrimetilammonium bromid əsasında yeni komplekslərinin sintezi aparılmışdır. İlk öncə reagentin su-spirt qarışığında $10^{-3}$ M məhlulu hazırlanır. 50 ml $10^{-3}$ M reagentin üzərinə öncədən hazırlanmış 10 ml 0,01M Ag nanohissəciyi məhlulu əlavə edilərək 2 saat müddətində maqnit qarışdırıcıda qarışdırılır. Alınmış məhlulun rəngi tünd qırmızıdan qırmızıya doğru dəyişir və ikili kompleks yaranır. Daha sonra üçlü kompleks sintez etmək üçün 50 ml $10^{-3}$ M reaktivin üzərinə 10 ml 0,01 M Ag nanohissəciyi məhlulu əlavə edilib yenidən 2 saat müddətində qarışdırılır. 2 saat sonra isə üzərinə 5 ml 0,5 % -li STABr məhlulu əlavə edilib qarışdırılmağa davam etdirilir. Məhlunun rəngi qırmızıdan açıq qırmızıya dəyişir və üçlü kompleks əldə edilir. STABr gümüş nanohissəciklərinin verilmiş reaktivlə

kompleks əmələ gətirməsi zamanı kompleksinin davamlı olması üçün əlavə stabilləşdirici rolunu oynayır.

1-Fenil-2,3-dimetilpirozalon-5-azo-4 piroqallol reaktivi və STABr-la gümüş nanohissəciklərinin əmələ gətirdiyi ikili və üçlü komplekslərinin UB spektrləri tədqiq edilmişdir. Ədəbiyyatdan məlum olduğu kimi gümüş nanohissəciklərinin ölçülərindən asılı olaraq onların udma zolaqlarındakı intensivliyinin maksimumu 400-450 nm arası variasiya edir. Gümüş nanohissəciklərinin udma zolagındakı maksimal pik 416 nm dalğa uzunluğunda yerləşir. 1 fenil -2,3-dimetilpirozalon-5-azo-4 piroqallol reagentinin UB udma zolağında maksimumlar 234 nm, 271 nm, 354 nm, 386 nm, 422 nm dalğa uzunluğunda müşahidə olunur. Ag-R ikili kompleksinin UB spektrində maksimumlar 211 nm, 261 nm, 365 nm, 401 nm, 429 nm dalğa uzunluğunda müşahidə olunur. İkili kompleksin əmələ gəlməsi zamanı reagentə nəzərən batoxrom sürüşmə baş verir. STABr əlavə edilməsi zamani əmələ gələn üçlü kompleksin udma zolağındakı piklər reagentə nəzərən 207 nm, 237 nm, 276 nm-ə qədər sürüşür və bu zaman hipoxrom sürüşmə müşahidə olunur. Ag nanohissəciklərinin səthi aktiv maddə ilə örtülərək 1 fenil -2,3-dimetilpirozalon-5-azo-4 piroqallol reagenti ilə kompleks əmələ gətirməsi səthi plazmon rezonansı hesabına udma zolağında yeni piklər meydana gəlməsi və rəng dəyişikliyini əmələ gətirməsi ilə izah olunur.

**Ədəbiyyat**


1. M.F.Ali, M.A.Marzouq, B.I.Salman, et al., Utility of surface plasmon resonance response of silver nanoparticles for assay of Teicoplanin in human plasma using spectrofluorimetric technique, *Microchemical Journal*, 2019, 146, p. 187
2. A.Gangula, R.Podila, M.Ramakrishna, L.Karanam, C.Janardhana, A.M. Rao, Langmuir catalytic reduction of 4-nitrophenol using biogenic gold and silver nanoparticles derived from breynia rhamnoides, 2011, 27, p. 152
3. E.R.Essien, V.N.Atasie, E.U.Udobang, G.Umanu, Preparation of monodispersed and cytotoxic silver nanoparticles using Launaea taraxacifolia leaf extract, *Journal of Nanostructure in Chemistry*, 2019, 9, p. 259


# MODIFICATION OF POLYMER ADSORBENT WITH 4-AMINOBENZENESULPHONAMIDE AND ITS APPLICATION FOR DETERMINATION OF Fe (III) IONS IN STRAWBERRIES


**Esmira Eyyubova[1], Susan Mirzali[1], Sevinc Lahıjova[2], Khalil Nagiyev[1]**

*Baku State University[1]*
*Gazakh Department of Baku State University[2]*
*esmira024@yahoo.com*


Iron is one of the most important contaminnats, which is found in diffetent objects of natural and industrial type. When the iron content is more than 1 mg/l, the water becomes brown. In connection with the growth of

industrial production, there is an increase in the consumption of natural water and, as a result, an increase ingenerated wastewater. Various methods have been used for extraction of ferric ions from different objects. One of them is adsorption technique.

This work includes the investigation of the adsorption of ferric (III) ions by the synthetic polymer adsorbent [1,2]. Copolymer of styrene with maleic anhydride and 4-aminobenzenesulphonamide (S) is used to synthesize new adsorption product [3,4]. The structure of resulting product was investigated by IR spectroscopy on a Varian 3600 Fourier spectrometer in the region from 400 to 4000 $cm^{-1}$. Effect of various parameters, including the value of the optimal pH, the effect of ionic strength, the time necessary for establishing complete sorption equilibrium, the effect of the initial concentration of metal ions were studied during the practical work. Absorbances of the solutions were measured on photoelectrocalorimeter KFK-2 in a cuvette with a layer thickness l = 1 cm. Final concentrations of Fe (III) ions were measured with the 2,2` - ([1,1`-biphenyl]-4,4`-diilbis(diazen-2,1-diyl)bis(benzene-1,3,5-triol)$C_{18}H_{18}O_6N_4$ (R) as reagent at λ=490 nm. pH values are measured on the pH meter Ionomer I-130. Results have shown that the maximum adsorption capacity of the adsorbent with respect to ferric ions is 191.28 mg/g at pH = 5. Present work also includes studying of desorption process and $HNO_3$ shows the best desorption ability against Fe(III) ions. Resulting product was used for determination of Fe(III) ions in strawberries. The amount of Fe(III) ions in strawberries were calculated on the basis of previously built calibration curve. Results were compared with AAS data.

**References**

1. A.R.F.I. Purnaratrie.comparative adsorption of Fe(II) and Cd(II) ions on glutaraldehyde crosslinked chitosancoated cristobalite, *Oriental Journal of Chemistry*, 2015, 31, p. 2071
2. D.Rongdong, H.Yuan, K.Jiangang, W.Zuo, Adsorption of Fe(III) on smithsonite surfaces and implications for flotation, *Colloids and Surfaces A Physicochemical and Engineering Aspects*, 2017, 8(2), p. 542
3. E.J.Eyyubova, Kh.J.Nagiyev, F.M.Chiragov. Adsorption of Fe (III) ions on maleic anhydride styrene copolymer-N,N'-diphenylguanidine, *Research Journal of Chemistry and Environment*, 2019, 23(6), p. 41
4. E.J.Eyyubova, Kh.J.Nagiyev, F.M.Chiragov, Adsorption study of Fe (III) on modified adsorbent: adsorption isotherms and kinetics, *Сорбционные и хроматографические процессы*, 22(4), 2022, p. 433

# MİSİN (II) 2-HIDROKSİ-5-YODTİOFENOL VƏ HİDROFOB AMİNLƏ MÜXTƏLİFLİQANDLI KOMPLEKSİNİN SPEKTROFOTOMETRİK TƏDQİQİ

**Əli Zalov, Firuzə Salahova**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*zalov1966@mail.ru*

Müxtəlif obyektlərdə az miqdar misi ayırmaq və təyin etmək analitiklər qarşısında əsas məsələ kimi durur. Hazırkı iş Cu(II) 2-hidroksi-5-yodtiofenolla (HYTF) və aminofenollarla (AF) {2,6-bis-(N,N-dimetilaminometil)-4-bromfenol ($AF_1$), 2,6-bis-(N,N-dimetilaminometil)-4-xlorfenol ($AF_2$)} qarşılıqlı təsirinin tədqiqinə həsr olunmuşdur.

Cu(II) HYTF ilə qarşılıqlı təsirdə olduqda qeyri-polyar üzvi həlledicilərdə həll olmayan açıq qəhvəyi rəngli anion kompleks əmələ gəlir. Sistemə AF əlavə etdikdə anion kompleksi müxtəlifliqandlı kompleks (MLK) şəklində üzvi fazaya keçir [1]. Cu(II)-HYTF-$AF_1$ və Cu(II)-HYTF-$AF_2$ MLK əmələ gəlməsi və ekstraksiyası uyğun olaraq pH 4.5-5.9 və pH 4.4-5.3 də baş verir. Ən yaxşı ekstragent kimi xloroform müəyyən edilmişdir. Cu-HYT-$AF_1$ və Cu-HYT-$AF_2$ ilə kompleksin maksimum işıqudması müvafiq olaraq 540 və 530 nm dalğa uzunluğunda müşahidə olunur. MLK molyar işıqudma əmsalı (3.2-3.3)$\times 10^4$-ə bərabərdir. Maksimum optiki sıxlıq HYTF-nin $1.12\times 10^{-3}$ M, AF-nin isə $9.8\times 10^{-3}$ M qatılığında müşahidə olunur.

Kompleksin optiki sıxlığının maksimum qiymət alması reagentlərin yaxşı qarışdırılmasından 15 dəqiqə sonra baş verir və iki sutkadan çox müddətdə dəyişməz qalır. MLK-lərin tərkibi tarazlığın yerdəyişməsi, Asmusun düz xətt və nisbi çıxım metodları [2] ilə təyin edilmişdir: Co(II):HYTF:AF= 1:2:1.

Cu (II) təyininə kənar ionların təsiri öyrənilmiş və müəyyən edilmişdir ki, qələvi metalların, qələvi-torpaq və nadir torpaq elementlərinin böyük miqdarı misin təyininə mane olmur. Yeni işlənilmiş metodika təbii suda misin təyininə tətbiq edilmişdir.

## Ədəbiyyat

1. Ə.Z.Zalov, O-Hidroksitiofenolların analitik kimyada tətbiqi, *ADPU*, 2022, 286 s.
2. М.И.Булатов, И.П.Калинкин, Практическое руководство по фотоколориметрическим и спектрофотометрическим методам анализа, *Химия*, 1986, 432 с.

# DÖRDVALENTLİ RENİUMUN HALOGENİDLİ KOMPLEKSLƏRİNİN ORTONİTROANİLİNLƏ ($NO_2$-$C_6H_4$-$NH_3$) QARŞILIQLI TƏSİRİ HAQQINDA

**Ömər Gülalov[1], Gülnarə Əliyeva[1], Piranə Əliyeva[1]**
**Nuray Şıxaliyeva[1], Şahnaz Qəhrəmanova[2] , Şəbnəm Şamilli[3]**

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti[1],*
*Kataliz və Qeyri-üzvi Kimya İnstitutu[2]*
*Mikrobiologiya İnstitutu[3]*
*omar.gulalov@mail.ru*

Keçid elementlərinin müxtəlif üzvi donor əsaslarla kompleks birləşmələrinin sintezi və tədqiqi kimyanın aktual məsələlərindəndir. Çünki onlar aşağı temperaturlarda parçalandıqlarına görə istiyədavamlı, keçirici materiallar, fotoşablonlar və s. alınmasında bir başlanğıc maddə kimi istifadə oluna bilirlər. Eyni zamanda bu bu birləşmələr şəraitdən asılı olaraq dielektrik yaxud keçirici xassələrinə malik davamlı oksid və metallik örtüklərin alınmasında, bir sıra üzvi sintezlərdə, o cümlədən epoksidləşmə prosesində bir katalizator kimi istifadə olunurlar [1].

Müəyyənləşdirilmişdir ki, üzvi liqantların daxili sferaya daxil edilməsi cəhdləri sulu mühiddə müsbət nəticə verməmişdir və həmişə okso yaxud hidrokso komplekslərin əmələ gəlməsi ilə nəticələnmişdir. Həmin proses çox guman ki, bu birləşmələrin hidrolizə çoxmeyilli olmaları ilə əlaqədardır.

Dördvalentli reniumun müxtəlif aminlərlə və fosfinlərlə kompleks birləşmələrinin sintezi və tədqiqi haqqında ədəbiyyatda materialların kifayət qədər olmasına baxmayaraq, axtarış zamanı onun aromatik aminlərlə birləşmələri haqqında məlumatlar çox azdır [1,2].

Təqdim olunan tezisdə kaliumheksahalogenorenatın $K_2ReX_6$ (X= Br) ortonitroanilinlə ($NH_2$-$C_6H_4$-$NO_2$) qarşılıqlı təsiri öyrənilmiş və alınmış komplekslərin fiziki-kimyəvi xassələri tədqiq edilmişdir.

$$K_2ReX_6 + NH_2\text{-}C_6H_4\text{-}NO_2 \xrightarrow{HBr} ReBr_6(NO_2\text{-}C_6H_4\text{-}NH_3)_2 + KBr$$

Alınmış yeni tərkibli qəhvəyi rəngli bromid kompleksi $ReBr_6(NO_2$-$C_6H_4$-$NH_3)_2$ bromid və xlorid turşusunda, suda, izopropil spirtində yaxşı, qeyri-polyar həlledicilərdə isə pis həll olur.

Belə ki, alınmış ortonitro-ammonioum-heksabromorenatın atmosfer havasında termiki parçalanma prosesinin ümumi sxemi aşağıdaakı kimi təsviri ehtimal olunur.

$$ReBr_4(NO_2\text{-}C_6H_4\text{-}NH_3)_2 \xrightarrow[-2HBr]{110-215°C} ReBr_2(NO_2\text{-}C_6H_4\text{-}NH_3)_2$$

$$\xrightarrow[-(NO_2-C_6H_4-NH_3)_2]{215-340°C} ReBr_2 \xrightarrow[-Br_2]{340-565°C} Re \xrightarrow{hava, 565-1000°C} \text{Reniumun}$$

oksidləri (uçucudurlar)

Ortonitroanilinlə dördvalentli reniumun $ReBr_6(NO_2\text{-}C_6H_4NH_3)$ tərkibli yeni kompleks birləşmələri sintez edilmiş, termoqravimetrik və İQ spektroskopik metodlarla onların bərk fazada termiki çevrilmələri öyrənilmişdir. Müəyyənləşdirilmişdir ki, qızdırılma zamanı əvvəlcə anderson qruplaşması baş verir, sonra isə $Re^{+4}$ oksidləşmə-reduksiya prosesi nəticəsində metallik reniuma qədər reduksiya olunur.

Dördvalentli reniumun aminli birləşmələrinin sintezi və onların qarşılıqlı əlaqələrinin elmi əsasları araşdırılaraq mühüm elmi nəticələr işlənib hazırlanmışdır.

**Ədəbiyyat:**


1. Н.С.Османов, А.С.Котелникова, Т.А.Аббасова и др., Катализатор для эпоксидирования циклогексана, *А.с. СССР*, № 4737821, 1990
2. K.V.Koteqov, Z.A.Lobçiqova, Sys-dietilfenilfosfonium komplkesinin termik çevrilmələri haqqında, *Qeyri-üzvi kimya jurnalı*, 1981, 26(8), s. 2167


## ИЗУЧЕНИЕ РАЗНОЛИГАНДНЫХ КОМПЛЕКСОВ $M_0$(V) ФОТОМЕТРИЧЕСКИМ МЕТОДОМ

**Лейла Гасанова, Кенан Меликов, Гульшан Мугалова**

*Бакинский Государственный Университет*
*leyla.gasanovaa@mail.ru*

Молибден в настоящее время играет важную роль в решении задач народного хозяйства, благодаря своим ценным и своеобразным свойствам. Молибден является одним из важных легирующих компонентов, окислы молибдена применяются в качестве катализаторов в нефтехимической промышленности.

В связи с этим, встаёт вопрос аналитического контроля малых содержаний молибдена в различных объектах. Таким образом, весьма актуален вопрос разработки новых, более эффективных методов фотометрического определения молибдена. Для решения этой задачи весьма перспективен синтез новых органических реагентов, обладающих ценными аналитическими характеристиками.

В настоящей работе на основе пирогаллола были синтезированы азосоединения. Физико-химическими методами анализа установлен состав синтезированных реагентов.



Фотометрическим методом анализа установлены оптимальные условия комплексообразования. Установлено, что pH(опт)-4, λ(макс)-432 нм. Изучено влияние папаверина на комплексообразование молибдена. Установлено, что при влияние третьего компонента, оптимальные условия комплексообразования меняются по сравнению MoR, которые равны *pH* (опт)-3,0; λ(макс)448 нм.

Как видно из этих данных, оптимальные условия комплексообразования сдвигаются в кислую среду, а в центре поглощение наблюдается батохромный сдвиг. Установлена концентрация реагирующих компонентов. Молярные коэффициенты поглощения E(MoR)-1,2×$10^4$, E(MeR Pap)-1,6×$10^4$.

Установлено образование разнолигандного, бинарного комплексов Mo:R =1:2; Mo-R-Pap=1:2:2 и выявлено, что закон Бера соблюдается в интервале концентраций 0,4-0,6 мкг/мл; 0,2-0,24 мкг/мл. Изучено мешающее влияние на комплексообразование Mo(V).

**Литература**

1. Л.А. Алакаев, Р.Д.Улбашева, В.Н.Лузамыщев, Определение молибдена в промышленных сточных водах, *Химия Аналитических веществ и материалов*, 2000, с. 259
2. М.И.Булатов, И.П.Калинкин, Практическое руководство по фотометрическим и спектрофотометрическим методам анализа, *Химия*, 1973, 407 с

## PİROQALLOL ƏSASLI AZOBİRLƏŞMƏ İLƏ Cu(II)-İN FOTOMETRİK TƏYİNİ METODİKASININ İŞLƏNİLMƏSİ

**Elnarə İsmayilova[1], Polad Məmmədov[1], Vəsilə Nəsibova[2]**

**Cəmalə Nabiyeva[2] Xəlil Nagıyev[2]**

*Baki Dövlət Universiteti[1]*
*"METU"MMC[2]*
*1953elnara2000@gmail.com*

Texnika və texnologiyanın inkişafı, muasir səviyyəli sənaye obyektlərində maddələrin miqdarı təyinini tələb edir. Məlumdur ki, mis elektrotexnikada, radiotexnikada, kimya sənayesində geniş istifadə edilir. Ona görə misin fotometrik təyini üçün iqtisadi cəhətdən əlverişli, ekspres, yüksək həssaslıq və seçiciliyə malik metodikaların işlənilməsi aktual məsələdir.

Ədəbiyyatdan məlumdur ki, azobirləşmələr bir cox metalların fotometrik təyinində perspektivli üzvi reaktivlər hesab edilir [1]. Təqdim olunan işdədə piroqallol əsasında sintez edilmiş üzvi realtiv vasitəsilə Cu(II)-in fotometrik təyini metodikası işlənilmişdir. Azobirləşmə ədəbiyyatda məlum olan metodika əsasında sintez edilmişdir [2]. Sintez edilmiş 2,3,4-tetrahidroksi-4-xlorazoben-

zol (R) reagent ilə Cu(II)-in əmələgətirdiyi kompleks birləşmə spektrofotometrik metodla tətbiq olunmuşdur. Təcrübə nəticəsində müəyyən edilmişdir ki, optimal mühit pH=6, maksimal dalğa uzunluğu $\lambda_{max}$ -400 nm-dir. 1 ml $1 \cdot 10^{-3}$ M $Cu^{2+}$ ionunun kompleksin tərkibinə tam keçməsi üçün reagentin 2 ml $1 \cdot 10^{-3}$ M qatılığı tələb olunur. Starik-Barbanel izomolyar seriyalar metodu ilə kompleksin tərkibində Cu:R nisbəti öyrənilmiş və 1:2 olduğu müəyyən edilmişdir.

Astaxov metodu ilə kompleksəmələgəlmə reaksiyasında ayrılan protonların sayı təyin edilmişdir. Molyar udma əmsalının qiyməti hesablanmış ξ=3100 olduğu müəyyən edilmişdir. Kənar ionların və pərdələyicələrin kompleksəmələgəlmə reaksiyasına təsiri öyrənilmiş və müəyyən edilmişdir ki, bir çox ionlar yüksək qatılıqda təyinata mane olmurlar.

İşlənmiş fotometrik metodikayla təbii sə sənayə obyektlərində mis ionunu təyin etmək olar.

**Ədəbiyyat**


1. У.А.Гюллярли, Х.Д.Нагиев, Ф.М.Чырагов, Взаимодействие Zr(IV) с 2,3,4-триоксифенилазо-5-сульфонофтолином в присутствии ДАМ и его гомологов, *Журн. Аналитической химии*, 2006, 61(6), с. 604
2. А.И.Бусев, Синтез новых органических реагентов для неорганического анализа, *МГУ*, 1972, 245 с


## MOLİBDENİN BİTKİLƏRDƏ FOTOMETRİK TƏYİNİ


**Kəmalə İsgəndərova, Afət Hacıyeva**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*zalov1966@mail.ru*


Molibden bitkilərin atmosfer azotunun mənimsənilməsində əsas funksiyaya malikdir. Hazırkı işdə 2-hidroksi-5-yodotiofenol (HITP) və anilin (An) ilə molibden (VI) komplekslərinin spektrofometrik tədqiqinin nəticələri təqdim edilmişdir.

Xloroformla bir dəfəyə 98.4% Mo ekstraksiya olunur. Əmələ gəlmiş müxtəlif liqandlı kompleksin (MLK) optimal ekstraksiya şəraiti belədir: $1.3 \times 10^{-3}$ M HYTF, $1.2 \times 10^{-3}$ M An, pH 2.1-4.0. MLK 10 dəqiqə ərzində əmələ gəlir. Molyar işıqudma əmsalı 528 nm dalğa uzunluğunda $3.2 \times 10^{4}$ bərabərdir. Su fazasının optimal həcmi 20 ml, üzvi faza isə 5 ml-dir. Su fazasının həcminin 90 ml-ə qədər artırılması kompleksin optik xassəsinə təsir göstərmir. Tiofenollar turşu mühitdə reduksiyaedici xassəyə malikdir [1]. HYTF iştirakında molibdenin oksidləşmə dərəcəsinin dəyişməsini aydınlaşdırmaq üçün iki seriya təcrübə apardıq. Birinci seriyada Mo(VI), ikinci seriyada isə əlavə reduksiyaedicinin ($SnCI_2$ və ya KI) əlavə edilməsi ilə əldə edilən Mo(V)-dən istifadə etdik. Alınmış spektrlərin müqayisəsi göstərdi ki, $\lambda_{max}$ {Mo(VI)-HYTF-An} = $\lambda_{max}$ {Mo(V)-HYTF-An}. Bu fakt onu göstərir ki, MLK əmələ gələn zamanı Mo(VI)

reagentin özü ilə Mo(V)-ə reduksiya olunur. Bu fakt EPR spektrometriyası ilə də təsdiq edilmişdir.

MLK-in tərkibində komponentlərin molyar nisbəti tarazlığın yerdəyişməsi və düz xətt metodu [2] ilə müəyyən edilmişdir: (Mo(V): HYTF:An = 1:2:2). Molibdenin kompleks əmələ gətirən ion formasının $MoO(OH)^{2+}$ olduğu müəyyən edilmişdir. Ber qanununa tabeolma intervalı 0.2-16 mkq/ml-dir. Dərəcəli əyrinin tənliyi $y = 0.0383x + 0.068$ kimidir. Qələvi, qələvi torpaq kationları təyinata mane olmur.

Yeni işlənilmiş metodika Abşeron rayonundan götürülmüş torpaq nümunəsində (torpaq kəsiyinin dərinliyi 30 sm olmuşdur) molibdenin təyininə tətbiq edilmişdir. Alınmış nəticələrin dəqiqliyinə fotometrik olaraq rodanid əlavəetmə metodu ilə nəzarət edilmişdir.

**Ədəbiyyat**


1. Ə.Z.Zalov, O-Hidroksitiofenolların analitik kimyada tətbiqi, *ADPU*, 2022, s. 286
2. М.И. Булатов, И.П. Калинкин, Практическое руководство по фотоколориметрическим и спектрофотометрическим методам анализа, *Химия*, 1986, с.432


## ЭКСТРАКЦИОННО-ФОТОМЕТРИЧЕСКОЕ ОПРЕДЕЛЕНИЕ НИОБИЯ(V) С 2-ГИДРОКСИ-5-БРОМТИОФЕНОЛОМ И ГИДРОФОБНЫМИ АМИНАМИ

**Али Залов, Керим Кулиев**

*Азербайджанский государственный педагогический университет*
*zalov1966@mail.ru*

Настоящая работа посвящена изучению условий комплексообразования и экстракции ниобия(V) с 2-гидрокси-5-иодтиофенолом **(***ГИТФ***)** и аминофенолами (*АФ*) {2,6-бис-(N,N-диметиламинометил)-4-метилфенол ($АФ_1$),2,6-бис-( N,N-диметиламинометил)-4-бромфенол ($АФ_2$), 2,6-бис-(N,N-диметиламинометил)-4-хлорфенол ($АФ_3$)}.

ГИТФ с Nb образует окрашенный комплекс, нерастворимый в неполярных органических растворителях. При введении в систему АФ наблюдается экстракция анионного комплекса в органическую фазу в виде разнолигандного комплекса (*РЛК*). Все дальнейшие исследования провадили с хлороформом.

РЛК образуются в интервале рН 2.5-6.2 и течение 5-10 мин. Максимальное светопоглощение наблюдается при 430-450 нм. Комплексообразование сопровождается батохромным сдвигом на 145-165 нм. Молярные коэффиценты поглощения колеблятся в интервале $\varepsilon = (1.8\text{-}2.5)\times10^4$. Соотношение Nb(V):ГИТФ:Ам = 1:2:1.

Константу устойчивости комплекса рассчитывали по формуле:

$$\beta = \frac{C_k}{(C_{Me} - C_k)(C_R - nC_k)^n}; \quad \beta = (6,2 - 6,8) \times 10^7.$$

Для экстрактов сохраняется закон Бера в пределах концентрациях 0.6-18 мкг/мл. Уравнение градуировочных графиков: у = 0.0 + 0.009х, у = 0.01 + 0.005 х и у = 0.01 + 0.006 х соответственно для комплексов [Nb-ГИТФ-АФ$_1$), [Nb-ГИТФ-АФ$_2$) и [Nb-ГИТФ-АФ$_2$).

Разработанная методика определения ниобия применена к анализу стали.

**Литература**

1. М.И.Булатов, И.П.Калинкин, Практическое руководство по фотоколориметрическим и спектрофотометрическим методам анализа, *Химия*, 1986, с. 432

## СИНТЕЗ НАНОЧАСТИЦ НА ОСНОВЕ ОРГАНИЧЕСКИХ СОЕДИНЕНИЙ И ИХ ПРИМЕНЕНИЕ В СПЕКТРОФОТОМЕТРИЧЕСКОМ АНАЛИЗЕ

**Famil Chiraqov, Polad Mammadov, Tama Gamzaeva**

*Baku State University*
*poladazer@gmail.com*

Наноматериалы- это инженерные материалы, размеры которых составляют 100 нм или меньше [1].

Наночастицы можно получить самыми разными способами. Обычно используется: физическое и химическое осаждение из паровой фазы, методы коллоидной химии, методы механического сплавления, механическое измельчение, методы на основе микроэмульсий и золь-гель методы [2]. Органические наночастицы находят множество важных применений в биоизображении и наномедицине [3].

Для наших исследований был выбран метод микроэмульсий для получения наночастиц, так как другие методы не могут быть применены для производства органических наноматериаллов из-за чрезвычайно высоких температур, необходимых для обработки. В случае микроэмульсий, основным недостатком является время выдержки в несколько часов, необходимое для полной обработки частиц, что может вызвать коалесценцию, т.е. слипание частиц и дальнейший и рост. Также возможна и агломерация наночастиц, которая может быть обратимой или необратимой в зависимости от используемой технологии и обрабатываемого материала [4].

Принцип применяемого метода очень прост. Использут два растворимых в воде, но не растворимых в масле реагентов. Один из реагентов растворяется в микрокаплях воды микроэмульсии «вода в масле», а второй в микрокаплях воды другой микроэмульсии «вода в масле». Затем

две микроэмульсии смешиваются. Вследствие очень малого размера капельки принимают участие в броуновском движении. Они непрерывно сталкиваются, образуя димеры и другие агрегаты. Такие агрегаты имеют короткое время жизни и быстро распадаются на капли первоначального размера [5].

Микроэмульсия типа «вода в масле» представляет собой термодинамически стабильную микрогетерегенную систему, состоящую из обратных мицелл (наноразмерных капель воды, покрытых моносолоем ПАВ) в неполярной жидкости (например, масло) рис.1. В качестве неполярной жидкости можно использовать диоксид углерода в сверхкритическом состоянии. ПАВ используется бис(2-этилгексил)сульфосукцинат натрия (aerosol OT, AOT).




Рис.1. Расположение молекул ПАВ в МЭ прямого типа (А) и обратного типа.

При низких температурах растворимость ПАВ может быть очень маленькой и недостаточной для образования мицелл, но резко возрастает при увеличении температуры.

Получение наночастиц органических элементов связано с технологическими возможностями в области органической и аналитической химии. Возможность создания новых материалов с уникальными оптическими, электрическими, механическими характеристиками, сенсорными и каталитическими свойствами. Но пока возможность получения многих наночастиц в полной мере не изучена. Для успешного их развития необходимо исслеждовать новые высокоточные спектрофотометрические методы анализа с применением органических наночастиц.

**Литература**

1. L.Rui, H.Cao and al., Functional organic nanoparticles for photodynamic therapy, *Chinese Chemical Letters*, 2016, 27(8), p. 27
2. K.M.Goshen, Organic nanoparticles from microemulsions: Formation and applications, *Current Opinion in Colloid & Interface Science*, 2022, p. 17
3. W.Cheng and all, Organic nanoparticles: Mechanism of electron transfer to indigo nanoparticles, *European Chemical Societies Publishing*, 2022, p. 30
4. E.Torino, I.D.Marco, E.Revercho, Organic nanoparticles recovery in supercritical antisolvent precipitation, *The Journal of Supercritical Fluids*, 2020, p. 55
5. С.А.Товстун, В.Ф.Разумов, Получение наночастиц в обратных микроэмульсиях, Успехи химии, 2011, 80(11), с. 996

# PALLADİUM(II) İONUNUN NN/-DİFENİLQUANİDİN FRAQMENTLİ SİNTETİK SORBENTRLƏ SORBSİYA İZOTERMİNİN TƏDQİQİ

**Ülviyyə Əbilova[1], Esmira Həşimova[2], Cəbrayıl Mirzai[1], Famil Çıraqov[1]**

*Bakı Dövlət Universiteti[1]*
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti[2]*
*esmira.hashimova@mail.ru*

Palladium (II) ionunun sorbsiyasının fazalararası qarşılıqlı təsirini daha yaxşı tədqiq etmək üçün multitəbəqəli sorbsiyanı xarakterizə edən Freyndlix və monomolekulyar Ləngmür adsorbsiya izoterm modellərindən istifadə olunmuşdur. Sorbentlərin palladium (II) ionu ilə sorbsiyasından alınmış nəticələrə əsasən Freyndlix və Ləngimür sorbsiya izotermləri qurulmuş, izotermlərin izotermik parametrləri hesablanmışdır.

Pd(II) ionun NN/ difenilquanidin fraqmentli sintetik sorbentlə sorbsiyasının Freyndlix izotermi qrafiki şəkil 1-də göstərilmişdir.




***Şəkil 1.*** Pd(II) ionun NN/ difenilquanidin fraqmentli sintetik sorbentlə sorbsiyasının Freyndlix izotermi

Ləngimür modeli energetik cəhətdən ekvivalent adsorbsiya mərkəzlərinə malik adsorbentdə monomolekulyar adsorbsiya prosesləri üçün ödənilir. Qrafikdən göründüyü kimi Ləngmür əyrisi daha stabildir. Ləngimür modeli monomolekulyar sorbsiyanı xarakterizə edir. Sorbsiya təcrübəsindən alınan nəticələr əsasında NN/difenilquanidin amin fraqmentli sorbentə görə Freyndlix və Ləngimür izotermlərinin izotermik parametrləri hesablanmışdır (cədvəl 1,2). Freyndlix izoterminin hesablanmış izotermik parametrlərindən görünür ki, sorbsiyanın izotermini bu modelə görə təsvir etmək mümkündür (Şəkil 2).




***Şəkil 2.*** Pd(II)ionunun NN/ difenilquanidin fraqmentli sintetik sorbentlə sorbsiyasının Ləngimür izotermi

***Cədvəl 1.*** Freyndlix izoterminin hesablanmış izotermik parametrləri

| Korelyasiya əmsalı, $R^2$ | Freyndlix sabitinin tərs qiyməti, 1/n | Freyndlix sabiti, $lnK_F$ | n | Multitəbəqəli sorbsiya tutumu,K (mq/q) |
|---|---|---|---|---|
| 0,8475 | 0,3487 | 3,78 | 2,67 | 35,78 |

Lakin sorbsiya tutumunun qiymətinə əsasən multitəbəqəli sorbsiyanın miqdarı çox aşağıdır. Deməli Pd(II) ionunun sintez etdiyimiz polimer sorbentlə sorbsiyası kimyəvi qüvvələr hesabına baş verir. Sorbsiya monomolekulyar olduğuna görə sorbsiya mərkəzinə bir Pd(II) ionu daxil olduqdan sonra ikinci metal ionu sorbsiya olunmur.

***Cədvəl 2.*** Ləngimür izoterminin hesablanmış izotermik parametrləri

| Korelyasiya sabiti, $R^2$ | Monomolekulyar Sorbsiya tutumunun tərs qiyməti,$1/Q_m$ | $1/Q_m \cdot K_L$ | Monomolekulyar sorbsiya tutumu, $Q_m$ mq/q | Ləngimür sabiti, $K_L$,mq/l |
|---|---|---|---|---|
| 0,9951 | 0,0021 | 0,01225 | 487 | 0,105 |

Deyilənləri nəzərə alaraq, Ləngimür izoterminin hesablanmış izotermik parametrlərinə əsasən də demək olar ki, Pd(II)ionunun polimer sorbent üzərində sorbsiyasını Ləngimür modeli ilə ifadə etmək daha məqsədəuyğundur.

**Ədəbiyyat**

1. А.С.Холмогорова, Е.А.Свинцова, Л.К.Неудачина, Е.Л.Лебедева, И.С. Пузырев, Потенциометрическое определение палладия(II) в водных растворах с применением модифицированного угольно-пастового электрода, *Журнал аналитической химии*, 2020, 75(5), с. 466

## Mn (II), Zn(II) və Ni (II) MÜXTƏLİF LIQANDLARLA (L[1]-DİFENİLKARBAZON VƏ DİMETİLSULFOKSİD) KOMPLEKS BİRLƏŞMƏLƏRİNİN SINTEZI VƏ ANTİGÖBƏLƏK XASSƏSİNİN ÖYRƏNİLMƏSİ

**Şahnaz Qəhrəmanova[1], DilqəmTağıyev[1],**
**Pənah Muradov [2], Şəbnəm Şamilli [2]**

*Kataliz və Qeyri-üzvi Kimya İnstitutu[1]*
Mikrobiologiya İnstitutu[2]
*sahnaz.gahramanova@gmail.com*

Keçid metallarının eyni vaxtda bir neçə donor atomunu əhatə edən polidentat liqandlar ilə kompleks birləşmələrinin kimyası təkcə nəzəri deyil, həm də praktiki maraq kəsb edir. Çünki belə komplekslərin qeyri-adi xassələri

ümumilikdə koordinasiya kimyasının inkişafına yeni təkan verir. Kompleks birləşmələr arasında biometallar əsasında alınan komplekslər xüsusi yer tutur. Bu, onların bir çox biokimyəvi proseslərdə mühüm rol oynaması və buna görə də bitkiçilikdə, heyvandarlıqda və farmakologiyada geniş istifadə edilməsi ilə bağlıdır. Öz növbəsində metal ionlarının tərkibində müxtəlif donor mərkəzləri olan üzvi liqandlarla koordinasiya birləşmələrinin xassələrinin və strukturunun öyrənilməsi onların fiziki-kimyəvi tədqiqinə yeni yanaşmaların işlənib hazırlanmasında mühüm amil olmuşdur. Digər tərəfdən, bir çox keçid elementlərinin, o cümlədən manqan, sink və nikelin kompleks birləşmələri əhəmiyyətli xassələrə malikdir [1, 2].

İşdə Mn (II), Zn(II) və Ni(II) müxtəlif üzvi liqandlarla ($L^1$difenilkarbazonvə$L^2$dimetilsulfoksidlə)kompleksbirləşmələrinn $[MnL^1{}_2L^2{}_2]$,$[NiL^1{}_2L^2{}_2]$,$[ZnL^1{}_2L^2{}_2]$ sintezi və antifungal xassələrinin öyrənilməsi üsullarını təqdim edirik.

Sintezolunmuş $[MnL^1{}_2L^2{}_2]$,$[NiL^1{}_2L^2{}_2]$,$[ZnL^1{}_2L^2{}_2]$ müxtəlif liqandlı komplekslərin termiki davamlılığı termoqravimetrik analiz metodu vasitəsi ilə öyrənilmişdir. Müəyyən edilmişdir ki, kompleksin parçalanması (250°C) baş verir.

Rentgenoqravik analiz metodu ilə müəyyən edilmişdir ki, kompleks birləşələr individual kristallik maddələrdir. Komplekslə liqandın koordinasiya xarakterini müəyyən etmək üçün İQ-spektral analiz metodundan istifadə edilmişdir. Müəyyən olunmuşdur ki, liqandla kompleks ion rabitəsi hesabına koordinasiya olunur.

Komplekslərdən $[ML^1{}_2L^2{}_2]$ (M=Ni,Mn,Zn***)*** istifadə olunaraq *Candida* göbələklərinin antifungal xassəsi öyrənilmişdir. Test kulturasına qarşı antimikrob aktivliyi ilə bağlı nəticələr cədvəl 1 də verilib. Ni, Mn, Zn liqand komplekslərin antimikrob aktivliyi kontrolda müvafiq olaraq 4.2, 3.4, 3.6 dəfə çox olmuşdur. Maksimal antimikrob aktivlik Mn liqand kompleksində müşahidə edilmişdir (cədvəl 1).

***Cədvəl 1***. Antimikrob aktivlik

| № | Test kultura | $L^1$difenilkarbazon və$L^2$dimetilsulfoksid | Lizis zonasının diametri mm |
|---|---|---|---|
| 1 | Candida | (Ni) | 15 |
| 2 | Candida | (Mn) | 16 |
| 3 | Candida | (Zn) | 13 |
| 4 | Candida | kontrol (DMSO) | 4.0 |

Sintez olunmuş maddələrin bir neçəsi bioloji aktivlik xüsusiyyətlərinə görə toksiki təsirlərə malik göbələklər (Aspergillus və Penicillium) üzərində də bioloji testdən keçrilmişdir.

## Ədəbiyyat

1. Sh.İ.Gahramanova, E.A.Guliyeva, G.Z. Suleymanov, I.V.Azizov, Influence newly syntesized manganese complexes with amino asids on morphophysiological chracteristics, *American International Journal of Contemporary Research*, 2014, 4, p. 58

2. Sh.I.Gahramanova, F.F.Dzhalaladdinov, M.K.Munshieva, T.O.Gakhramanov and et al., Synthesis and study of complex compounds of divalent manganese, copper, cobalt and zinc with tryptophan and their biological activity, *International Journal of Chemical Sciences*, 2018, 3, 16, p. 138

## 2,5-DIHİDROKSİTİOFENOL VƏ AMİNLƏRİLƏ Nİ(II) KOMPLEKSLƏRİNİN SPEKTROSKOPİK TƏDQİQİ

**Əli Zalov[1], Şəfa Məmmədova[1], Elman Şirinov[2]**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti[1]*
*Mingəçevir Dövlət Universiteti[2]*
*zalov1966@mail.ru*

Nikel (II) 2,5-dihidroksitiofenol (*TF*) və hidrofob aminlər (Am) {2-(N,N-dimetilaminometil)-4-metilfenol ($AF_1$) və 2-(N,N-dimetilaminometil)-4-bromofenol ($AF_2$)} ilə pH 5.3-7.8-də müxtəlifliqandlı komplekslər (*MLK*) əmələ gətirir [1]. Xloroformla bir dəfəyə 97.4-97.7%-i Ni (II) ekstraksiya olunur. Nikel MLK əmələ gəlməsi və ekstraksiyası üçün məhlulların aşağıdakı qatılıqları tələb olunur: $8.6 \cdot 10^{-4}$ M TF və $6.16 \cdot 10^{-4}$ M Am. $AF_1$ və $AF_2$ MLK-ləri müvafiq olaraq 440 ($\varepsilon = 2.23 \cdot 10^4$) və 451 nm ($\varepsilon = 2.65 \cdot 10^4$)-dir. MLK-in ekstraksiyası zamanı tarazlıq 3 dəqiqə ərzində yaranır. Ekstraksiyadan sonar optiki sıxlıq 10 gün sabit qalır. Komplekslərin tərkibində komponentlərin nisbəti tarazlığın yerdəyişməsi və nisbi üsulları [2] ilə müəyyən edilmişdir: Ni (II):TF:Am =1:2:2. Kompleks əmələ gətirən ion forması $Ni^{2+}$-dır. TF-nin spektrində müşahidə olunan 2580 $sm^{-1}$-də zolaqların yoxa çıxması və Ni(II)-TF-$AF_1$ udma zolaqlarının spektrin aşağı tezliklərə doğru yerdəyişməsi o deməkdir ki, kompleksin əmələ gəlməsində-SH qrupları iştirak edir. -OH qrupunun 3200-3600 $sm^{-1}$ sahəsində maksimum 3460 $sm^{-1}$ olan udma zolaqlarının intensivliyin azalması bu qrupun koordinasiya rabitəsinin yaranmasında iştirak etdiyini göstərir. MLK termiki parçalanması üç mərhələdə baş verir: 65-13°C-də su buxarlanır, 340-520°C-də TF, 630-650°C-də isə Am. Termolizinin son məhsulu NiO-dur.

Ber qanununa tabeolma 0.2-18 mkq/ml nikelin qatılığında müşahidə olunur. V(IV), Cu(II), Mo(VI), Fe(II), Pt(II), Pd(II), Ti(IV) və Co(II) ionları nikelin təyininə mane olur. Alınmış nəticələr əsasında müxtəlif obyektlərdə nikelin təyini üçün yeni ekstraksiya-spektrofotometrik üsullar işlənib hazırlanmışdır.

### Ədəbiyyat

1. Ə.Z.Zalov, O-Hidroksitiofenolların analitik kimyada tətbiqi, *ADPU*, 2022, s. 286.
2. М.И. Булатов, И.П. Калинкин, Практическое руководство по фотоколориметрическим и спектрофотометрическим методам анализа, *Химия*, 1986, с.432

# DİMEDON ƏSASLI AZOBİRLƏŞMƏNİN DƏMİR (III) İLƏ ƏMƏLƏ GƏTİRDİYİ MÜXTƏLİF LİQANDLI KOMPLEKS BİRLƏŞMƏSİNİN TƏDQİQİ

**Nuru Mustafalı, Xəlil Nağıyev, Kənan Ağayev, Rizvan Abdullayev**

*Bakı Dövlət Universiteti*
*nurumustafali@gmail.com*

β-Diketonlar və onların törəmələri analitik kimyada geniş tətbiq sahəsinə malikdir. Onlardan metalların fotometrik təyinində və qatılaşdırılmasında istifadə olunur. Ədəbiyyatda məlumdur ki, müxtəlif liqand-lı komplekslərin analitik parametrləri binar komplekslərə nisbətən yüksək olur. Təqdim olunan işdə dimedon əsasında sintez edilmiş 2-[2-(1,5-dimetil-3-okso-2-fenil-2,3-dihidro-1H-pirazol-4-il)diazen-1-il]-5,5-dimetiltsikloheksan-1,3-dion reagentinin dəmirlə əmələ gətirdiyi kompleks birləşməyə fenantrolinin (fen.), batofenantrolinin (batfen.) təsiri öyrənilmişdir.



Binar və müxtəlifliqandlı kompleks birləşmələrin əmələ gəlməsinin pH-dan asılılığı öyrənilmişdir. Təcrübə nəticəsində müəyyən edilmişdir ki, binar kompleksdə $pH_{opt}$=5, müxtəlifliqandlı komp-lekslərdə $pH_{opt}$=4 (fen.), $pH_{opt}$=4 (batfen). Göründüyü kimi, üçüncü komponentin təsirindən müxtəlif liqandlı komleks birləşmələrin optimal şəraiti turş mühitə doğru sürüşür. Binar komplekslərin maksimal işıq udması λ=400 nm, müxtəlifliqandlı komplekslərin isə λ=420 nm (fen.), 425 nm (batfen.), üçüncü komponentlərin təsirindən işıq udmaların maksimum qiymətlərində batoxrom sürüşmə müşahidə olunur. Reagentin və üçüncü komponentlərin kompleks əmələ gəlməyə təsiri öyrənilmişdir. Molyar udma əmsalının qiyməti ε=3500 (Fe-R), ε=4300 (Fe-R-fen.), ε=4800 (Fe-R-batfen.) olaraq hesablanmışdır.

Dərəcəli qrafikə tabeçilik intervalı 1.64-3.14 mkq/ml (Fe-R), 1.12-2.24 mkq/ml (Fe-R-fen.), 1.12-2.24 (Fe-R-batfen.) olaraq hesab-lanmışdır. Optimal şəraitdə binar və müxtəlifliqandlı komplekslərin tərkibində komponentlərin nisbəti Fe:R=1:2, Fe:R:fen.=1:2:2, Fe:R:batfen.=1:2:2 olaraq təyin edilmişdir.

Müxtəlif ionların kompleks əmələ gəlməyə mane olmadığı müəyyən edilmişdir.

## Ədəbiyyat

1. E.Sawicki, R.A.Carnes, Spectrophotofluorimetric determination of aldehydes with dimedone and other reagents, *Microchimica Acta*, 1968, p. 148
2. K.J.Nelson, C.Klomsiri, S.G.Codreanu, L.Soito, D.C.Liebler, L.C.Rogers, L.W.Daniel, L.B.Poole, Use of dimedone-based chemical probes for sulfenic acid detection:

methods to visualize and identify labeled proteins, *Methods in enzymology*, 2010, 473, p. 95

3. D.Sharma, M.Kumar, P.Das, Application of cyclohexane-1,3-diones for six-membered oxygen-containing heterocycles synthesis. *Bioorganic Chemistry* 2021, 107, p. 104559

## PALLADİUMUN QARIŞIQLİQANDLI ÇOXNÜVƏLİ KOMPLEKSLƏRİ

**Xudayar Həsənov[1,3], Cəbrayıl Mirzai[2],**
**Nailə Quliyeva[3], Şimid Qasımov[1]**

*Azərbaycan Tibb Universiteti, ETM[1]*
*Bakı Dövlət Universiteti[2]*
*Qərbi Kaspi Universiteti[3]*
*x.qasanov58@gmail.com*

Tibbi baxımdan tərkibində ayrı-ayrılıqda kükürd-amin, kükürd-hidroksil qrupları olan liqandlara böyük maraq onların bioloji sistemlərə məxsus funksional qruplar saxlaması ilə bağlıdır. Digər tərəfdən belə liqandların palladium duzları ilə məqsədyönlü sintezini apararaq müxtəlif davamlılığa malik helat koordinasion sferalı kompleks birləşmələr almaq mümkündür [1].

Tədqiqat obyekti olaraq tərkibində kükürd-azot, kükürd-oksigen donor atomları saxlayan liqandlar kimi merkaptoetilamin $HS–CH_2CH_2NH_2$ və merkaptoetanol $–HSCH_2CH_2OH$ götürülmüşdür. Bu liqandlar geniş təsir xassələrinə malik olduqlarına görə tibbdə bəzi problemləri həll etmək məqsədilə palladiumla yüksək davamlı, suda və bioloji mayelərdə həll olan kompleks birləşmələr əmələ gətirmələri mümkündür. Təqdim olunan işdə palladiumun qeyd olunan liqandlarla optimal şərait seçilərək üçnüvəli qarışıqliqandlı kompleksləri sintez edilərək tərkib və qruluşları müasir fiziki-kimyəvi üsullsrla tədqiq edilmişdir.

Sintezin gedişi zamanı götürülən stexiometrik nisbət, mühit, həlledici, temperatur və digər faktorlar tənzimlənərək aşağıdakı tərkibdə yüksək çıxımla (~85%) təmiz kompleks birləşmələr $[Pt_3(SCH_2CH_2NH_2)_2(SCH_2CH_2OH)_2(NH_3)_2Cl_2]$ və $[Pt_3(SCH_2CH_2NH_2)_2(SCH_2CH_2OH)_2Cl_2]$ alınmışdır.

Liqandlara məxsus olan – SH funksional qruplar İQ-spektrdə 2568 və 2562 $sm^{-1}$ müvafiq udulma zolaqları ilə xarakterizə olunurlar. Bu funksional qruplara məxsus olan udulma zolaqları sintez edilmiş komplekslərin İQ-spektrlərində qeydə alınmamışdır. Bu isə HS- qrupunun deprotonlaşaraq mərkəzi atomla $\nu_{Pd\text{-}S}$ valent rabitəsi yaratmasını göstərir. Kompleksin İQ-spektrində 288, 294 və 330 $sm^{-1}$ udulma zolaqları qeydə alınmışdır. Birinci iki udulma zolağı körpü vəziyyətində olan Pd–S valent rabitəsinə aid edilmişdir. Digər 330 $sm^{-1}$ güclü udulma zolağı isə terminal Pd-S rabitəsinə aid edilmişdir. Hər iki kompleksin İQ-spektrində qeydə alınan 284, 286, 290 və 292 $sm^{-1}$ udulma zolaqlarından birinci ikisi müvafiq olaraq Pd–S körpü vəziyyətində ra-

bitə yaradan merkaptoetanol, digər ikisi isə merkaptoetilamin Pd–S valent rabitələrinə aid edilmişdir. İQS-də aydın nəzərə çarpan digər çıxıntısız 342 və 328 $sm^{-1}$ udulma zolaqları isə terminal Pd-Cl valent rabitəsinə məxsus olduğu qeyd edilmişdir. Üç ədəd Pd–S rabitəsinə uyğun qismən aşağı zonaya sürüşmüş udulma zolaqları kompleksdaxili qabarma və ya çökmə yəni onun yastı müstəvi quruluşunun pozilmasını göstərir [2].

Beləliklə, merkaptoetanol ($SHCH_2CH_2OH$) ancaq kükürd atomu ilə monodentatlı, merkaptoetilamin ($HSCH_2CH_2NH_2$) isə həm mono-, həm də bidentatlı koordinasiya edərək beşüzvlü metalhelat tsikli əmələ gətirir. Üçnüvəli palladium komplekslərində liqandların kükürd atomu metallar arasında körpü rolunu oynayırlar. Merkaptoetanolun hidroksil qrupu koordinasiyada iştirak etmir.

Aparılmış ilkin bioloji tədqiqatlar hər iki kompleksin yüksək radioprotektor xassəyə malik olduqlarını göstərdi.

**Ədəbiyyat**

1. S.B.Deepthi, P.Ramech, R.Trivedi, Carbohydrate triazole tethered 2-pyridyl-benzimidazole ligands: Synthesis of their palladium (II) complexes and antimicrobial activities, *İnorganica Chimica Acta*. 2015, 435, p. 200
2. M.Z.Ghdhayeb, R.A.Haque, S.Budagumoi, Mono- and bis-N-heterocyclic carbene silver(I) and palladium(II) complexes: Synthesis, characterization, crystal structure and in vitro anticancer studies, *Polyhedron*, 2017, 121, p. 222

## ЭТАПНЫЙ ГИДРОЛИЗ КОМПЛЕКСА ПЛАТИНЫ СМЕКСИДОЛОМ

**Худаяр Гасанов[1,2], Наиля Кулиева[2],**
**Асмет Азизова[1], Шимид Касумов[1]**

*Азербайджанский Медицинский Университет НИЦ[1]*
*Западный Каспийский Университет[2]*
*x.qasanov58@gmail.com*

По своему содержанию лекарственная защита при действии ионизирующей радиации многообразна и включает препараты различных химических групп. Например, известны, серосодержащие радиопротекторы, действующие непосредственно на клетки мишени или уменьшающие радиационные поражения организма за счет гемической, тканевой или циркулярной гипоксии [1].

Однако известные радиопротекторы характеризуются высокой токсичностью, что значительно ограничивает их использование и исключает возможность частого применения. Нами синтезированы и исследованы радиопротекторные свойства нового класса- платина и мексидолсодержащего комплекса состава- $(C_8H_{12}ON)_2$ $[PtCl_4]$.

При изучении соединений платины с протонированным азотсодержащим катионом- мексидолом, стало известно, что наряду с процессом гидролиза $[PtCl_4]^{2-}$ происходит депротонирование катиона с последующей возможной координацией образовавшегося в растворе нейтрального амина сплатиной (перегруппировка Андерсена) по схеме:

$$(LH)_n[Pt(Cl_4)] \xrightarrow{H_2O} nH^+ + [PtL_nCl_{4-m}(H_2O)_m] + mCl^- \xrightarrow{H_2O}$$

$$\rightarrow [PtL_2(OH)_2] + 4H^+ + 4Cl^-$$

Суммарный процесс гидролиза мексидазола сопровождается изменением pH в зависимости от концентрации раствора и времени выдержки. Так, pH водных растворов мексидазола при его концентрации $C=4\cdot10^{-4}$M изменяется от 4,0 до 3,24 (интервал 10 мин. 24 ч) с выпадением при этом осадка гидроксокомплекса-платины. В 0,005 М NaCl pH растворов изменяется от 4,5 до 3,46, т.е. и в этих условиях преимущественным является процесс образования аква- и гидроксокомплексов. pH растворов мексидазола в 0,15 М NaCl взависимости от изменения его концентрации в растворе от $4\cdot10^{-4}$ до $4\cdot10^{-6}$ М меняется от 3,95 до 6,25. В процессе гидролиза в водных растворах $[PtCl_4]^{2-}$ трансформируется в $[PtCl_3H_2O]^-$, $[PtCl_2(H_2O)_2]$, $[PtCl(H_2O)_3]^+$, $[Pt(H_2O)_4]^{2+}$.

Известно, что для соединений платины характерна большая лабильность в процессах замещения ионов хлора на другие лиганды по сравнению с соответствующими соединениями палладия. Скорость замещения ионов хлора в комплексах платины в 105 раз выше, чем в соединениях палладия. Замещение ионов хлора на бром еще больше ускоряет этот процесс [2]. Вместе с тем использование в качестве катиона протонированных азотосодержащих лигандов, в частности мексидазола, несколько затрудняет процесс гидролиза, поскольку вместо ионного взаимодействия, как в $K_2[PtCl_4]$, происходит образование водородных связей ионов хлора в $[PtCl_4]^{2-}$ с протонированным атомом азота лиганда [3].

**Литература**


1. V.Maliev, D.Popov, R.C.Casey, J.A.Jones, Mechanisms of action for an anti-radiation vaccine in reducing thebiological impact of high dose and dose-rate, low-linear energy transfer radiation exposure, *Rad. Biol. Radioecol.*, 2007, 47, 3. c. 286
2. C.Biswas, M.Zhu, L.Lu, A palladium(II) complex: Synthesis, structure, characterization, electrochemical behavior, thermal aspects, BVS calculation and antimicrobial activity, *Polyhedron*, 2013. 56, p. 211
3. S.Tetteh, D.K.Dodgo, Cytotoxicity, antioxidant and gluthatione S- transferaze inhibitory activity of palladium (II) chloride complexes bearing nucleobase ligands, *Ttansition Met. Chem.*, 2014, 39, p. 667

# *β*-DIKETONLAR ƏSASINDA AZOBİRLƏŞMƏLƏRİN SİNTEZİ VƏ ONLARIN METALLARLA ƏMƏLƏ GƏTİRDİYİ KOMPLEKS BİRLƏŞMƏLƏRİN TƏDQİQİ

**Kənan Ağayev, Cahan İsmayılova, Minayə Məmmədova, Nuru Mustafalı**

*Bakı Dövlət Universiteti*
*kenan.agayev.02@mail.ru*

Para amin benzoy turşusu tərkibində karboksil və amin qruplarını saxlayan bifunksional bioloji aktiv maddədir. Bu turşu 290-320 nm diapazonunda ultrabənövşəyi şüaları udduğuna görə ondan bu şüalardan



qorunmaq üçün istifadə olunur. Para amin benzoy turşusundan pestisid kimi istifadə olunub, lakin bu sahənin inkişafı ilə alternativ pedtisidlərin yaranması, para amin benzoy turşusunun bu sahədə istifadəsi məhdud-laşmışdır. Bu turşudan azo boyaların alınmasında başlanğıc maddə kimi, makromolekulları əlaqələndirən agent kimi də tətbiq tapmışdır. Bu turşunun müxtəlif törmələrində bioloji aktivlik müşahidə olunmuşdur. Məlum 12 mindən çox dərmanın 1.5 faizində para amin benzoy turşusu fraqmentinə rast gəlinir. Benzokain, tetrakain, aminopterin, metotrexat, prokain, prokainamid, novakain, balsalazid və s. dərman preparatları para amin benzoy turşusu fraqmentini özündə saxlayır. Para amin benzoy turşusu törəmələrində anti-kanser, anti-oksidant, anti-bakterial və s. xassələr müşahidə olunub. Yuxarıda sadalananlara əsasən para amin benzoy turşusunun yeni törəmələrinin və onların metallarla kompleks birləşmələrinin tədqiqi aktual məsələlərdəndir.

Təqdim olunan işdə asetilaseton, benzoilaseton və tenoiltriflüoraseton əsasında aşağıda göstərilən azobirləşmələr sintez edilmişdir. Bu birləşmələrin təmizliyi kağız xromatoqrafik analiz metodu ilə yoxla-nılmışdır, quruluşları isə İQ və NMR spektroskopiyası ilə tədqiq olun-muşdur.

Bu reaktivlərin pH-metrik titrləmə metodu ilə dissosiasiya sabitlərinin qiymətləri müəyyən edilmiş və bir sıra metallar ilə əmələ gətirdikləri kompleks birləşmələrin davamlılıq sabitlərinin qiymətləri hesablanmışdır. Sintez edilmiş bu reagentlər $Fe^{3+}$, $Cu^{2+}$ ionları ilə rəngli kompleks birləşmələr əmələ gətirir. Bu rəngli kompleks birləşmələr spektrofotometrik metodla tədqiq olunmuş və əsas spektrofotometrik kəmiyyətlər müəyyən edilmişdir. $Fe^{3+}$ ionu tədqiq edilən reagentlərlə əmələ gətirdiyi kompleks birləşmələrin optimal şəraiti pH= 4-5, $Cu^{2+}$ ionu il pH= 5-6 intervalındadır. Komplekslərin

maksimum işıq udmaları FeR $\lambda_{max}$=400-440 nm, CuR $\lambda_{max}$=360-400 nm-dir. Məhlulda komlpleks birləşmələrin tərkibində olan kompenetlərin nisbəti öyrənilmişdir.

Kənar ionların və pərdələyicilərin kompleks əmələ gəlməyə təsiri öyrənilmişdir.

**Ədəbiyyat**


1. L.Chen, Z.Wang, T.Qiu, R.Sun, Z.Zhao, L.Tian, X.Liu, Synthesis, structural characterization, and properties of triorganotin complexes of Schiff base derived from 3-aminobenzoic acid and salicylaldehyde or 2,4-pentanedione, *Appl. Organomet. Chem.,* 2020, 34, p. 5790
2. A.Z.Al-Rubaie, S.A.S.Al-Jadaan, A.T.A.Al-Wahed, I.A.Raadah, Synthesis, characterization and biological studies of some new organometallic compounds containing mercury, selenium and tellurium based on p-aminobenzoic acid, *J. Phys. Conf. Ser.,* 2021, 2063, p. 012003


## ЭФФЕКТ ВЛИЯНИЯ ПРИРОДЫ ЛАНТАНОИДОВ НА СВОЙСТВА ЦЕОЛИТА ЦВН В АЛКИЛИРОВАНИИ ТОЛУОЛА ИЗОПРОПАНОЛОМ


**Нигяр Абдуллаева, Talex Гахраманов,**
**Сабит Мамедов, Эльдар Ахмедов**

*Бакинский Государственный Университет*
*taleh_bdu@mail.ru*


Переспективным направлением в развитии производства пара-замещенных диалкилбензолов на твердокислотных катализаторах является применение высококремнеземных цеолитов ZSM-5, что исключает токсичные и агрессивные компоненты присущие гомогенным катализаторам Фриделя-Кравтса. Улучшение селективности по пара-алкилбензолам включает уменьшение диффузии и инактивацию внешней поверхности, что достигается путем введения модифицирующих добавок в состав цеолита ZSM-5[1,2].

Целью настоящей работы явилось изучение влияния природы модифицриющих металлов (лантаноидов) на свойства цеолита ЦВН (аналог цеолита HZM-5) в реакции алкилирования толуола изопрораноло.

Для приготовления катализаторов использовали низкощелочной ($Na_2O$ <0.07мас%) высококремнеземный цеолит ЦВН с силикатным модулем 52. Катализаторы готовили путем пропитки цеолита ЦВН водными растворами нитратов лантаноитдов (La, Pr, Ho, Yb) с последующей сушкой (110°C, 4ч) и прокалкой (350° C, 4ч; и 550°C, 4ч). Содержание металлов в катализаторах составляло 3.0 мас %.

# PROPARGIL(ALLİL)OKSİMETİLXLORİDLƏR ƏSASINDA YENİ SİNTEZ ÜSULLARI

**Güləhməd Talıbov**

*Azərbaycan Texniki Universiteti*
*gtalibov61@gmail.com*

Tərkibində ikiqat və üçqat rabitələrin, aktiv C-Cl rabitəsinin olması bu birləşmə əsaında bir sıra yeni üzvi birləşmələrin sintezinə imkan verir. α-Xlormetilpropargil(allil) efiri yüksək reaksiyayagirmə qabiliyyətinə malik üzvi birləşmədir.

Apardığımz elmi tədqiqat işlərinda α-xlormetilpropargil(allil) efirin sadəcə onun əsasında sadə sintezlərin deyil, həmcinin üzvi sintezdə yeni üsul kimi qəbul olunan tədqiqatlar aparılmışdır.

Bizim tərəfimizdən ilk dəfə olaraq propargil β-yodefirlər əsasında β-qlikolların monopropargil efirlərinin alınması üçün ilkin maddə kimi istifadə olunması və onların molekuldaxili qapanması hesabına bir sıra altı- və yeddiüzvlü heterotsiklik birləşmələrin sintezi üçün yararlı olmasını müəyyənləşdirdik.

Tədqiqatlar göstəriri ki, əvəz olunmuş 1,4-dioksanların propargil β-halogenefirlərindən alınmasının yeni üsulu aşkar etdik. Bizim tətərindən ilk dəfə olaraq xlormetilpropargil efirin karbonilli birləşmələrlə kondensləşməsi nəticəsində 2-hidroksioksiranların α-qlikolların monopropargil efirlərinin [1], xlormetilpropargil efirin nitrillərlə kondensləşməsi nəticəsində ketoefirlərin [2], alkil-6-metil-4-etin(en)il-1,3-dioksan-5-karboksilatların [3], (1R,2S)-1-aril-2-{[prop-2-in(en)iloksi]metil}spiro-[2,4]hep-ta-4,7-dionların üçkomponentlı steroselektiv yeni sintez üsullarını [4] işləyib hazırlamış, həmcinin NMR spektroskopiyanın köməyi ilə bir sıra doymamış oksiefirlərin mütləq konfiqurasiyasını təyin etdik [6].




Tərəfimdən (1*R*,2*S*)-1-aril-2-{[prop-2-in(en)iloksi]metil}spiro-[2,4]hep-ta-4,7-dionların üçkomponentlı sintezi əsasında alınması reaksiyanın mexanizmi tərtib edilmişdir:



Gələcəkdə bu reaksiyaların enantiomer sintezi əsasında fərqli izomerlərin daha yüksək cıxımla alınması istiqamətində tədqiqatlar aparılması planlaşdırılır.

**Ədəbiyyat**


1. G. M.Talybov, N. V.Dzhafarova, S.T.Bairamova, Condensation of chloromethyl propargyl ether with carbonyl compounds, *Russ. J. Org. Chem.,* 2015, 51(7), p.1028
2. G.M.Talybov, Condensation of chloromethyl propargyl ether with nitriles *Russ. J. Org. Chem.*, 2017, 53(2), p. 296
3. G.M.Talybov, New synthesis of 1,2-diol monopropargyl ethers *Russ.J.Org.Chem*. 2017, 53(1), p. 123
4. G.M.Talybov, Three-component stereoselective synthesis of (1R,2S)-1-aryl-2-{[prop-2-yn(en)yloxy]-methyl}spiro[2,4]hepta-4,7-diones. *Russ. J. Org. Chem*. 2018, 54(8,9), p. 1256
5. G.M.Talybov, A.N. Baghirli, Determination of the absolute configuration of the propargyl oxyether Russ. *J. Org. Chem*. 2020, 56(4), p. 628
6. G.M.Talybov, Synthesis of alkyl 4-ethyn(en)yl-6-methyl-1,3-dioxane-5-carboxylates, *Russ.J.Org.Chem*. 2018, 54(11), p. 1739.


## TRİTSİKLODESENİLQLİSERİDASETAT EFİRİNİN SİNTEZİ


**Minavər İbrahimova, Xəyalə Məmmədova, Vüsalə Qədirli**

*Neft-kimya Prosesləri İnstitutu*
*kimyaci586@gmail.com*


Qliserin efirləri sənayenin, texnikanın, tibbin, məişətin 2000-dən artıq sahəsində tətbiq edilir [1]. Bu efirlər neft-kimya sintezinin ucuz və asan əldə olunan məhsulları əsasında alınır [2]. Qliserin efirlərinin sintez üsulunun

seçilməsi, optimal şəraitinin müəyyən edilməsi, efirlərin tərkibinə müəyyən funksional qrupların, tsiklik halqanın daxil edilməsi ilə onların reaksiya qabiliyyətinin, quruluşu ilə xassələri arasındakı asılılığın tədqiqi, praktiki tətbiq sahələrinin araşdırılması neft kimyasının həllini tələb edən ən ümdə məsələlərindən biridir. Qliserinin mürəkkəb efirlərinin, o cümlədən politsiklik quruluşa malik efirlərinin sintezi, müxtəlif çevrilmə reaksiyalarının tədqiqi, xassələrinin öyrənilməsi və tərkibində karboksil qrupu saxlayan politsiklik efirlərin tətbiq sahələrinin araşdırılması olduqca aktualdır. Hazırki tədqiqat işində qliserinin tritsiklik quruluşlu mürəkkəb efirlərin sintezi iki üsulla: birləşmə, həm də efirləşmə reaksiyaları vasitəsilə həyata keçirilmiş, bu üsullar müqayisə edilərək üstün və mənfi cəhətləri araşdırılmışdır:




Qeyd edilmiş efirin birləşmə reaksiyası ilə sintezi 110°C temperaturda, ilkin komponentlərin 1:1.5 mol nisbətində, katalizator kimi götürülmüş KU 2-8 $H^+$ 1.5% miqdarında, 3 saat reaksiya müddətində həyata keçirilmişdir. Nəticədə məqsədli məhsul oan diefirin çıxımı 78.7 % təşkil etmişdir. Sintez efirləşmə reaksiyası ilə 80-85°C temperatur, katalizator kimi 2.5 % $BF_3.OEt_2$ miqdarında, 4 saat reaksiya müddətində həyata keçirildikdə, diefirin çıxımı 93.4 % təşkil etmişdir. Bu hər iki sintez üsulunun müqayisəsi onu gösərir ki, birləşmə reaksiyası üzrə sintez götürülən reagentlərin əlçatanlığı nöqteyi nəzərindən xarakterizə edilsə belə, efirləşmə reaksiyası aşağı temperaturda, dəfələrlə istifadə edilən heterogen katalizatorun iştirakında, eləcə də sintez edilən diefirin çıxımının yüksək olması baxımından daha səmərəlidir. Diefirin quruluşu İQ-, NMR spektral üsullarla tədqiq edilmişdir.

## Ədəbiyyat


1. A. Behr, J. Eilting, K. Irawadi [et al.], Improved utilisation of renewable resources: New important derivatives of glycerol, *Green Chemistry*, 2008, 10(1), p.13
2. I.Dıaz, C.Márquez-Alvarez, F.Mohino [et al.], Combined alkyl and sulfonic acid functionalization of mcm-41-type silica: Part 2. Esterification of glycerol with fatty acids, *Journal of Catalysis*, 2000, 193(2), p. 295

# PROPİLENOKSİDİN TSİKLİK AMİNLƏRLƏ SU MÜHİTİNDƏ REGİOSELEKTİV AÇILMASI

**Avtandil Talıbov, Vaqif Abbasov, Eldar Məmmədbəyli, Kamilə Həsənova**

*Neft-kimya Prosesləri İnstitutu*
*atalybov@rambler.ru*

Təqdim olunan iş oksiran halqasının yumşaq şəraitdə, su mühitində açılması ilə *β*-aminospirtlərin regioselektiv alınmasına həsr olunmuşdur. Epoksid birləşmə kimi propilenoksiddən, reagent kimi isə tsiklik aminlərdən (piperidin, morfolin və benzilamin) istifadə olunur.

Reaksiya aşağıdaki sxem üzrə gedir:




Reaksiya 90–91ºC temperaturda 9 saat ərzində ilkin reagentlərin 1,1:1 mmol nisbətində aparılmışdır. Çıxım uyğun olaraq 98% (5 və 6), 60% (7) təşkil edir. Alınmış birləşmələrin fiziki-kimyəvi xassələri öyrənilmişdir. Onların quruluşu və tərkibi müasir üsullarla (İQ, $^{1}H$ və $^{13}C$ NMR spekrtoskopiya və həmçinin kütlə-spekromeriya üsullarla) təsdiq edilmişdir. Müəyyən edilmişdir ki, bu reaksiyalar Krasuski qaydası ilə gedir və ikili aminospirt alınır.

Sintez olunmuş birləşmələr (5–7) Cт3 markalı poladın korroziyası əleyhinə preparat kimi sınaqdan keçirilmişdir [1]. Alınan nəticələr cədvəldə verilmişdir.

***Cədvəl.*** Aminospirtlərin (5–7) Cт3 markalı poladın korroziyasının sürətinə təsiri

| Maddələr | Maddələrin qatılığı, mq/l | Minerallaşmış su + $H_2S$/karbohidrogenlər = 9:1 | | | |
|---|---|---|---|---|---|
| | | Poladın korrozi-yasının sürəti, K, q/m$^2$, γ$^{-1}$ | Poladın mühafi-zəsinin sürəti, Z, % | Tormoz-lama əmsalı, L | İnhibitor-suz kor-roziyanın sürəti, K, q/m$^2$, γ$^{-1}$ |
| 5 | 10 | 0.86 | 46.0 | 1.79 | 2.12 |
| | 25 | 0.29 | 82.8 | 5.92 | 2.12 |
| | 50 | 0.24 | 85.9 | 6.51 | 2.12 |
| | 100 | 0.11 | 92.0 | 11.94 | 2.12 |
| 6 | 10 | 0.86 | 46.0 | 1.79 | 2.12 |
| | 25 | 0.28 | 83.1 | 5.91 | 2.12 |
| | 50 | 0.24 | 85.8 | 6.52 | 2.12 |
| | 100 | 0.11 | 92.1 | 11.95 | 2.12 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 7 | 10 | 0.87 | 48.0 | 1.80 | 2.12 |
| | 25 | 0.30 | 83.4 | 5.93 | 2.12 |
| | 50 | 0.26 | 89.2 | 6.54 | 2.12 |
| | 100 | 0.12 | 99.1 | 12.11 | 2.12 |
| Etalon | 250 | 0.91 | 57 | – | |
| | 500 | 0.63 | 70 | – | |

Sınaqdan keçirilən maddələrinin antikorroziya xassələri praktikada tədbiq edilən 1-metil-3-etil-5-piperidinlə (etalon) müqayisəli formada tədqiq edilmişdir. Cədvəldən göründüyü kimi onlar məlum analoqa nisbətən daha yüksək antikorroziya xassələri göstərir.

**Ədəbiyyat**


1. N.İ.Mürsəlov, Ş.Z.Cəbrayılzadə, V.M.Abbasov, A.A.Quliyev, A.Q.Quluzadə, G.N.Bədəlova, X.R.Düzdaban, İmidazolin törəmələrinin hidrogen sulfid korroziyasina təsirinin tədqiqi, *Kimya problemləri*, 2015, 2, s. 159


## EPİXLORHİDRİN VƏ ALİFATİK AMİNLƏR ƏSASINDA BİS-AMİNOSPİRTLƏRİN SİNTEZİ VƏ XASSƏLƏRİ

**Avtandil Talıbov, Vaqif Abbasov, Eldar Məmmədbəyli, Gülsüm Hacıyeva**

*Neft-kimya Prosesləri İnstitutu*
*atalybov@rambler.ru*

Hazırda fizioloji aktiv $\beta$-aminospirtlərin ekoloji təmiz üsulla alınması tədqiqatçıların diqqət mərkəzindədir. Onların əlverişli üsulla, asan əldə olunan ilkin maddələrin əsasında sintezi olduqca aktual məsələdir.

Təqdim olunan iş $\beta$-aminospirtlərin yumşaq şəraitdə – su mühitində alınması və xassələrin öyrənilməsinə həsr olunmuşdur. Bu maddələrin sintezi epoksid birləşmə kimi epixlorhidrindən (1) və ikili aminlərdən [dietilamin (2), dipropilamin (3) və dibutilamin (4)] ilkin maddə kimi istifadə etməklə həyata keçirilmişdir.

Reaksiya aşağıdaki sxem üzrə gedir:




$NR_2 = N(Et)_2, N(Pr)_2, N(Bu)_2$.

Reaksiya 50ºC temperaturda, 9 saat müddətində ilkin komponentlərin (amin:epixlorhidrin) 5:1 molyar nisbətində su mühitində aparılmışdır. Alınmış birləşmələrin çiximı 93% (maddə 5), 92% (maddə 6), 91% (maddə 7) təşkil edir.

Alınmış birləşmələrin fiziki-kimyəvi göstəriciləri təyin edilmişdir. Onların tərkib və quruluşları İQ, $^{1}H$, $^{13}C$ NMR spekrtoskopiya və kütlə-

spekromeriya üsulları ilə təsdiq edilmişdir. Epoksidin (1) aminolizi yüksək sterioselektivliklə Krasuski qaydasına uyğun olaraq gedir.

Alınmış ikiəsaslı amin spirtləri sulfat-reduksiyaedici bakteriyaların inkişafını dayandıran reagent kimi sınaqdan keçirilmişdir. Sınaqlar "Neft Daşları" neft yatağından götürülmüş lay suyundan ayrılmış bakteriyaların üzərində aparılmışdır [1]. Alınmış birləşmələrin biosid təsirinin sınağının nəticələri cədvəldə verilmişdir.

***Cədvəl.*** Aminospirtlərin (5–7) SRB inkişafına təsirinin nəticələri, %

| Birləşmələr | Reagentlərin müxtəlif qatılıqda, mq/l | | | | | |
|---|---|---|---|---|---|---|
| | 10 | 20 | 25 | 30 | 35 | 40 |
| *Bis*-1,3-(*N,N*-dietilamino)propan-2-ol (5) | 60 | 80 | 100 | 100 | 100 | 100 |
| *Bis*-1,3-(*N,N*-dipropilamino)propan-2-ol (6) | 65 | 85 | 100 | 100 | 100 | 100 |
| *Bis*-1,3-(*N,N*-dibutilamino)propan-2-ol (7) | 66 | 86 | 100 | 100 | 100 | 100 |
| Dodiogen-414 (etalon) | 15 | 35 | 80 | 80 | 100 | 100 |

Sınaqdan keçirilən birləşmələrin SRB-yə qarşı bakterisid xassələri sənayedə istifadə olunan alman preparatı Dodiogen-414-lə müqayisəli şəkildə öyrənilmişdir. Cədvəldən göründüyü kimi sintez olunmuş birləşmələr (5–7) müxtəlif qatılıqlarda SRB-nin inkişafına etalondan daha yüksək effekt göstərir. Beləliklə, neft quyularında işlənilən avadanlıqları korroziyadan qorumaq üçün alınan birləşmələri (5–7) ingibitor kimi təklif etmək olar.

**Ədəbiyyat**

1. F.Guan, X.Zhai, J.Duan, M.Zhang, B.Hou, Influence of sulfate-reducing bacteria on the corrosion behavior of high strength steel EQ70 under cathodic polarization, *Plos One*, 2016, 11(9), p. 1

# KATİONIK TIOL MODIFIKASIYA OLUNMUŞ POLI(ASPARTAMIDLƏR)IN NƏZARƏTLI HIDROLITIK DEGRADASİYASI

**Aysel Mammadova[1,2], Andras Szilagyi[1], Benjamin Gyarmati[1]**

*Budapest University of Technology and Economics[1]*
*Bakı Ali Neft Məktəbi[2]*
*aysel.mammadova@bhos.edu.az*

Makromolekulyar dərman daşıyıcıları qan dövranında uzun dövriyyə müddəti o cümlədən, hədəf hüceyrəyə çatdıqdan sonra toksik olmayan monomerlərə parçalanma qabiliyyəti kimi müxtəlif tələblərə cavab verməlidir. DNT-nin mənfi yüklü fosfodiester bağlarını və ya epitel hüceyrələrinin selikli qişasını birləşdirmək üçün istifadə oluna bilən *in situ* gelləşən kationik poli(amin turşusu) törəmələri bu sahədə geniş istifadə olunur[1]. Bu məqsədlə, yan

qrupların bu polimerlərin hidrolitik dayanıqlığına təsirini araşdırmaq üçün N,N-dimetiletil (DME) və 3-(dimetilamino)-propil (DMP) qrupları kimi kationik və 2-hidroksietil (HE) kimi neytral yan qrupları olan tiollaşdırılmış poliaspartamid törəmələrinin sintezini həyata keçirilmişdir və bəzi törəmələrin poliaspartamid-lərin stabilliyindən asılı olaraq qeyri-enzimativ deqradasiyaya uğradığı müşahidə edilmişdir. Ölçü istisna xromatoqrafiyası (size exclusion chromatography (SEC)) ilə müəyyən edilmişdir ki, yüksək DMP və HE tərkibə malik polimerlər fizioloji və endozomik pH-lərdə hidrolitik deqradasiya qarşı daha davamlı olmuşdur, lakin DME tərkibli törəmələr əsas zəncirin strukturunun qırılması nəticəsində bir gün ərzində pH=7.4-də deqradasiyaya uğramışdır. Və müəyyən edilmişdir ki, deqradasiyanın sürəti polimerlərin tərkibinə nəzarət etməklə ilə idarə oluna bilər. Xətti tiollaşdırılmış kationik poliaspartamidlər yan qrupların növündən asılı olmayaraq disulfid çarpaz bağlı hidrogellərə çevrilmiş və reoloji araşdırmalar göstərmişdir ki, yüksək DME tərkibli disulfid çarpaz bağlı poliaspartamidlərin hidrogelləri yüksək DMP və HE tərkibli poliaspartamidlərin hidrogellərinə nisbətən daha zəif gel strukturu əmələ gətirmişdir [2]. Belə nəticəyə gəlmək olar ki, xətti quruluşlu poliaspartamidlər və onların hidrogellərinin hidrolitik deqra-dasiyası və stabilliyi polimerlərin kimyəvi tərkibini və pH-i tənzimləməklə asanlıqla idarə oluna bilər və deqradasiya dərəcəsi müvafiq tətbiq ehtiyaclarına uyğunlaşdırıla bilər [3].

## References

1. Y Lu, M Chau, A.J Boyle, P Liu, A Niehoff, D Weinrich, R.M. Reilly, M.A Winnik, Effect of pendant group structure on the hydrolytic stability of polyaspartamide polymers under physiological conditions, *Biomacromolecule,* 2012, 13, p. 1296
2. B Gyarmati, A Mammadova, G Stankovits, D Barczikai, A Szilágyi, Effect of Side Groups on the Hydrolytic Stability of Thiolated and Disulfide Cross-linked Polyaspartamides, *Period. Polytech. Chem. Eng.,* 2021, 65(2), p. 183
3. B Gyarmati, A Mammadova, D Barczikai, G Stankovits, A Misra, M.S Alavijeh, Z Varga, K László, A Szilágyi, Tuning the hydrolytic degradation of thiolated and disulfide cross-linked polyaspartamides, *Polymer degradation and stability,* 2021, 188, p. 109577

## SYNTHESİS OF THE 1, 2- EPİTİO- 3- ACETOXYPROPAN DERİVATİVES

**Afet Huseynova, Fatima Mamedova**

*Baku State University*
*afethuseynovabdu@mail.ru*

1,2-Aminothiols, which are bifunctional compounds, are always in the frocus of researchers attention as substances with wide application possibilities. Considering the important role of coenzyme A, which contains an

aminoethanethiol fraqment, in the processing occuring in the living organism, it is clear that the search for synthetic aminothiols with high physiological activity is promising. 1,2-Aminothiols are the most suitable compounds for multidisciplinary studies [1,2,3].

Also, aminothiols are compounds with a wide range of application. By the way, aminothiols are a convenient synthon for obtaing higly physiologically active substances, including medicinal substances [2,4]. Some of them (cysteine, homocysteine) are used as medicines in medicine. As a continuation of the work carried out in the direction of the synthesis, properties and reasearch of amine derivatives of various substituted thiranes, new 1, 2-aminothiols and their fluorinated derivatives were synthesized from the reaction of 1, 2-epitio-3- acetoxypropane with some aromatic amines (anilyne, 2-toluidine). The general scheme of the synthesis is as follows:




The course of the reaction was monitored by thin-layer chromatography, and the structure was confirmed by IR and NMR methods.

## Ədəbiyyat

1. Х.А.Надим, А.Т.Гусейнова, М.А.Аллахвердиев, Синтез и антимикробные свойства фторсодержащих 1, 2-аминопропантиолов, *Журн. прикл. хим.*, 2002, 75, 8, с. 1306
2. М.А.Аллахвердиев, Т.М.Гусейнова, А.М. Магеррамов. *Аминотиолы и их производные*, 2007, 143 с
3. A.Z.Zalov, A.M.Maharramov, A.T.Huseynova, K.A.Kuliev, Aminothioly as an analytical reagent for extraction spectrophotometric determination of Copper (II), *International Journal of Innovative Science Engineering and Technology*, 2017. 4, p. 174

4. A.T.Huseynova, V.M.Farzaliyev, A.M.Sujayev, U.M.Kocyigit. Design, synthesis, characterization, biological evaluation and molecular docking studies of novel 1, 2-aminopropanthiols substituted derivatives as selective carbonicanhydrase, acetylcholinesterase and 1-glycosidase enzymes inhibitors, *Journal of Bimolecular Structure and Dynamics*, 2020, 3, p. 2

# (*E*)-1-(AMİNO(1H-PİRAZOL-1-İL)METİLEN)QUANİDİNİN ALDEHİDLƏR VƏ MALONONİTRİL İLƏ TSİKLOKONDENSLƏŞMƏSİNİN DFT TƏDQİQİ

**İbadulla Mahmudov[1], Murad Əsədullazadə[1, 2], Yusif Abdullayev[3], Əfsun Sucayev[1]**

*Aşqarlar Kimyası İnstitutu[1]*
*Bakı Dövlət Universiteti[2]*
*Bakı Mühəndislik Universiteti[3]*
*ibadullamahmudov@gmail.com*

Triazinlər geniş tətbiq sahəsinə malikdir. Tərkibində kükürd olan S-triazin törəmələrinin farmakologiya sahəsində herbisid, göbələk, bakteriya, və xərçəng əleyhinə vasitə kimi istifadə edilməsi, bu sinif birləşmələrin tibbi kimyada əhəmiyyətini artırmışdır [1].

Tərkibində siano qrup olan xlorotriazin (sianazin) və atrazin törəmələri son illərdə herbisid kimi geniş istifadə olunur. Tetrahidro-S-triazinlər təkcə dərman kimi deyil, həmçinin, yanacaq əlavəsi kimi istifadə olunmuş və mühərrikin daxili hissələrin təmiz qalmasına təsir etmişdir.

Biz əsasən tərkində nitril qrupu olan tetrahydro-s-triazinlərin sintezinə diqqət etmişik, hansı ki, bu birləşmələr "toksoplazma qandii" parazitlərinin təsiri ilə mərkəzi sinir sistemində yaranan xəstəliklərin müalicəsində istifadə olunur. Məlumat üçün qeyd edək ki, bu xəstəlik ABŞ-da qida mənşəli ölümlərin sırasında ikinci yerdə durur. Aşağıdakı sxem üzrə bir mərhələdə üçkomponentli sintez həyata keçirilib (Sxem 1):




***Sxem 1.*** Bir mərhəldə üçkomponentli tetrahydro-s-triazin alınma reaksiyası

Tetrahidro-s-triazin törəmələrinin geniş istifadə olunması daha mülayim şəraitdə və atom qənaətcil üsul ilə sintez olunması bu işin önəmini daha da artırmışdır. Biz ilk dəfə olaraq katalizator olmadan bir mərhələdə tetrahidro-S-triazin sintezinə nail olmuşuq. Birləşmənin quruluşu rentgen struktur analizi ilə təsdiqlənmişdir.

Funksional sıxlıq nəzəriyyəsi (DFT-Density Functional Theory) vasitəsilə hesablanmış reaksiya mexanizmi aşağıdakı sxemdə verilmişdir (Sxem 2):



***Sxem 2.*** Tetrahidro-S-triazinin sintez reaksiyasının mexanizmi

Pirazol qrupunun ayrılması ilə nəticələnən tsiklin əmələ gəlməsi DFT hesablamasını pirazola qonşu olan karbon atomu ilə malononitril arasında baş verən qarşlıqlı təsir ilə başlamaq üçün əsas səbəbdir. TS1 strukturundan göründüyü kimi malononitrilin mütəhərrik (turşu) protonu mərkəzi imin adduktunun azot atomu tərəfindən qəbul edilir. Nəticədə pirazola qonşu karbonun elektrofilliyinin artması (protonunu itirdiyinə görə elektron sıxlığı artır) malononitril karbonunun ona hücumu və INT1-in əmələ gəlməsi ilə nəticələnir. TS2 strukturundan göründüyü kimi malononitrilin növbəti protononun nükleofil pirazol azotu tərəfindən cəzb edilməsi prazol molekulunun kompleksdən ayrılması, eyni zamanda INT2-nin alınması ilə nəticələnir. INT2 strukuturunun molekuldaxili proton miqrasiyasının nəticəsində (tautomerizm) proton və ikiqat rabitənin yerdəyişməsi molekulun daha yaxşı elektron delokallaşmasına və minim enerji vəziyyətinə düşərək stabilləşməsinə səbəb olur. Benzaldehidin INT2 ilə qarşılıqlı təsiri uc tərəfdə yerləşən qeminal birli amin qruplarından birinin elektrofil karbona (benzaldehidin) hücumu və spontan olaraq aminin protonun oksigen atomu tərəfindən qəbul edilməsi ilə nəticələnir. Nəticədə əmələ gələn aralıq mərhələnin (INT3) TS4-ün strukurunda göstərildiyi kimi molekuldaxili dehidratlaşaraq X-ray vasitəsilə aydınlaşdırılmış strukturun eynisinin əmələ gəlməsi ilə nəticələnir (PRO). Bu da hesablanmış mexanizmin kifayət qədər məntiqli olmasından xəbər verir.

## Ədəbiyyat

1. I.Mahmudov, Z.Atioğlu, M.Akkurt, Y.Abdullayev, A.Sujayev, A.Bhattarai, Crystal structure and Hirshfeld surface analysis of 2-(4-amino-6-phenyl-1, 2, 5, 6-tetrahydro-1, 3, 5-triazin-2-ylidene) malononitrile dimethylformamide hemisolvate, *Acta Crystallographica Section E: Crystallographic Communications,* 2022, 78(8), p. 779

# ZnAl-LİH-$C_{60}$/PVS NANOKOMPOZİTİNDƏ METİLEN GÖYÜ VƏ KONQO QIRMIZISI BOYAQ MADDƏLƏRİNİN SORBSİYASI VƏ FOTODEQRADASİYASI

**Türkan Israfilli, Ofeliya Balayeva**

*Bakı Dövlət Universiteti*
*turkan.israfill@gmail.com*

Karbon əsaslı nanomateriallar tətbiq imkanlarının genişliyi baxımından böyük marağa səbəb olmuşdur. Bu materiallar arasında fülleren, qrafen və karbon nanoboruları kimi yüksək fotokatalitik aktivliyə malikdir [1]. Son zamanlarda laylı ikili hidroksidlərin (LİH) polimer matrisinə daxil edilməklə onun xassələrini gücləndirməsi nəzərə alınaraq LİH/polimer nanokompozitlərin istehsalı və istifadəsi genişləndirilmişdir [2].

Yeni nanokompoziti əldə etmək üçün Zn Al/LİH sintezinə 1% fülleren (C60) daxil edilmiş, prosesdə polivinil spirti (PVS) stabilləşdirici kimi tətbiq olunmuşdur. Metilen göyü (MG) və konqo qırmızısı (KQ) boyalarından istifadə edərək, bu nanokompozitin fotokatalitik aktivliyi tədqiq edilmiş və izopropil spirti (İPS), trilon b və askorbin turşusu reagentlərindən istifadə edərək deqradasiya prosesinə cavabdeh olan aktiv hissəciklər müəyyən edilmişdir.

MG-nün müxtəlif qatılıqlı məhlullarına ( 5 mq/l,10 mq/l,15 mq/l, 20 mq/l) 0,005 qr Zn Al/ LİH@C60/PVS maddəsi əlavə edilmiş, 1 gün sonra sorbsiya olunmuş nümunələr 150 Vt görünən işığın təsirinə məruz qalmışdır. Müxtəlif vaxt intervallarında ultrabənövşəyi (UB) spektrofotometr ilə aparılan analizlərə əsasən müəyyən edilmişdir ki, 8 saat sonra proses MG-nün 20 mq/l, 15 mq/l, 10 mq/l və 5 mq/l konsentrasiyalarında müvafiq olaraq 78.62%, 81.61%, 88.62% və 93.27% deqradasiya dərəcələrinə malikdir. (Şəkil 1.)

$C_{60}$ mövcud olduqda və $C_{60}$-sız halda materialın fotokatalitik aktivliyini təyin etmək üçün 10 mq/l KQ məhluluna 0,01 qr ZnAl/LİH@C60/PVS və eyni miqdarda ZnAl/LİH (C60-sız) əlavə edilmiş və müəyyən olunmuşdur ki, KQ üçün fotodeqradasiya dərəcəsi birinci halda 99.6%, ikinci halda 91.43% olmuşdur. (Şəkil 2.)

MG-də fotokatalitik prosesdə iştirak edən aktiv hissəciklərin öyrənilməsi •OH və $•O_2^-$ radikallarından istifadə edilərək tədqiq edilmişdir. Trilon b, IPS, askorbin turşusu və reagentsiz MG məhlullarının fotodeqradasiyası üçün deqradasiya dərəcəsi müvafiq olaraq 64.80%, 54.93%, 52.71% və 56.54% təşkil etmişdir. •OH və $h^+$ radikalları eyni prosesi yerinə yetirmək üçün KQ-da istifadə edilmişdir. IPS, trilon b, askorbin turşusu və reagentsiz məhlulların fotodeqradasiyası yolu ilə əldə edilən faiz dərəcələri KQ-da müvafiq olaraq 96.98%, 98.79%, 100% və 99.8% təşkil etmişdir. MG və KQ-nın deqradasiyası uyğun olaraq $•O_2^-$ və •OH radikallarının iştirakı ilə baş verir. Bu da onu göstərir ki, boya molekullarının təbiəti prosesin gedişinə təsir göstərir.




***Şəkil 1***. Müxtəlif qatılıqlı MG məhlullarının deqradasiya nəticələri




***Şəkil 2***. $C_{60}$ mövcud olduqda və $C_{60}$-sız halda 10 mq/l KQ məhlulunun deqradasiya nəticələri

**Ədəbiyyat**

1. S.Yao, X.Yuan, L.Jiang et al., Recent progress on fullerene-based materials: synthesis, properties, modifications and photocatalytic applications, *Materials* 2020, 13, 2924
2. H.Jiang, Layered double hydroxides/polymer nanocomposites, *Journal of Chemical Research and Application*, 2018, 1(1), p. 1

# MALEİN ANHİDRİDİ-STİROL BİRGƏ POLİMERİNİN DİETİLAMİNHİDROXLORİD İLƏ MODİFİKASİYASI

**Əfsunə Əsgərli, Rəsmiyyə Məmmədova, Nərgiz Ömərova**

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*
*esgerliefsune@gmail.com*

Malein anhidridi və stirolun 1÷2 nisbətində, 80$^0$C temperaturda, benzol mühitində, 1,5 saat müddətində birgə polimerləşmə prosesi aparılıb. Bundan sonra alınmış birgə polimerin dietilaminhidroxloridlə 1÷1, 1÷2, 1÷3, 1÷4, 1÷5 nibətlərində aseton mühitində kimyəvi modifikasiyası aparılmışdır. Ən yaxşı nəticəni 1÷1 nisbətində aldıq. Neytral mühitə çatana qədər distillə suyu ilə yuyulub, qurudulub, pH-ı təyin olunub və burada turş mühitin olmadığını müşahidə etdik. İQ spektroskopiya nəticəsində çevrilmə reaksiyasının getdiyini müşahidə etdik, çevrilmə məhsullarından müxtəlif sahələrdə,

polimerlərin xassələrini yaxşılaşdırmaq üçün və sorbent kimi istifadə olunur. IQ spektroskopiyanın və apardığımız digər analizlərin nəticəsinə əsasən reaksiyanın aşağdakı tipdə getdiyini ehtimal edirik.



Burada olan funksional qruplar yaxşı yapışqanlıq xassəsi verir və sorbent kimi istifadə oluna bilər.

İQ- spektrdə 1776 $sm^{-1}$, 1712,61 $sm^{-1}$ karboksil qrupunda C=O, 1635 $sm^{-1}$ amid qrupunda C=O rabitəsinin, 1359, 1160 C-N, 3359 $sm^{-1}$ OH qrupunun, 1494 $sm^{-1}$, 1452 $sm^{-1}$ aromatik nüvənin udma zolaqlarını göstərir.

**Ədəbiyyat**


1. O.H.Əkbərov, E.O.Əkbərov, *Yüksəkmolekullu birləşmələr kimyasından praktikum*, Bakı, 2002, s. 146
2. A.M.Məhərrəmov, M.Ə.Allahverdiyev, *Üzvi kimya*, Bakı-2007
3. A.M.Məhərrəmov, M.N.Məhərrəmov, *Üzvi kimya*, Bakı-2006


## NATRİUM DİKLOFENAKIN SULU MƏHLULLARDAN ADSORBSİYASININ TƏDQİQİ


**Arzu Hüseyinli, Elgül Abdullayeva, Rasim Alosmanov**

*Baku State University*
*dr.arzuhuseynli@gmail.com*


İnsanlar tərəfindən geniş miqyasda istifadə olunduğundan bioloji aktiv farmoseptik preparat və şəxsi gigiena məhsullarına çox tez-tez səth sularında rast gəlinir. Belə birləşmələr uzun müddət ərzində su hövzəsində toplandıqda insan sağlamlığı, eləcə də ekosistem üçün xroniki toksiklik yaradır. Məsələn, dünyada hər il böyük miqdarda istehlak edilən iltihabəleyhinə ağrıkəsici natrium diklofenak yüksək dərəcədə həll olunma qabiliyyətinə və polyarlığına görə tullantı sularında, təbii su hövzələrində, hətta içməli sularda da geniş şəkildə aşkar edilmişdir [1].

Hal-hazırda natrium diklofenakın su mühitindən kənarlaşdırılması üçün fotodeqradasiya [2], biodeqradasiya [3], ozonlaşma [4] və s işlənilib hazırlanmışdır. Onu da qeyd etmək lazımdır ki, praktiki istifadə zamanı, xüsusi ilə də təmizlənmənin daha çox dərəcədə aparılması üçün adsorbsiya üsulu perspektivli hesab olunur. Bu üsulun aşağıdakı üstünlükləri məlumdur:

- texniki cəhətdən əlverişlik;
- yüksək effektlik;

- dərin təmizlənmə prosesinin mümkünlüyü.

Buna görə də tədqiqatçılar NDF-ə qarşı yüksək adsorbsiya qabiliyyətinə, spesifik seçiciliyə malik effektiv və aşağı maya dəyərli materialların müəyyənləşdirilməsi istiqamətində elmi işləri intensiv şəkildə davam edirlər [5].

Təqdim olunan işdə AN-22 markalı ion-mübadilə qətranı ilə NDF-nin sulu məhlullardan sorbsiyasının dərman preparatının başlanğıc qatılığından asılılığı tədqiq olunmuşdur. Təcrübələr 22±2 °C temperaturda aparılmışdır. Nəticələr Lenqmür və Frendlix modellərilə işlənmişdir. Müəyyən edilmişdir ki, proses Lenqmür modeli ilə daha yaxşı təsvir olunur.

**Ədəbiyyat**


1. L.Lonappan, S.K.Brar, R.K.Das, M.Verma, R.Y.Surampalli, Diclofenac and its transformation products: Environmental occurrence and toxicity - A review, *Environ. Int.,* 2016, 96, p. 127
2. M.R.Espino-Estévez, C.Fernández-Rodríguez, O.M.González-Díaz, J. Araña, J.P.Espinós, J.A.Ortega-Méndez, J.M.Doña-Rodríguez, Effect of TiO2–Pd and TiO2–Ag on the photocatalytic oxidation of diclofenac, isoproturon and phenol, *Chem. Eng. J.*, 2016, 298, p. 82
3. I.S.Moreira, V.S.Bessa, S. Murgolo, C.Piccirillo, G.Mascolo, P.M.L. Castro, Biodegradation of Diclofenac by the bacterial strain Labrys portucalensis F11, Ecotox. Environ. Safe, *Ecotoxicology and environmental safety*, 2018, 152, p. 104
4. X. Li, W. Chen, Y. Tang, L. Li, Relationship between the structure of Fe-MCM-48 and its activity in catalytic ozonation for diclofenac mineralization, *Chemosphere*, 2018, 206, p. 615
5. M.Barczak, Synthesis and structure of pyridine-functionalized mesoporous SBA15 organosilicas and their application for sorption of diclofenac, *J. Solid State Chem*., 2018, 258, 232


## MALEIN ANHIDRIDI-STIROL KARBAMID ƏSASINDA SORBENTIN METILEN- YAŞIL BOYAQ MADDƏSI ILƏ SORBSIYASINDAN ALIINAN NƏTICƏLƏRIN LƏNGIMÜR VƏ FREYNDLIX MODELLƏRINDƏ IŞLƏNMƏSI


**Oqtay Əkbərov, Rəmziyyə Həsənova, Fatimə Kamranzadə**

*Bakı Dövlət Universiteti*
*hesenovaremziyyeeldar@gmail.com*


Malein anhidridi-stirol karbamid əsasında sorbentin metilen- yaşil boyaq maddəsi ilə sorbsiyasindan əldə edilmiş nəticələrə əsasənLəngimür və Freyndlix izoterm modelləri qurulmuşdur.

Ləngimür modelinə uyğun olaraq qrafik tənliyi aşağıdakı kimidir:

$$\frac{Ce}{qe} = \frac{1}{qK_l} + \frac{Ce}{q_{max}}$$

burada, Ce- uyğun olaraq boyaq maddəsinin sorbsiyadan sonrakı tarazlıq qatılığı, (mqL-1); qe- tarazlıq halında sorbentin sorbsiya tutumu (mqq-1); qmax- sorbentin maksimum sorbsiya tutumu (mqq-1); KL-Ləngimür izoterm sabitidir. Yuxarıdakı tənliyə əsasən Ce/qe=ƒ (Ce) xətti asılılğının qrafiki qurulmuşdur (şəkil1).




***Şəkil 1.*** Ce/qe=ƒ (Ce) asılılığının qrafiki

Freyndlix tənliyi aşağıdakı kimidir:

$$logq_e = \log K_f + \frac{1}{n} logC_e$$

Yuxarıdakı tənliyə əsasən, Ce – uyğun olaraq boyaq maddəsinin sorbsiyadan sonrakı tarazlıq qatılığı, (mqL-1) ; KF – Freyndlix izoterm sabiti (mqq-1) ; 1/n – qeyri-bircinslik əmsalıdır. Bu tənlikdən istifadə edərək (logqe=ƒ(logCe) xətti asılılğının qrafiki qurulmuşdur (şəkil 2).




***Şəkil 2.*** logqe=ƒ (logCe) asılılığı

Qrafiklər əsasında parametrlərin hesablanmış qiymətləri cədvəldə öz əksini tapmışdır.

***Cədvəl.*** Ləngimür və Freyndlix sorbsiya izotermlərindən alınmış parametrlərin qiymətləri

| Ləngimür sabitləri | | | Freyndlix sabitləri | | |
|---|---|---|---|---|---|
| $q_{max}$,q /q | $K_L$,L/mol | $R^2$ | $K_F$ | 1/n | $R^2$ |
| 84.03 | 0.0728 | 0.982 | 1.7488 | 0.5718 | 0.992 |

## Ədəbiyyat


1. D.S. Perwitasari, Y.A.Y. Pracesa, M.A. Pangetsu, P.S. Tola, Langmuir and Freundlich Isotherm Approximation on Adsorption, *2nd International Conference Eco-Innovation in Science, Engineering, and Technology*, 2021, p.10
2. K.Y.Foo, B.H.Hameed, Insights into the modeling of adsorption isotherm systems, *Chemical Engineering Journal,* 2010, 156(1), p. 2

# ALUMINIUM HYDROXIDE AS FLAME RETARDANT FOR POLYPROPYLENE

**Fatima Mustafayeva, Najaf Kakhramanov**

*Institute of Polymer Materials*
*mustafayevafatima@mail.ru*

As one of the five general purpose plastics, polypropylene (PP) is widely used in all walks of life. Among the major types of plastics, the consumption of PP contributes to 19.1% of total demand around Europe in 2015 (figure 1a) [1]. In 2018, global PP production was 56.0 million metric tons and is estimated to reach approximately 88.0 million metric tons by 2026 [2]. PP plant is one of the two main production facilities of "SOCAR Polymer" company, which was founded in 2013 for the development of the petrochemical industry of our country. The annual production capacity of this plant is 184 thousand tons. SOCAR Polymer offers a range of PP, including homopolymer, random and heterophasic copolymer grades. PP has penetrated into all dominant sectors of the economy: electronics, electrical engineering, mechanical engineering, automotive industry, instrument making, transport, construction and many others. On the other hand, due to the inherent flammability, the use of flame-retardant additives in PP is necessary to minimize the risk of fire. Due to increased environmental awareness of the entire chemical industry, strict laws on additives and regulations are gradually improving. Lately, halogen-free flame retardants have become increasingly important because, unlike flame retardants containing chlorinated or brominated organic compounds, they produce less smoke in the event of a fire and are usually classified as environmentally friendly. Aluminium hydroxide (ATH) is one of the most commonly used retardants, making up approximately 40% of the total fire retardants used worldwide (figure 1b). In this regard, the goal of the ongoing research was to increase the fire resistance of PP using environmentally friendly ATH.

The PP used was a specially designed polypropylene random copolymer PP-R grade Topilene® R200P produced by HYOSUNG CHEMICAL CORPORATION (Seoul, Korea). The particle size of ATH (GOST 11841-76, repackaged by JSC "Vekton") was 10-300 nm. The amount of ATH was varied in the range of 1-50 wt %. The nanosized filler was first sieved through mesh no. 500 (ASTM E: 11, DAMAVAND Test Sieve LTD) and then sized on a Mastersizer 3000 (Malvern Instruments, England) laser analyzer with a measurement range of 10 nm–3500 µm. The effectiveness of ATH is directly proportional to its content in the polymer and therefore, to achieve good fire retardant properties in the material, its use in an amount of approximately 30-50% is required. Such high filling levels have a negative impact on the physical-mechanical properties of composites, which to a certain extent limits their practical use. To improve the compatibility and improve the physical-mechanical properties of the composites, different coupling agents were used.




***Figure 1***. European plastic demand by category in 2015 (a) [1] and global flame-retardant consumption by type in 2017 (b) [3]

**References**

1. Plastics Europe, Plastics-the Facts 2016. An analysis of European latest plastics production, demand and waste data.
2. F.Seidi, E.Movahedifar, G.Naderi, et al, Flame Retardant Polypropylenes: A Review, *Polymers (Basel)*, 2020, 12(8), ID 1701
3. S.Araby, B.Philips, Q.Meng, et al, Recent advances in carbon-based nanomaterials for flame retardant polymers and composites, *Composites Part B: Engineering*, 2021, 212, ID 108675

## КОМПОЗИЦИОННЫЙ МАТЕРИАЛ НА ОСНОВЕ ПРОМЫШЛЕННЫХ И БЫТОВЫХ ОТХОДОВ

**Махира Шарифова[1], Этигад Гаджиева[1], Сеймур Гасанов[1], Камран Ибрагимов[1], Гюльнара Мусаева[2]**

*Институт Экологии и Природных Ресурсов[1]*
*Институт Полимерных Материалов[2]*
*sharifova54@mail.ru*

История создания композиционных материалов относится к началу развития самой цивилизации. Известно, что технологическое развитие древнего мира определялось двумя жизненно важными условиями-наличиями необходимых материалов и обменами информации. Следует

отметить, что наиболее древней из всех технологии композиционных материалов является технология полимерных композиционных материалов.

Сегодня промышленность пластмасс развивается очень высокими темпами, что вызвано стремительным ростом потребления. В начале XXI века производство синтетических пластмасс в мире приблизилось к 200 млн. тонн/год [1].

Полимерная упаковка выходит из оборота сразу же после того, как товар попал в руки потребителя. В настоящее время доля полимерных бытовых отходов составляет порядка 15%, т.е. около 30 кг на душу населения. В связи с их способностью не поддаваться коррозии и гниению, они имеют стойкую тенденцию к увеличению, занимая огромные территории.

Полимерные материалы имеют большое значение, поэтому вопрос об их использовании и дальнейшей утилизации особо актуален [2,3]. В тоже время, в Западном регионе республики, в связи с развитием горнорудной промышленности, накопилось огромное количество твердых отходов (более 200 млн. тонн), наносящих значительный вред природе, поглощая большие площади [4].

Вопрос использования отходов остается и по сей день открытым, в чем и заключается актуальность данной работы.

В этой связи, целью настоящего исследования является исследование возможности использования промышленных и бытовых полимерных отходов при получении композиционных материалов строительного назначения.

Исследования проводились совместно с Институтом Полимерных материалов Министерства Науки и Образования республики.

Объектом данного исследования является илистая фракция переработки алунита, как наполнитель, при получении легкого строительного материала керамзита. Исследованы свойства илистой фракции, а также условия получения керамзита, свойства которого соответствуют данным ГОСТа [5].

Далее с использованием керамзита, как наполнителя бытового полимерного отхода получен композиционный материал с улучшенными прочностными свойствами, позволяющими его применение в быту для технических целей.

Претворение в жизнь данного исследования способствует улучшению экономический обстановки в регионе, даст определенный экологический эффект от утилизации промышленных и бытовых отходов, а также создаст предпосылки для реализации малоотходной и безотходной технологий.

**Литература**


1. С.Х.Базиева, М.А.Лизиев., Р.С.Мирзоев, Г.Б. Шустов, Биоразлагаемые полимерные материалы, будущее с точки зрения экологии, *Новые полимерные композ. материалы*, 2012, с. 15
2. М.Л. Шетова, Г.Б.Шустов, Биоразлагаемые композиции на основе крахмала, *Вестн. Каб-Балк. гос. ун-на. Сер.Хим*., 2003, 5, с. 30
3. В.А. Фомин, В.В. Гузеев. Биоразлагаемые полимеры, состояние и перспективы использования, *Пласт. массы*., 2001, 2, с. 42
4. Ф.Ю. Алиев, М.Т. Шарифова, Ч.Г.Исмаилов, Новые наполненные композиты на основе ПЭ низкой плотности и промотходов Дашкесанского железорудного месторождения, *Новые полимерные композ. материалы*, 2013, с. 8
5. ГОСТ 9758-77, Заполнители пористые неорганические для легкого бетона. Методы испытаний, *Изд. Стандартов*, 1985


## TƏBİƏTDƏ HOMOXİRALLIĞIN ƏMƏLƏ GƏLMƏSİ


**Eldar Məmmədbəyli**

*Neft Kimya Prosesləri İnstitutu*
*eldar_mamedbeyly@mail.ru*


Yer şəraitində xiral təsirə malik olan ən sadə və aramsız amillərdən biri planetimizin öz ətrafında və Günəşin orbitində spiral formada sağa fırlanmasıdır. Spiral şəkilli bioloji makromolekulların yaranmasında "tikinti bloku" kimi *L*-amin turşularından və *D*-şəkərlərindən (homoxirallıq-konfiqurasiya) eyniliyi istifadə olunmasında bu amillər əsas mənbə kimi qəbul edilir [1].

Canlı aləmin həyatında əsas rol oynayan birləşmələrin alınmasında iştirak edən biokimyəvi reaksiyalarda təbiət tərəfindən *L*-amin turşularının, *D*-nukleofillərin, və *D*-mono-şəkərlərin seçilməsinə dair çoxlu hipotezlər irəli sürülmüşdür, lakin bunların heç biri elm aləmində çoxluq tərəfindən qəbul edilməmişdir. Belə halda molekulyar teologiya üçün meydan açılır. Qeyd etmək olar ki, biomolekulyar xirallığın əmələ gəlməsinin səbəbini dəqiq öyrənmədən, canlı həyatın əmələ gəlməsi tam öyrənmək mümkünsüzdür. Canlı həyatın əmələ gəlməsi ilə xirallığın əmələ gəlməsi bir-biri ilə çox bağlı olduğu və paralel əmələ gəldiyi güman edilir. Bəzi müəlliflər qeyd edir ki, canlı aləmin əmələ gəlməsi ilə homoxirallıq arasında asılılıq yoxdur. Bəzi yerlərdə *D*-amin turşuları əmələ gəlmişdir. Bu səbəbdən burada "*D*-həyat" əmələ gəlmişdir, digər yerlərdə bunun əksinə olaraq "*L*-amin turşuları" və "*L*-həyat" yaranmışdır. Rəqabət nəticəsində daha zəif "*D*-həyat" yox olmuşdur.

Homoxirallığın formalaşmasında üç əsas mərhələ vardır:

a) güzgü simmetriyasının pozulması (cüzi enantiomer balanssızlığının yaradılması)

b) xiral gücləndirmə

c) xiral ötürmə (bir molekul dəstindən digərinə).

Simmetriyanın pozulma mərhələsi baxımından homoxirallığın mənşəyinin iki əsas nəzəriyyəsi vardır:

*Determinant nəzəriyyələri* konkret xiral sahənin təsiri altında güzgü simmetriyasının pozulmasının baş verdiyi nəzəriyyələrdir [2]. Bu zaman bütün bu nəzəriyyələri iki alt növə bölmək olar:

– əgər ilkin xiral təsir müəyyən məkanda və ya zamanda baş vermişdirsə (kifayət qədər böyük müşahidə sahələri və ya zaman dövrləri üzrə ortalaşdırılmış sıfır), nəzəriyyə yerli determinant kimi təsnif edilir;

– əgər xiral seleksiya zamanı xiral təsir sabitdirsə, onda o, universal determinant kimi təsnif edilir.

Determinant nəzəriyyələrdə enantiomer balansızlıq xarici xiral sahə və ya təsirə görə yaranır və biomolekullarda müşahidə olunan son əlamət yaranmış vəziyyətdən asılı olaraq dəyişir.

*Təsadüfi nəzəriyyələr* homoxirallığın mənşəyinin təsadüfi mexanizmlərə əsaslandığı nəzəriyyələrdir.

*1) biotik nəzəriyyələr* iddia edir ki, homoxirallıq sadəcə həyatın təbii avtomatik gücləndirilməsi prosesinin nəticəsidir – ya həyatın bir xirallığa, ya da digərinə üstünlük verməsi kimi formalaşması müşahidə etdiyimiz xirallıqlarla baş verən təsadüfi nadir hadisədir və ya həyatın bütün xirallığı sürətlə yaranmışdır, lakin fəlakətli hadisələr üzündən və güclü rəqabət nəticəsində digər müşahidə olunmayan xiral üstünlüklər "qazanan" xirallıq seçimlərindən dominantlıq və metabolik, enantiomer zənginləşmə ilə yox olmuşdur. Əgər bu belədirsə, onda itmiş xirallıq əlamətinin qalıqları tapılmalı idi. Bu belə olmadığından, biotik nəzəriyyələr hazırda artıq dəstəklənmir.

*2) abiotik nəzəriyyələr* həyatın yaranmasından sonra homoxirallığın formalaşmasını güman edir.

Tezisdə həyat proseslərində homoxirallığın əsas nümunələri haqqında məlumat verilmiş, xüsusən də zülal makromolekullarını təşkil edən təbii amin turşularının eksklüziv sola fırladan formalarının üstünlük təşkil etməsi, həmçinin nuklein turşularının əsasını təşkil edən eksklüziv saga fırladan şəkərlərin üstünlük təşkil etməsi göstərilmişdir. Homoxiral birləşmələrin əmələ gəlməsinin ehtimal olunan mexanizmləri, o cümlədən, yer üzündə əmələ gələn homoxiral cisimlərin (atomlar, molekullar və digər hissəciklər) kosmik mənşəli olduğu homoxirallığın kosmik mənşəli olması, xüsusən, onların meteoritlərin parçalanma məhsullarından əmələ gəlməsi göstərilmişdir.

**Ədəbiyyat**


1. S.Toxverd, Origin of homochirality in biosystems, *İnt. J. Mol. Sci.*, 2009, 10, 3, p. 1290
2. E.I.Klabunovskii, G.V.Smith, T.A.Zsigmond, Heterogeneous enantioselective hydrogenation, *Theory and Practice. Dortrecht: Springer*, 2006, p. 315

# TƏRKIBINDƏ SULFAMID QRUPU OLAN FENOL EFIRLƏRININ ANTIMIKROB XASSƏLƏRI

**Şahanə Nəzərli[1], Sevgili Məmmədova[2], Gülnar Məmmədova[3]**

*Bakı Dövlət Universiteti[1]*
*Aşqarlar Kimyası İnstitutu[2]*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti[3]*
*alximikseva@mail.ru*

Apardığımız tədqiqatlar [1-3] göstərmişdir ki, tərkibində funksional qruplar olan sulfamidlər yüksək bakterisid xassəyə malikdirlər. Tərkibində arilsulfamid fraqmenti ilə yanaşı hidroksil və efir qrupları olan sulfamid törəmələrinin sintezi və tədqiqi maraq kəsb edirdi. Proton həlledicidə xloramin-B ilə butilakrilat arasındakı reaksiya zamanı əmələ gələn xlorhidrin və β-xlorefir çox funksialı birləşmələrin sintezi üçün sintondur. Xlorhidrinin piridin iştirakı ilə benzolsulfanilamid ilə qarşılıqlı təsiri zamanı N-alkilləşmə baş verir və (I) sinton alınır. Birləşmənin tərkibində olan hidroksil qrupunun reaktivliyini öyrənmək üçün fenol törəmələrindən istifafdə edilmiş və tərkibində sulfamid fraqmenti olan fenol efirləri sintez edilmişdir.




$R^1$=H, $R^2$=$CH_3$(1); $R^1$=H, $R^2$=Br (2) $R^1$=H, $R^2$=J (3); $R^1$= $CH_3$, $R^2$=H (4)

Uzun müddət aparılmış tədqiqatlar göstərmişdir ki, sulfamid tərkibli üzvi birləşmələr müxtəlif təsir sahələrinə malik dərman maddələri olmaqla yanaşı güclü bakterisidlərdir. Bunu nəzərə alaraq, sintez edilmiş birləşmələrin antimikrob xassələri öyrənilmişdir (Cədvəl 1).

***Cədvəl 1.***Sintez edilmiş birləşmələrin antimikrob xassələri

| № | Birləşmənin formulu | Qatılıq | Mikroorqanizmlərin məhv olma sahəsi, sm | |
|---|---|---|---|---|
| | | | Bakteriyalar | Göbələklər |
| 1 |  | 0.5 | 1.4-1.6 | 2.0-2.2 |
| | | 0.25 | 0.8-1.0 | 1.8-2.0 |
| | | 0.1 | 0.6-1.0 | 1.6-1.8 |

| | | | | |
|---|---|---|---|---|
| 2 |  | 0.5 | 2.0-2.4 | 2.4-2.6 |
| | | 0.25 | 1.4-1.6 | 1.8-2.0 |
| | | 0.1 | 1.0-1.0 | 1.4-1.6 |
| 4 |  | 0.5 | 1.6-1.8 | 2.2-2.4 |
| | | 0.25 | 1.0-1.2 | 2.0-2.0 |
| | | 0.1 | 0.8-1.0 | 1.4-1.6 |

**Ədəbiyyat**

1. S.A Mammadov, N.P Ladokhina, S.I Mammadova, L.S Aliyeva, Synthesis of derivatives of n-oxyphenylsulphanylids and their properties, *Азерб. Хим.. Журнал*, 2017, 2, с 50
2. L.F. Zeynalova, Some features of nucleophilic substitution of chlorine atoms in N-2,3-dichloroalkyl sulfamides and the studh of the antimicrobial properties of the obtained compounds, *Elmi Məcmuələr*, 2022, 23(4), s. 24
3. С.И.Мамедова, Н.П.Ладохина, Ш.Б.Аббасова, К.Т.Аскерова, Синтез и свойства многофункциональных сульфамидов на основе синтона 1-фенилсульфамидо-N-2-йод-3-хлорпропан, *Elmi Məcmuələr*, 2022, 24(3), s. 54

# МОДИФИКАЦИЯ ХЛОПКОВОЙ ТКАНИ НАНОЧАСТИЦАМИ ОКСИДА ЦИНКА

**Санан Гумбатов, Юсиф Байрамов, Расим Алосманов, Ирада Буният-заде**

*Бакинский Государственный Университет*
*sanan.humbatov@bk.ru*

